Bu bir xalq qəzetidi
ƏDALƏT

## Vasif Talıbov Ali Məclisin Sədri vəzifəsindən azad edildi



**Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsindən azad edilib.**

Adalet.az xəbər verir ki, rəsmi qərarı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov imzalayıb.

Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Yusif oğlu Talıbovun müraciətini nəzərə alıb.

Qeyd edək ki, bu gün Naxçıvan Ali Məclisinin qanunverici orqanın altıncı çağırış səkkizinci sessiyası keçirilib. Sessiyanın gündəliyinə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müraciətinə baxılması məsələsi daxil edilib.

Ali Məclis sədrinin birinci müavini Azər Zeynalov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov səhhəti ilə bağlı müraciətinə baxılmasını xahiş edib. Daha sonra isə qərar layihəsi sessiya iştirakçılarının diqqətinə çatdırılıb. Qərar səsə qoyularaq qəbul olunub.

## Milli Məclis İlham Əliyevi təbrik etdi



**Milli Məclis Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevi doğum günü münasibətilə təbrik edib.**

Adalet.az xəbər verir ki, MM sədri Sahibə Qafarova təklif edib ki, dövlət başçısı İlham Əliyevə Milli Məclis adından təbrik məktubu göndərilsin. Deputatlar sədrin təklifini alqışlarla qarşılayıblar.

Qeyd edək ki, dekabrın 24-də Prezident İlham Əliyevin 61 yaşı tamam olur.

## *Parlamentdə Nəcməddin Sadıkovun mühakimə olunması istənildi*

**"Bizdə belə bir ifadə var ki, gedənin dalınca danışmazlar. Amma bizdə gedənin daha çox tumarlanması prosesi baş verir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin dünən keçirilən iclasında deputat Fazil Mustafa deyib. Deputat bildirib ki, hüquq-mühafizə orqanları açıq-aşkar keçmiş Baş qərargah rəisi Nəcməddin Sadıkov mühakimə etməlidirlər: "Biz nahaqdan günahsız ölən zabit və əsgərlərimizin haqqını geri qaytaraq. O baxımdan da bu proseslərə daha məsuliyyətli yanaşmalıyıq. Ordumuzun təmizlənməsi istiqamətində işlərə baxmalıyıq". Deputat xatırladıb ki, ötən gün Türkiyənin Prezident kitabxanasında keçirilən sərgidə xatırladıldı ki, Prezident İlham Əliyev Şuşanın azad olunması ilə bağlı təqdim olunan planı geri çevirib və başqa planla Şuşanı azad edib: "Bəlkə də aprel döyüşlərində də bəzi planlardan xəbəri olsaydı, o bunu geri çevirərdi, bu qədər əsgər və zabitimiz günahsız həyatını itirməzdi".

## Hikmət Hacıyev Cahit Bağçını qəbul etdi



Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçını qəbul edib.

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə səfiri "Twitter" hesabında məlumat verib.

"Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevlə səmərəli bir görüşümüz oldu", - səfir paylaşımında qeyd edib.

## DİN əhaliyə müraciət etdi



**Daxili İşlər Nazirliyi (DİN) əhaliyə müraciət edib.**

Adalet.az-ın məlumatına görə, DİN-in mətbuat xidmətinin şöbə rəisi Elşad Hacıyev bildirib ki, polis orqanlarının inzibati binasına smartfon telefonlar daxil olmaqla, heç bir foto-video çəkiliş cihazlarının keçirilməsinə icazə verilmir.

"Bu qadağa polis orqanında çalışan əməkdaşlarla yanaşı, müraciət üçün gələn, dəvət edilən, gətirilən, yaxud digər şəxslərin təhlükəsizliyindən irəli gəlir. Nəzərə alınmalıdır ki, fasiləsiz xidmət göstərən polis cinayət və ya digər hüquqpozmalar törədən şəxsin tutulması və polisə gətirilməsi üçün tədbirlər görür", - E.Hacıyev qeyd edib.

## Naxçıvanda Prezidentin səlahiyyətli nümayəndəsi ictimaiyyətə təqdim edildi



**Dekabrın 23-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflini muxtar respublikanın ictimaiyyətinə təqdim edib.**

Adalet.az xəbər verir ki, tədbirdən əvvəl Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Samir Nuriyev təqdimat mərasimində çıxış edərək Naxçıvan Muxtar Respublikasının həmişə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunduğunu, ölkəmizdə aparılan quruculuq işlərinin tərkib hissəsi kimi Naxçıvanın inkişafı istiqamətində mühüm tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Prezident Administrasiyasının rəhbəri qeyd edib ki, Prezident İlham Əliyev sosial-iqtisadi inkişaf məsələlərinin həlli ilə yanaşı, həm də dövlət idarəçiliyinin təkmilləşdirilməsini, bütün sahələrdə şəffaflığın təmin edilməsini, inkişafa mane olan mənfi halların aradan qaldırılmasını əsas vəzifələrdən biri kimi müəyyənləşdirib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılması effektiv idarəçiliyin təmin edilməsi, vətəndaşla dövlət orqanları arasında dialoqun müasir tələblər səviyyəsində və qanun çərçivəsində qurulması, iqtisadi, sosial, mədəni və digər məsələlərin operativ və səmərəli həlli məqsədi daşıyır. Samir Nuriyev muxtar respublikanın yeni rəhbərliyinin qarşıda duran vəzifələrin vaxtında, tam və səmərəli şəkildə icrasını təmin etməklə Azərbaycan Prezidentinin göstərdiyi böyük etimadı doğruldacağına ümidvar olduğunu deyib.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 55 (5992) 24 dekabr 2022-ci il
Qiyməti 30 qəpik

## DEYƏSƏN, HÖKUMƏT BAŞINI İTİRİB





*Deməli, xəstəxanaları Səhiyyə Nazirliyindən alıb verdilər TƏBİB-ə, indi də TƏBİB-dən aldılar bağışladılar Səhiyyə Nazirliyinə. Deyəsən, "evcik-evcik" oynayırıq.*

# İlham Əliyev "Xocəsən" stansiyasının açılışını etdi



Bax:səh-2

## Ceyhun Bayramov: Ermənistan daha çox prosesi imitasiya etmək üçün səy göstərir



**Ermənistan daha çox prosesi imitasiya etmək üçün səy göstərir.**

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Moskvada rusiyalı həmkarı Sergey Lavrovla görüşündə deyib.

"Təəssüf ki, son vaxtlar biz münaqişədən sonrakı normallaşmanın müxtəlif mərhələlərində müşahidə etdik ki, səylər daha çox real prosesə deyil, bu prosesin imitasiyasına yönəldilir.

Təəssüf ki, bu məsələdə Azərbaycan tərəfi üçün yeni heç nə yoxdur. Bu, Ermənistanın mövqeyidir. Real nəticəyönümlü fəaliyyətlə məşğul olmaqdan daha çox prosesin imitasiyasını yaradan Ermənistanın 30 ildən artıqdır ki, sadiq qaldığı mövqedir", - deyə o bildirib.

C.Bayramov qeyd edib ki, həqiqətən də danışıqlar prosesinə, siyasi-diplomatik yolla həllə köklənəcək bir ölkə üçün 30 il ərzində hərbiləşdirməyə böyük vəsait sərf etmək mənasızdır.

## ZAKİR QARALOVUN ÜZR İSTƏMƏYİ KİMƏ LAZIMDI?

**Millət vəkili Zahid Oruc parlamentdəki çıxışında "Tərtər işi" cinayəti ilə bağlı Zakir Qaralovun xalqdan üzr istəməsini tələb etmişdi.**

Qaralovun üzr istəməsi nəyi dəyişəcək? İşgəncə altında öldürülən əsgər və zabitlərin qəbirlərinə və valideynlərinin dərdinə su çiləyəcəkmi? Vətən xaini damğası ilə ləkələnmiş əsgər və zabitlərin dərdlərinə əlac olacaqmı? Hətta doğma qəbiristanlıqlarında basdırılmayan, daha doğrusu, basdırılmasına icazə verilməyən əsgərlər məzarlarında rahat uyuya biləcəkmi?



44 günlük müharibədə Ermənistan silahlı qüvvələrini darmadağın edərək Zəfər qələbəsi qazanmış ordumuzun üstündən bu ləkə götürüləcəkmi?

Əlbəttə yox! Belə bir məsəl var ey, "Üzr bedtər əz günah". Qaralovun üzrü günahından da betər olar.

Yalançı ittihamlarla işgəncə nəticəsində öldürülmüş əsgər və zabitlərin qəbirlərinə və valideynlərinin ürəklərinə onda su çilənər ki, öz qəbiristanlıqlarında dəfn olunmağa qoyulmayan əsgər və zabitlər qəbirlərində onda rahat uyuyar ki, ordumuzun üstündən ləkə onda götürülər ki, Zakir Qaralov məsuliyyətə cəlb oluna!

Bir maraqlı film var: "Bir neçə yaxşı adam", Amerika filmidi. Kubadakı Amerikanın hərbi bazalarının birinin komandirinin əmri ilə bir əsgərə "qırmızı kod" tətbiq olunur və işgəncə ilə öldürülür. Filmi danışmaq fikrim yoxdur, həmin əsgəri öldürən iki əsgər barəsində cinayət işi qaldırılır və həbs olunurlar. Tutulan əsgərlərin vəkilləri toçnu bizdəki kimi məhkəmə prosesində bu cinayətin kökünü araşdırır. Nəticədə öldürən əsgərlər məsuliyyətdən azad olunur, amma əmr əmrdi. Və qeyri-qanuni əmri yerinə yetirdiklərinə görə dəniz piyadaları ordusundan biabırcasına xaric edilirlər.

Və qeyri-qanuni əmri verən hərbi hissə komandiri polkovnikdən üzr istəmək tələb edilmir və həbs olunur.

Bircə fərq var - orda qeyri-qanuni əmr verib cinayət etmiş polkovnikdi, bizdə isə general-polkovnik.

## LOBANOVSKİ ŞEVÇENKONU 7 MİLYONA SATMADI

*(Dostum Qurban Qurbanovun diqqətinə)*





**İtalyanlar "Dinamo" Kiyevin oyunçusu Şevçenkoya 7 milyon pul təklif etdilər, Lobanovski satmadı. Sonra qiyməti 9 milyona, daha sonra 11 milyona, 15 milyona, 18 milyona və daha sonra 21 milyona qaldırdılar. Təxminən 6 ay müddətində Şevçenkonun qiyməti 7 milyondan 21 milyona qalxdı. Sonra Lobanovski 21 milyon qarşılığında Şevçenkonu buraxdı.**

Yeri gəlmişkən, Hakan Şükürə İtaliya klubu 3 milyon təklif edən kimi satdılar. Halbuki Hakan Şükür Şevçenkodan zəif oyunçu deyildi.

İndi qəzetələrdə oxuyuram ki, "Qarabağ"ın bombardiri Musa Qurbanlını Polşa klubu almaq istəyir, özü də su qiymətinə - 350 min avroya.

Musanın yeni parlayan dövrüdü, sabahın Şevçenkosudu, Zavarovudu, Hakan Şükürüdü.

Qurban qardaşım, nə badə razı olasan.

Bir də ki Musa kimi bir futbolçunu, bir oğulu hələ başqa komandaya satmaq çox tezdi. Bir il keçər, qiyməti on dəfə artar. Özü də məşhur klublar istəyər, day Polşanın hər hansı "Səbail" kimi klubu yox.

**Xalq artisti Fikrət Verdiyev Haqqa qovuşdu.**
**Allah rəhmət etsin!**



## *BAŞINIZI ELƏ UKRAYNA QATSIN*



**Moskva Beynəlxalq Əlaqələr İnstitutunun professoru, kafedra müdiri, nə bilim nəyinin nəyi, ermənilərin eşşəyinin qurd dayısı Mixail Aleksandrov deyib ki, Bakını bombalamaq lazımdır. İşdən çıxarıblar. Azərbaycanın Baş Prokurorluğu da haqqında cinayət işi qaldırıb.**

Rusiyanın Raket və Artilleriya Elmləri üzrə İnformasiya Siyasəti Akademiyasının prezident müavini, hərbi elmlər doktoru Konstantin Sivkov .da bir az irəli gedərək deyib ki, Ukrayna müharibəsini həll edək, sonra Azərbaycanla məşğul olacağıq.

"26-lar" filmində Şahbazov dirsəyini göstərib erməni liderinə deyir ey: "Dirsəyimi ye".

Başınız Ukraynadan açılacaq ki?

## Ziyalıya sığınan dağa söykənər

Bax:səh-4

## QARABAĞLILAR HƏLƏ DƏ ÖLÜLƏRİNİ...

*Bərəkət toxumu tək basdırır,*
*gah Hövsanda,*
*gah Lökbatanda,*
*gah Zabratda,*
*gah da altmış dörd rayonda.*

*Ağdamın Qarağacı qəbiristanlığı hələ də, dirilər cəhənnəm, ölülərinin yolunu gözləyir.*

*70-ci illərdə Çində uyğurları sıxışdıranda 80 yaşlarında bir uyğur gəlib "Azərbaycan gəncləri" qəzetinə çıxmışdı. Şair Şahmar Əkbərzadə də ona gözəl bir şeir yazmışdı: "Doğulduğu torpaqda qəbir istəyir qoca".*

## VAR "KƏPƏZ"İ YOXDAN DA QOYDU



**"Turan" Tovuzla "Kəpəz"in Kubok uğrunda 1/4 oyununda əlavə vaxtın 90+5-ci dəqiqəsində "Turan"ın futbolçusu cərimə meydançasında "Kəpəz"in hücumçusuna qarşı karate fəndindən istifadə elədi, sinəsinə babat bir təpik qoydu.**

VARa müraciət etdilər, sonra oyunun hakimi gedib təkrara baxdı, penalti vermədi. Dedi ki, topu çıxarandan sonra vurub. Yəni p.. deyil, babam eləyib.

**Alın, bu da sizə VAR.**

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## İLHAM ƏLİYEVİN ŞƏHƏRLƏRİ



**93-cü il! Yenicə müstəqilliyini qazanmış respublika dağılmaq, məhv olmaq təhlükəsi altındadır. Anarxiya, qanunsuz silahlı birləşmələr, vətəndaş müharibəsi ərəfəsi. Belə bir ərəfədə xalqın təkidli xahişi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldi. Büdcədə pul yox, iqtisadiyyat çöküb, müharibə şəraiti, torpaqlarımız işğal altında.**

Bu böyük dövlət adamı iki ilin içində dağılmaqda olan respublikanın əl-ayağını bir yerə yığa bildi. Bütün silahlı dəstələri zərərsizləşdirə bildi. Və sübut elədi ki, hakimiyyətə gəlməyin yolu yalnız seçkilərdir, hakimiyyətin mənbəyi xalqdır. İqtisadiyyatı yenidən qurmağa başladı, əsrin müqavilələrini imzaladı, Azərbaycanı dünyanın diqqət mərkəzinə çevirdi.

Ulu Öndərin ən böyük arzusu torpaqlarımızı düşmən işğalından azad etmək idi. Ömür vəfa etmədi.

Bu müqəddəs vəzifə Onun siyasi varisi İlham Əliyevin üzərinə düşdü.

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

Vəli Xramçaylı ilə Kəramət Böyükçöl bulvarda çayxanada söhbət edirlər. Son vaxtlar intiharda cox danışan Kəramət:

**- Vəli qardaş, sən dünya görmüş adamsan. Görəsən o ən hündür binadan özümü yerə atsam neçə günə yerə düşərəm?**





Vəli Xramçaylı:

**- Uzağı bir həftəyə.**

Kəramət:

**- Bəs görəsən yerə düşəndə ölərəm?**

Vəli Xramçaylı:

**- Ayə bə nədi, bir həftə yerə düşənəcən göydə elə ajınnan ölərsən dana.**

## İlham Əliyev "Xocəsən" stansiyasının açılışını etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Bakı Metropoliteninin "Xocəsən" stansiyasının və "Xocəsən" elektrik deposunun açılışında iştirak edib.**

Adalet.az xəbər verir ki, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov Prezident İlham Əliyevə stansiyada və depoda görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Bakı Metropoliteni xətlərinin ümumi uzunluğu 40,7 kilometrdir. Metropolitenin Qırmızı, Yaşıl və Bənövşəyi xətləri üzrə ümumilikdə 27 stansiyası fəaliyyət göstərir.

Xatırladaq ki, 2016-cı il aprelin 19-da Prezident İlham Əliyevin iştirakı ilə Bakı Metropoliteninin üçüncü - Bənövşəyi xəttinin açılışı olub. Bənövşəyi xətt ilə "Avtovağzal" və "Memar Əcəmi" stansiyaları da istifadəyə verilib. Ötən il mayın 29-da isə bu xətt üzrə üçüncü - "8 Noyabr" stansiyasının açılışı olub.

Qeyd olundu ki, "Xocəsən" stansiyası Bənövşəyi xətt üzərində yerləşən dördüncü stansiyadır. Kompleksin ümumi sahəsi 4200 kvadratmetr, stansiya platformasının uzunluğu 144 metrdir. Stansiya Lökbatan qəsəbəsi və "Sədərək" Ticarət Mərkəzi istiqamətindən hərəkət edən vətəndaşların nəqliyyat problemlərinin aradan qaldırılmasında mühüm rol oynayacaq. Bu stansiyada Almaniyanın "ThyssenKrupp Fahrtreppen" şirkətinin istehsalı olan iki eskalator quraşdırılıb. "Xocəsən" stansiyası xəttin başlanğıcında yerləşir və qatarların sərnişinlərin tələbatına uyğun intensiv hərəkətinin təmin edilməsinə şərait yaradacaq. Həmçinin "8 Noyabr" stansiyasının arxasında dönmə kamerası yerləşdiyindən intervalın tənzimlənməsi rahat olacaq.

Məlumat verildi ki, "Xocəsən" elektrik deposu Bakı Metropoliteninin sayca ikinci deposudur və 24 hektardan çox ərazini əhatə edir. Üç mərhələdən ibarət inşaat layihəsinin hazırda birinci mərhələ istifadəyə verilib.

"Xocəsən" elektrik deposunda iki içməli su anbarı, iki yanğın su anbarı, üç baxış qanovu və xidməti otaqlar, qatarların hərəkətini idarə etmək üçün blok-post, elektrik yarımstansiyası, təmir və texniki baxış infrastrukturu yaradılıb.

Daha iki mərhələ üzrə işlər xəttin yeni stansiyaları və tunelləri inşa olunduqca tələbata uyğun görüləcək. Belə ki, ikinci mərhələ üzrə hərəkət qatarına xidmət üçün məişət otağı ilə dayanma korpusu, qatarların yuyulması kamerası, təkərlərin diaqnostika kompleksi, yanacaq-sürtkü materialları anbarı, dönmə qurğuları, kompressor stansiyası, təmir-dayanacaq binası üçün qazanxana inşa olunacaq. Üçüncü mərhələdə isə vaqonların təmiri və istehsalı korpusu, inzibati və məişət binaları, dispetçer idarəetmə məntəqəsi və vaqon təmiri binaları üçün qazanxana, qaldırıcı kran estakadası ilə texnoloji platformanın tikintisi nəzərdə tutulur.

**Qeyd edək ki, ölkəmizdə müasir infrastrukturun qurulması bütün sahələri, o cümlədən nəqliyyatın əhəmiyyətinin xüsusilə artdığı indiki dövrdə metropoliteni də əhatə edir. Hazırda Bakı Metropoliteninin konseptual inkişaf proqramına uyğun işlər sürətlə davam etdirilir. Proqrama əsasən, 2030-cu ildə paytaxtın yeraltı yollarının ümumi uzunluğu 119,1 kilometrə, stansiyaların sayı isə 76-ya çatdırılacaq.**

# İLHAM ƏLİYEVİN ŞƏHƏRLƏRİ

**93-cü il! Yenicə müstəqilliyini qazanmış respublika dağılmaq, məhv olmaq təhlükəsi altındadır. Anarxiya, qanunsuz silahlı birləşmələr, vətəndaş müharibəsi ərəfəsi. Belə bir ərəfədə xalqın təkidli xahişi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldi. Büdcədə pul yox, iqtisadiyyat çöküb, müharibə şəraiti, torpaqlarımız işğal altında.**

Bu böyük dövlət adamı iki ilin içində dağılmaqda olan respublikanın əl-ayağını bir yerə yığa bildi. Bütün silahlı dəstələri zərərsizləşdirə bildi. Və sübut elədi ki, hakimiyyətə gəlməyin yolu yalnız seçkilərdir, hakimiyyətin mənbəyi xalqdır. İqtisadiyyatı yenidən qurmağa başladı, əsrin müqavilələrini imzaladı, Azərbaycanı dünyanın diqqət mərkəzinə çevirdi.

Ulu Öndərin ən böyük arzusu torpaqlarımızı düşmən işğalından azad etmək idi. Ömür vəfa etmədi.

Bu müqəddəs vəzifə Onun siyasi varisi İlham Əliyevin üzərinə düşdü.

Heydər Əliyevdən sonra hakimiyyətə gələn İlham Əliyev 17 il bütün döyüşlərə (oxu: görüşlərə) tək gedirdi. Ermənilər isə türklər demiş, heç vaxt təkər-təkər gəlmirdilər. Ermənistanın arxasında duran qüvvələr fikirləşirdilər ki, bu gənc (hakimiyyətə gələndə 43 yaşı vardı) lideri yerində oturda biləcəklər, Qarabağı Azərbaycandan qoparda biləcəklər və Ermənistana peşkəş edəcəklər. Müxtəlif layihələrlə gəlirdilər, müxtəlif təkliflərlə və sair və ilaxır. Fikirləşirdilər ki, gəncdir, təcrübəsizdir, Heydər Əliyev kimi dünyada tanınan bir siyasətçi deyil.

Amma unudurdular ki, o, Heydər Əliyevin oğludur, Heydər Əliyev məktəbi keçib. Dünyanın öndə gedən diplomatik institutlardan birini əla qiymətlərlə bitirib.

Yadıma bir hadisə düşdü. Alparslan Türkeş dünyasını dəyişəndə Milliyyətçi Hərəkat Partiyasında Türkeşin oğlu Toğrul Türkeşi sədr seçmək istəyəndə önünə bir şərt qoydular ki, o, ülkü ocaqlarında təhsil almayıb, o zaman Toğrul bəy gülüb demişdi:

- Ülkü ocaqlarında mənim atamın yazdığı kitablardan dərs keçirlər. Bu ocaqlarda təhsil alanlar həftədə iki dəfə mənim atamın yazdığı kitablardan iki-üç saat təlim-tərbiyə alırlar. Necə olur ki, onlar ülküçü sayılır, amma hər gün iyirmi dörd saat atamın ideyaları ilə böyüyən mənim qarşıma belə şərt qoyursunuz.

Bir daha xüsusilə vurğulayıram ki, onlar unudurdular 43 yaşınadək Heydər Əliyevin təlim-tərbiyəsini, siyasi görüşlərini, əqidəsini, vətənpərvərliyini, milli məfkurəsini gündə 24 saat mənimsəyən və artıq yetişmiş, müdrikləşmiş İlham Əliyevlə qarşı-qarşıyadılar.

İlham Əliyev qarşısına bir məqsəd qoymuşdu, Atasının ona etdiyi vəsiyyəti - torpaqlarımızı Ermənistanın işğalından xilas etmək, müstəqilliyini əbədi etmək vəsiyyətini həyata keçirmək üçün gecə-gündüz çalışır, mübarizə aparır.

Ölkənin iqtisadiyyatını qurur, dünyanın aparıcı dövlətləri ilə iqtisadi əlaqələr yaradır, Azərbaycanı tək regionda deyil, dünyada söz sahibinə çevirir, Müdafiə Sənayesi Nazirliyi yaradır, yeni ordu yaradır, ordunun maddi-texniki bazasını möhkəmləndirir. Qarşısında bir amal var: güclü iqtisadiyyat, güclü dövlət, güclü ordu və ağıllı siyasət.

Birinci Qarabağ savaşında Allahın avtomat patronunu, ən sadə döyüş silahlarını xaricdən alan Azərbaycan indi nəinki öz ordusunu ən müasir silah-sursatlarla, raketlərlə , PUA-larla, dronlarla, ağır artileriya ilə təmin edir, eləcə də dünyanın 30-a qədər dövlətinə silah-sursat satır.

Bəli, prezident İlham Əliyev reklamsız öz işiylə məşğul idi və heç bir danışıqlarda da bir addım geri çəkilmirdi. Bir sözlə, Ermənistan və havadarları bir daş idilərsə, Qayaya rast gəlmişdilər. Onlar "nöqtə" idilər, amma "Nida" qarşılaşmışdılar.



Hər şeyin bir zamana ehtiyacı vardı. Prezident deyirdi: "Mən nəyi, nə vaxt və necə etməyi yaxşı bilirəm".

Vaxt gəldi, dediyini dedi, elədiyini də elədi. 44 günün içində, belə demək mümkünsə, ildırım sürətilə Azərbaycanın 30 ilə yaxın bir dövrdə işğal altında olan bütün torpaqlarını (təxminən 19 min kv. km) öz sərkərdəlik məharəti ilə azad elədi.

Hələ uzun illər bundan əvvəl deyirdi ki, gün gələcək müqəddəs Azərbaycan bayrağı işğal altında olan bütün torpaqlarımızda dalğalanacaq. O gün gəldi! Məhz onun sərkərdəliyi ilə ordumuzun müzəffər əsgərləri o bayrağı bütün Qarabağ boyu dalğalandırdılar.

Son beş əsrdə Azərbaycan ilk dəfəydi ki, Onun komandanlığı altında itirdiyi torpaqlara sahiblənirdi.

Bu 44 günlük müharibə bütün dünyanı, daha dəqiq desək, ermənilərin arxasında duran böyük dövlətləri təkcə çaşdırmamışdı, həm də sarsıtmışdı. Ermənistan da, arxasında duran dövlətlər də qarşılarında qüdrətli bir Azərbaycan və qüdrətli bir Sərkərdə gördülər.

Prezident İlham Əliyev özü də təkcə döyüşdə qalib gəlmədi, diplomatiyada da qalib gəldi. Məhz uğurlu xarici siyasəti nəticəsində, özünün çevik diplomatiyası ilə dünyanın bir sıra söz sahibi olan ölkələri Azərbaycanın yanında oldular, haqq səsinə səs verdilər.

İlham Əliyev təkcə ata vəsiyyətini yerinə yetirmədi, O, Azərbaycan xalqının arzusunu, istəyini həyata keçirdi. Bir milyon qaçqının 30 ildə həsrətlə gözlədiyi qələbə müjdəsini də verdi. Azərbaycan xalqının qürurunu özünə qaytardı! Artıq bir ildən çoxdur ki, işğaldan azad olmuş şəhər və kəndlərimizdə quruculuq işləri gedir. Bilirsiniz, bu quruculuq işində ən çətin olanı nədir? Biri var hər şeyi sıfırdan başlayasan, biri də var minusdan başlayasan. Mənfur düşmən şəhər və kəndlərimizi elə bir xarabazara çeviriblər ki, o xarabazarlığı təmizləmək, yerində şəhər və kəndlər salmaq ikiqat maddi vəsait tələb edir. Təkcə Ağdamı xarabazarlıqdan təmizləmək üçün bəlkə də minlərlə maşın və texnika lazımdı. Şəhərdə hələ tikililəri demirəm, infrastrukturu yenidən qurmaq üçün milyardlarla pul lazımdır. Və Azərbaycan heç bir dövlətdən borc almadan bütün şəhər və kəndlərimizi yenidən qurur.

Müstəqillik qazanan gündən müharibələrdə, sonra da müharibə şəraitində yaşayan, 44 günlük Vətən müharibəsi aparan bir dövlət üçün bu çox ağırdı.

Yenə də ikiüzlü siyasətlə üz-üzəyik. Avropa İttifaqı heç bir kəndi-kəsəyi dağılmamış, evi-eşiyi yağmalanmamış Ermənistana 2,6 milyard dollar yardım ayırır, Azərbaycana 140 milyon dollar. Eybi yox, bu xalq Möhtərəm Prezidentin rəhbərliyi ilə bu sınaqdan da, bu çətinlikdən də uğurla çıxacaq.

Necə deyərlər, Möhtərəm Prezident İlham Əliyev əlini bu ağırlığın altına qoyub və bunun da öhdəsindən gələcək. Təbii ki, xalqımızla bir yerdə.

Şair Məmməd Araz yazır:

***Bir daşın qulpundan yapışsa hərə,***
***Nə imiş bir kəndin şəhər olmağı?***

İndi biz də hərəmiz bir daşın qulpundan yapışsaq Ağdamı, Füzulini, Kəlbəcəri və sair şəhər və kəndlərimizi abad eləmək nə çətin bir işdir?

Pyotr bataqlıqda şəhər saldı, indi onun adıyla adlanır Peterburq.

Əmir Teymur Türk dünyasına iki böyük şəhər bağışladı - Səmərqənd və Buxara. Üstündən 500 il keçir, bu şəhərlərə Əmir Teymur şəhərləri deyirlər.

Dünyada şəhərləri yandıran, yer üzündən silən padşahlar olublar. Amma onların adı nə tarixdə qalıb, qalıbsa nifrətlə anılır, Neron kimi.

Qurub-yaradanlar yaşayır, üstündən yüz illər, min illər keçsə də.

İlham Əliyev köçəryanların, sərkisyanların, ohanyanların, nə bilim hansı yanların dağıtdığı şəhərləri yenidən tikir.

Bu şəhərlər təbii ki, öz adıyla yaşayacaq : Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın, Kəlbəcər, Şuşa, Xocavənd. Amma illər, yüz illər keçəcək bu şəhərlər tarixdə İlham Əliyevin şəhərləri kimi qalacaq.

Təkcə Ağdamı misal gətirim. Yüz minlik bir şəhər salınır. Dünyada tayı-bərabəri olmayan bir şəhər. Baş planla hamımız tanışıq. Mən Baş planla tanış olandan sonra bunu Ağdamda görüşdə Möhtərəm Prezidentə də dedim. Şəhərin bu Baş planı müharibədən sonra işlənmiş bir plan deyildi. Belə bir müdhiş planı hazırlamaq üçün uzun illər lazım idi. Deməli, Möhtərəm Prezident hələ müharibədən çox-çox əvvəl Qarabağda yenidən inşa olunacaq şəhər və kəndlərin layihələrini hazırlatmış, dəfələrlə memarları üstündə yenidən işləməyi tövsiyyə etmiş və ən nəhayət, son qərara gəlmişdir. Layihələr o qədər dəqiqliklə, incəliklə işlənib ki, bu dörd-beş ayın məhsulu deyil.

Deməli, Möhtərəm Prezident torpaqlarımızın azad olunacağını və nə vaxt azad olunacağını, özünün dediyi kimi, çox gözəl bilirmiş.

30 ildir Şuşaya bayraq sancmağımıza inanmayanlara da xatırlatmaq istəyirəm ki, lap tezliklə Azərbaycan bayrağı Xankəndində, Xocalıda, Əsgəranda və Ağdərədə də dalğalanacaq. Hər şeyin bir zamana ehtiyacı var, zaman da bizim xeyirimizə işləyir. Bu zamanı da bizim xeyirimizə işlədən Ali Baş Komandan, Möhtərəm Prezident İlham Əliyevdir.

Bu gün Möhtərəm Prezident İlham Əliyevin doğum günüdür. Ona nə arzulayım?! Tanrı ona hər şey verib: boy-buxun, yaraşıq, Sərkərdəlik qabiliyyəti, Xalq sevgisi, 44 günlük müharibədə onu bir an da tək buraxmayan ömür-gün yoldaşı, qüdrətli dövlət, dünyada qəbul olunan müdrik bir siyasətçi. Tarixə adı qızıl hərflərlə yazılacaq qüdrətli bir Sərkərdə.

Mən Möhtərəm Prezidentə nə arzulayım?! Tanrı o günü İlham Əliyevə, Azərbaycan xalqına qismət eləsin ki, yenidən tikdiyi İlham Əliyevin şəhərlərinin sakinlərinin doğma yurd-yuvalarına dönəcəyi gün açılış lentlərini kəsməyi qismət eləsin.

Ağdamda, Kəlbəcərdə, Laçında və sair şəhərlərimizdə ad gününü öz ev-eşiyinə köçmüş qaçqınlarla birgə keçirtməyi, çay süfrəsi arxasında oturmağı, onlarla birgə Qarabağ plovu yeməyi arzulayıram.

Qismət olsa, mən də orda olmaq istərdim.

**Möhtərəm Prezident, ad gününüzü ürəkdən təbrik edirəm. Sizə uzun ömür, can sağlığı və ömür-gün yoldaşınız, xalqın sevimlisi Mehriban xanım Əliyeva ilə birlikdə Azərbaycan naminə daha böyük uğurlara imza atmağınızı arzulayıram.**

**Tanrı Sizi qorusun!**

**Aqil ABBAS,**
**Milli Məclisin deputatı,**
**yazıçı**

## XİN-dən Miyatoviçə cavab: "Dağlıq Qarabağ əhalisi" anlayışı mövcud deyil"



**"22 dekabr tarixində Avropa Şurasının İnsan Hüquqları üzə komissarı Dunya Miyatoviçin Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı bəyanatı qərəzli olmaqla yanaşı, yerdəki reallıqları əks etdirmir. Komissar görünür ki, növbəti dəfə ikili standart və selektiv yanaşma tətbiq etməkdədir".**

Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında belə deyilir.

XİN qeyd edir ki, Dunya Miyatoviç həm keçmiş münaqişə dövründə yüzminlərlə azərbaycanlının acınacaqlı humanitar vəziyyətinə və insan haqlarına, həm də 2020-ci il müharibəsindən sonra Azərbaycana qarşı humanitar hüququn kütləvi pozuntularına diqqət yetirmir. Buna görə də, Qarabağda yaşayan erməni sakinlərin hüquqlarına dair bəyanat verilməsi Miyatoviçin məsələlərə göstərdiyi qərəzin nümunəsidir.

"Eyni zamanda, 44 günlük müharibə müddətində beynəlxalq humanitar hüququ açıq şəkildə pozmaqla Ermənistanın törətdiyi hərbi cinayətləri, münaqişə zonasından xeyli kənar şəhərlərdə mülki əhaliyə qarşı hücumları, müharibədən sonra 276 azərbaycanlının mina qurbanı olması ilə nəticələnən mina təhdidlərini və bununla məcburi köçkünlərin evlərinə qayıtmasına törədilən maneələri Miyatoviçin göz ardına aldığı məlumdur. Bu xüsusda, komissarın sözügedən bəyanatı ən azı səmimiyyətdən uzaqdır.

Bununla yanaşı, Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarının, bu sərvətlərin Azərbaycandan Ermənistana daşınması və yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın yolundan sui-istifadə hallarının qarşısının alınması tələbi ilə Laçın yolunda dinc etirazlara Miyatoviç tərəfindən qərəzli mövqe nümayiş etdirilməsi anlaşılan deyil", - deyə XİN bildirir.

XİN komissara xatırladıb ki, bəyanatda bəhs etdiyi "Dağlıq Qarabağ əhalisi" anlayışı mövcud deyil: "Keçmiş "Dağlıq Qarabağ"ın azərbaycanlı əhalisi məhz Ermənistanın bədnam etnik təmizləmə siyasəti nəticəsində bu ərazilərdən qovulub və hazırda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə yaşayan erməni sakinlər əhalinin bütün seqmentlərini təmsil etmir.

Xarici İşlər Nazirliyinin son bir neçə gün ərzində verdiyi bəyanatlarda qeyd edildiyi kimi, guya Laçın yolunun bağlanması, bölgədə "humanitar fəlakət" yarandığı barədə Miyatoviçin təkrarladığı iddialar eynilə əsassızdır. Yerli sakinlərin istifadəsi üçün malların tədarükü və ya zəruri tibbi xidmətlərin göstərilməsi ilə bağlı heç bir maneə yoxdur. Fakt budur ki, ötən günlərdə Rusiya sülhməramlı kontingentinin və Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) konvoyları, erməni təcili tibbi maşınları daxil olmaqla, bir sıra nəqliyyat vasitələri heç bir maneə olmadan yoldan keçib. Azərbaycan hökuməti həmçinin erməni sakinlərinin üzləşə biləcəyi bütün humanitar ehtiyacları operativ şəkildə həll etməyə hazır olduğunu dəfələrlə bəyan edib.

Beləliklə də, Avropa Şurasının komissarı növbəti dəfə işinin müstəqilliyi və qərəzsizliyini şübhə altına alıb. Bununla yanaşı, komissarın bəyanatı bölgədə sülh və əmin-amanlığa töhfə vermir.

Bir daha, komissarı mandatının tələb etdiyi kimi qərəzsiz olmağa və Avropa Şurasının nüfuzuna xələl gətirəcək hərəkətlərdən və açıqlamalardan çəkinməyə çağırırıq".

## *Millət vəkili:* "Təklif olunan namizədlərin 12-sinin ən azı 5 il hakim kimi iş təcrübəsi yoxdur"

**"Mən təkliflərlə bağlı öz fikirlərimi bildirmək istəyirəm. Bu gün biz Məhkəmələr və hakimlər haqqında qanunun 94-cü maddəsinin 4-cü hissəsinə əsasən namizədliyi Ali və Apellyasiya Məhkəmələrinə təqdim olunmuş hakimləri təyin edirik. Qanunun 4-cü bəndində qeyd olunur ki, yuxarı instansiya məhkəmələrinin hakimi vəzifələrinə bir qayda olaraq ən azı beş il birinci instansiya məhkəmələrinin hakimi işləmiş şəxsər təyin oluna bilərlər. Bizə təklif olunan namizədlərinin 12-sinin ən azı 5 il hakim kimi iş təcrübəsi yoxdur".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin keçirilən iclasında parlamentin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib.

O bildirib ki, həmkarı Nizami Səfərov bildirdi ki, təcrübəli hakimlər irəli çəkilib: "Bu namizədlərin irəli sürülməsi qeyd etdiyim bənddəki "bir qayda olaraq" ifadəsinə istinad olunmaqla irəli sürülüb.

Həmin ifadədən qanunlarda istifadə olunmasına "Normativ hüquq aktlar haqqında" konstitusiya qanunun dövlət orqanının, vəzifəli şəxsin səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə amilləri adlanan 64.4-cü maddəsi ilə qadağa qoyulur. 64.10-cu maddədə də deyilir ki, qanunlarda qiymətləndirmə xassəli kateqoriyalardan istifadə edilə bilməz.

Məhz bu baxımdan "Məhkəmələr və hakimlər haqqında" qanunun keçid müddəalarının 7-ci bəndindəki "son yaş həddinə çatmış hakimin peşəkarlığından istifadə edilməsinə ehtiyac olduqda Məhkəmə Hüququ Şurasının təklifi ilə onun səlahiyyət müddəti 70 yaşınadək artırıla bilər" müddəası konstitusiyaya ziddir.

Ali Məhkəmənin sədri də 68 yaşını-son yaş həddini keçdiyindən bu gün konstitusiyaya zidd olaraq həmin vəzifəni tutur. Hörmətli həmkarlar, xatırlayırsınızsa sabiq ombudsman Elmira Süleymanova qanunda nəzərdə tutulandan artıq vəzifədə qaldığı üçün Azərbaycanın beynəlxalq reytinqi aşağı salınıb. Konstitusiyanın 156-cı maddəsinin 5-ci bəndində qeyd olunur ki, konstitusiya qanunları konstitusiyanın ayrılmaz hissəsidir. Konstitusiyanın 147-ci maddəsində isə qeyd olunur ki, Azərbaycan Respublikasının konstitusiyası ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir. Deməli hakimlər təyin olunarkən "bir qayda" ifadəsi konstitusiya ilə ziddiyyət təşkil etdiyindən konstitusiyaya istinad olunmalıdır.

Ən paradoksal və acınacaqlı hal ondan ibarətdir ki, biz bu gün "bir qayda olaraq" ifadəsini "Normativ hüquqi aktlar haqqında" konstitusiya qanununa zidd olduğu üçün "Məhkəmələr və hakimlər haqqında" qanundan çıxaracaqlar. Yəni bu gün konstitusiyaya zidd qərar qəbul etdiyimizi bilirik. "Məhkəmələr və hakimlər haqqında" qanunun 95-ci maddəsinə əsasən hakimlər vəzifələrinin icrasına başlamazdan əvvəl konstitusiya və qanunlara əməl edəcəklərinə dair and içirlər.

Konstitusiyaya zidd təyin olunan hakimlər ədalət mühakiməsini necə həyata keçirəcəklər, konstitusiyanı necə qoruyacaqlar? Gəlin belə qəbul edək ki, əskinədir, qanunlar konstitusiyadan üstündür. O halda belə istisna olaraq 1, maksimum 2 şəxs 5 il iş təcrübəsi olmadan yuxarı instansiya məhkəməsinə təyin oluna bilər. Biz isə qeyd etdiyim kimi 12 nəfər təyin edirik". Millət vəkili əlavə edib ki, bu Apellyasiya Məhkəmələrinə ümumi təyin olunanların 50 faizindən çoxudur: "Ötən il bu vaxt biz Apellyasiya Məhkəmələrinə 8



nəfər təyin etdik, 8-i də istisna olaraq təyin olundular. Hər bir halda konstitusiyanın pozulması və ona zidd olan qanundan sui-istifadə halı ortadadır. Normativ hüquqi aktlar haqqında konstitusiya qanununun 1-ci maddəsində verilən anlayışda göstərilir ki, normativ hüquqi aktdan sui-istifadə korrupsiya şərait yaradan müddəaların olması deməkdir. Hörmətli həmkarlar! Bizə hakimlər haqqında ətraflı məlumat verilmir.

Məsələn, biz bilmirik ki, hansı hakim hansı Appellyasiya Məhkəməsində, yaxud Ali Məhkəmədə kollegiyanın üzvü seçiləcək. Məhkəmə Hüquq Şurasının nümayəndəsinin komitədə verdiyi məlumata görə, birinci instansiya məhkəmələrində 5 il təcrübəsi olan 200-dən artıq hakim var. Niyə onların sırasından namizədlər seçilməyib? Bugünkü təyinatlar həm də o 200 nəfərə münasibətdə hesab edirəm ki həqarətdir.

Orada göstərilmir ki, hansı hakim Apellyasiya Məhkəməsində hansı kollegiyada olacaq. Məsələn bir dənə də olsun ağır cinayət işinə baxmamış hakim necə Apellyasiya Məhkəməsində cinayət işləri üzrə kollegiyanın üzvü ola bilər? Əslində belə olmalıdır, norma və məntiq də bunu deyir ki, məsələn Ağır Cinayətlər Məhkəməsinin ən təcrübəli hakimi Apellyasiya Məhkəməsinin cinayət işləri üzrə kollegiyasında yer olarsa, ora təqdim olunmalıdır. Ali Məhkəmənin müvafiq kollegiyasında boş yer olarsa ora Apellyasiya Məhkəməsinin müvafiq kollegiyasının ən təcrübəli üzvü təyin olunmalıdır. Mən o manipulyasiyaları da qəbul etmirəm ki, gənclər daha təmizdir, bacarıqlıdır, onlara yol açılmalıdır. Əvvəla yuxarı məhkəmələrə daha təcrübəli hakimlər lazımdır.

Heç olmasa da dünya təcrübəsinə də baxmaq olar. İkincisi, eyni məntiqlə, Məhkəmə Hüquq Şurasının sədri də, onun nazir kimi müavinləri də kifayət qədər yaşlıdırlar.

Uzun müddətdir ki, eyni vəzifəni tuturlar. Niyə istefa verib, məhkəmə islahatlarını uğurla həyata keçirə biləcək gənclərə yol açmırlar? Hörmətli sədr! Xahiş edirəm, səsvermə adbaad olmayacaqsa protokolda mənim 5 il təcrübəsi olmayan namizədlərin əleyhinə olduğumu qeyd edin".

**Nicat Novruzoğlu**

## *Əhməd İsmayılov Astanada Xankəndi-Laçın yolundakı aksiyadan danışdı*




**20 dekabr tarixində Astana şəhərində keçirilən və dünyanın müxtəlif ölkələrindən olan rəsmilər, media və biznes nümayəndələri, siyasi xadimlər, media azadlığı üzrə müdafiəçilər, beynəlxalq təşkilatların medianın inkişafı üzrə təmsilçiləri, həmçinin müasir dövrün qlobal problemləri üzrə alim və ekspertlər daxil olmaqla 300-dən çox iştirakçını əhatə edən I Mərkəzi Asiya Media Forumunda Azərbaycan nümayəndə heyəti ilə təmsil olunur.**

Bu barədə Adalet.az-a Medianın İnkişafı Agentliyindən məlumat verilib.

Media Forumun "Vahid media platformasının formalaşdırılması perspektivləri" mövzusunda keçirilən panel sessiyasında çıxış edən Azərbaycan nümayəndə heyətinin üzvü Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, ölkələrimiz haqqında həqiqətlərin beynəlxalq media vasitəsilə dünya ictimaiyyətinə obyektiv və düzgün çatdırılması məqsədilə Azərbaycan və Türkiyənin birgə media platforması yaradılıb, həmçinin Özbəkistan və Qazaxıstan Respublikalarının analoji qurumları ilə Anlaşma Memorandumları imzalanıb. Vurğulanıb ki, dövlətlərimizə və cəmiyyətlərimizə qarşı yönəlmiş dezinformasiya kampaniyalarına qarşı mübarizə kontekstində ölkələrimizin media qurumları arasında sıx əməkdaşlıq son dərəcə vacibdir.

Azərbaycanın Qarabağ bölgəsini Ermənistanla birləşdirən Laçın yolunun guya Azərbaycan tərəfindən bağlanması kimi xəbərlərin ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyasının son nümunəsi olduğu diqqətə çatdırılaraq bildirilib ki, reallıqda Azərbaycan vətəndaş cəmiyyətinin fəalları ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarına qarşı etiraz aksiyası keçirir və mülki nəqliyyatın keçməsi üçün hər cür şərait yaradırlar.

Vurğulanıb ki, bu həqiqəti beynəlxalq auditoriyaya effektiv şəkildə çatdıra bilmək olduqca əhəmiyyətlidir və bunun üçün birlikdə çalışmalıyıq.

**Qeyd edək ki, Media Forumun əsas müzakirə mövzuları "yeni medianın inkişafı", "informasiya təhlükəsizliyinin təmin edilməsi üçün regional və qlobal əməkdaşlıq imkanları", "media sahəsində süni intellekt texnologiyaları", "Mərkəzi Asiyada yaradıcı sənayenin inkişafı", "vətəndaş cəmiyyətinin və biznes əlaqələrinin inkişafında medianın rolu"dur.**

Aqil ABBAS

# İLQAR RƏSULDAN AĞILLI TƏKLİF

*Tanınmış yazıçı-publisist İlqar Rəsul çox ağıllı bir təklif edib. Onsuz da İlqar həmişə ağıllı yazılar yazır, ağıllı təkliflər verir. Bu dəfəki təklifi də həm ağıllıdı, həm də ciddi.*

*Qətərdə Dünya Çempionatı başa çatdı. Bilirsiniz ki, bir çox stadion elə qurulub ki, sonradan sökülə bilsin, yəni modul tiplidi. Qətər hökuməti də belə qərara gəlib ki, həmin sökülən stadion da Afrika ölkələrinə bağışlansın.*

*Qətərlə Azərbaycan dost ölkədirlər, bütün sahələr üzrə aralarında müqavilə var. Mən özüm də Qətərdə olmuşam və bizə isti münasibətlərini, rəğbətlərini görmüşəm. "Əl-Cəzirə" televiziyası da bizim haqq səsimizi dünyaya yayır.*

*Dostumuz Ümid Mirzəyevin qızı həmin televiziyada bizi təmsil edir və onun maraqlı reportajlarını dəfələrlə görmüsünüz.*

*İlqar Rəsul təklif edir ki, Qətər bir dost ölkə kimi sökülən stadionun bir hissəsini də erməni vandalları tərəfindən darmadağın edilmiş Ağdama bağışlasın. Təbii ki, biz Afrika ölkəsi deyilik, stadion tikməyə də gücümüz çatır. Ağdamda da 15 minlik bir stadionun inşası nəzərdə tutulub və tezliklə tikiləcək.*

*Amma dost ölkənin hədiyyəsi onlardan Ağdama bir yadigar olar.*



*Dostum İlqar Rəsulun ağıllı təklifi ilə sizləri də tanış edirəm:*

*"Bu axşam Qətərdə keçirilən dünya çempionatının finalıdır.*

*Deyilənə görə çempionatdan sonra "Qatar 2022" stadionlarının bəziləri sökülləcək. Əgər elədirsə, Qətər dövlətinə rəsmi müraciət edib Ermənilərin Ağdamı nə günə qoyduqlarını, məsçidləri, mədəniyyət ocaqlarını dağıtdıqlarını, stadionları söküb apardıqlarını yaxşıca, əsaslandırılmış şəkildə izah etmək olar.*

*Və dünya çempionatından sonra Qətərdə sökülən stadionların birini Ağdam üçün yenidənqurmaya dəstək hədiyyəsi kimi istəmək olar.*

*Stadionun adını da "Qatar 2022" qoymağı söz vermək olar onlara (gələcək nəsillər olanları bilsin və Qətərin bu addımı unudulmasın deyə).*

*Bəlkə nəticəsi olar. Olmaz da nə itiririk ki? Əksinə, erməni vəhşiliyini bir dəfə də bu yolla dünyaya bəyan etmiş oluruq".*

***P.S.** Təklif sosial şəbəkə istifadəçilərinə ilk baxışda ciddi təklif kimi görünməyə bilər. Amma məncə, Qətərə ciddi görünməc ehtimalı az deyil.*

# Serbiya - Azərbaycan əlaqələrinin gələcəyi parlaqdır

**21 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ilə təkbətək görüşündən sonra mətbuata bəyanat verib.**



Prezidentin bəyanatında bildirilir ki, həm Serbiya, həm Azərbaycan öz resurslarına arxalanan ölkələrdir, müstəqil siyasət aparan ölkələrdir və bir-biri ilə sıx əlaqədə olan ölkələrdir: "İki ölkə arasındakı əlaqələrin dinamikası çox müsbətdir. Ötən ay Belqradda qəbul edilmiş qərarların tezliklə yerinə yetirilməsini arzulayırıq.

Hökumət üzvlərinə bu qərarların icra edilməsi ilə əlaqədar müvafiq göstərişlər verildi. Bundan sonra da ikitərəfli əlaqələr sürətlə inkişaf edəcək və qəbul edilmiş qərarlar vaxt itirmədən icra olunacaqdır.

Bir çox sahələr üzrə əməkdaşlığın artıq böyük tarixi var. Serbiya və Azərbaycan strateji tərəfdaşdırlar, strateji tərəfdaşlığa dair bir neçə sənəd imzalanmışdır. Ölkələrimiz hər zaman bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib, dəstəkləyir və bu siyasət dəyişməz olaraq qalacaq.

Beynəlxalq hüququn norma və prinsipləri bütün ölkələr üçün əsas olmalıdır. Beynəlxalq hüquqsahəsində dünyada müşahidə olunan ikili standartların təzahürləriçox narahat edir.

Ticarət sahəsində aparılan əməkdaşlığın müsbət nəticələrini gözləyirik.

Əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsi artacaq.

Nəqliyyat-logistika sahəsində böyük potensial var. Nəzərə alsaq ki, Azərbaycan və Serbiya ərazilərindən beynəlxalq nəqliyyat dəhlizləri keçir, burada da uzlaşma və bağlantının yaradılması üçün bizim müvafiq qurumlar fəal işləməlidir. Aidiyyəti qurumlar arasında təmaslar artıq yaranıbdır.

Energetika sektoru əməkdaşlığımızın bir hissəsidir. Son vaxtlar bu sahə daha böyük əhəmiyyət kəsb edir. Azərbaycanın təbii resursları artıq müxtəlif istiqamətlər üzrə ixrac edilir, həmçinin Avropa qitəsinə, o cümlədən Serbiyaya qonşu olan ölkələrə. Həm təbii qaz, həm elektrik enerjisi ilə əlaqədar əməkdaşlıq üçün imkanlar var, müvafiq danışıqlar aparılmışdır. Gələn ildən başlayaraq Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixrac edilməsi üçün əməli addımlar atılacaqdır.

Azərbaycanın elektrik enerjisinin Avropaya çatdırılması üçün müvafiq saziş imzalanmışdır. Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanı bu sahədə də Avropa üçün önəmli təchizatçı kimi təsdiqləyəcək.

Müdafiə sənayesi sahəsi də perspektiv əməkdaşlıq istiqamətlərindən biridir.Bu sahədə də hər iki ölkədə potensial var və bu potensialın birləşdirilməsi üçün praktiki addımların atılması da gözlənilir.

Serbiya-Azərbaycan əlaqələrinin gələcəyi ilə bağlı ancaq nikbin fikirdə olmaq olar.İkitərəfli əlaqələrdostluq və qarşılıqlı anlaşma üzərində qurulmuşdur".

**Hazırladı:**
**Mehriban Cəfərova**

# "İnnoMEDİA" layihəsinin açılış mərasimi keçirildi

**Medianın İnkişafı Agentliyinin təşkilatçılığı, yerli və xarici təlimçilərin iştirakı ilə "Jurnalistikada konvergensiya" və "Mediada rəqəmsal imkanlar" mövzularında 2 moduldan ibarət "İnnoMEDİA" layihəsinin açılış mərasimi keçirilib.**



Adalet.az xəbər verir ki, açılış mərasimində çıxış edən Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bildirib ki, rəqəmsal alətlərdən istifadə edərək səmərəli ünsiyyətin qurulması, sosial medianın məlumat mənbəyi kimi aktuallaşması, rəqəmsal transformasiya, ümumilikdə isə rəqəmsal qloballaşma prosesləri fonunda dünyada müxtəlif trendlərin mövcudluğu gənclərin yeni media mühitini anlaması və bilik və bacarıqlara yiyələnməsini vacib edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzində təşkil olunan proqramın ilk təlimində "ASAN Radio"nun direktoru Emin Musəvi "Ənənəvi və rəqəmsal mediada jurnalistika" mövzusunda çıxış edib. O, təlim zamanı qeyd edib ki, texnoloji təkamülün media mühitinə kompleks təsiri və ənənəvi media məzmunlarının rəqəmsal formaya inteqrasiyası medianın təsir dairəsini genişləndirmiş və bu onu ictimai platformaya çevirmişdir. Sonda interaktiv müzakirə sessiyaları olub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Dekabrın 24-nə qədər 50 nəfərə yaxın gəncin iştirakı ilə davam edəcək "İnnoMEDİA" layihəsinin əsas məqsədi jurnalistika sahəsində yaranan yeni imkanların və mediada yeni tendensiyaların öyrənilməsi, rəqəmsal media sahəsində peşəkar vərdişlərin inkişaf etdirilməsi, şəbəkələşmə mühitinin üstünlüklərindən yararlanaraq kommunikasiya əlaqələrinin qurulması və inkişaf etdirilməsi, rəqəmsal media ekosisteminin inkişafına töhfə verilməsidir.**

Aqil ABBAS

# BU KAR VƏ KOR DÜNYADA...

*Şəkildə gördüyünüz bu xanım xankəndilidir, oxudum həkimdir. Əlindəki plakatla üzünü təkcə sülhməramlılara tutmayıb, bütün dünyaya tutub. Evlərinə getmək istəyir. Sülhməramlıları qoyaq bir kənara, onlar əmr quludur. Əmri də Volkovdan yox, təbii ki, Putindən gözləyirlər. Və onların içlərində elələri var ki, heç onları da evlərinə buraxmırlar, qalıblar odla su arasında.*




*Qaldı dünyaya? Bacım, dünya kardı, kordu. Bizim müsibətimizi görmək istəmir. Daha dəqiq desək, nə kardı, nə kor ey, şərəfsizdi.*

*Görmürsən Fransa başda olmaqla ilana ağ verən kərtənkələlər hamısı tumanını başına keçirib ki, guya biz yol kəsmişik. Biz yol kəsmirik, yol tikirik. Özün də görürsən ki, yol açıqdı, humanitar yük daşıyan maşınlar, Təcili yardım maşınları, sülhməramlıların avtomobilləri elədən belə gedir, belədən elə.*

*Fransa yenə qaraçılıq edib məsələni Birləşmiş Millətlər Çayxanasına qaldırıb. O Çayxana nə qərar çıxarır-çıxarsın, ermənilər 30 il Birləşmiş Millətlər Çayxanasının qətnaməsini zibilliyə atdığı kimi, lazım gələr biz də Çayxananın çıxartdığı qətnaməni zibil qutusuna atarıq.*

*Bacım, səbr elə. Səni Şuşaya aparan sərkərdə, inşallah, Xankəndinə də aparar.*

*Yeri gəlmişkən. Statistikada həmişə uduzuruq, oxudum ki, Xankəndində 12-13 min azərbaycanlı yaşayıb. Əvvəla, hadisələr başlamamışdan əvvəl Xankəndində 15 min azərbaycanlı yaşayırdı. Xankəndinin Yasamalı sayılan təkcə Kərkicahanda 5 min azərbaycanlı vardı.*

*Yəqin indi bütün Azərbaycana səpələnmiş xankəndililərin sayı 20 minə çatıb. Hazırda Xankəndində uzaqbaşı, 20 min erməni yaşayır.*

*Şuşaya qar yağıb. Bilirəm soyuqdu, amma o şaxta, bacım, nə sənə, nə də sizlərə heç bir təsir edə bilməz. Çünki ayağınızın altındakı Vətən torpağı istidi, o sizi soyuqdan, qardan qoruyar.*

*Bacım, Allah yolunu açıq eləsin!*

Ümit Zileli

# Boğazına qədər qana batmış Qərb



**Fransa dünyanın aparıcı müstəmləkəçilərindən biridir... Məsələn, 1945-1963-cü illərdə Əlcəzairdə 1,5 milyon insan vəhşicəsinə qətlə yetirilib. Əlcəzair xalqı sözün əsl mənasında soyqırıma məruz qaldı.**

**II Dünya Müharibəsində Əlcəzair xalqına onun tərəfində vuruşacağına söz verən Fransa bu vədini yüz minlərlə insanı qətlə yetirməklə, on minlərlə qadını zorlamaqla, ölüləri sobada yandırmaqla yerinə yetirdi. Nasistlər kimi!..**

**Eyni Fransa 1994-cü ildə "Aİ-də sədrliyi" dövründə Ruandada 800.000 tutsi və mötədil hutuların soyqırımında birinci dərəcəli günahkar idi.**

**Fransanın Ruandada soyqırım olacağını bildiyi, bu hazırlıqlara qatıldığı, ölüm siyahıları hazırladığı, soyqırımçılara kəşfiyyat, strategiya, təlim və silah dəstəyi verdiyi, qətllərdə fəal rol oynadığı Birləşmiş Millətlər Təşkilatının hesabatında müəyyən edilib!**

**Boğazına qədər qan içində batmış Qərb!**

**Fransanın yediyi qələtlər bunlarla məhdudlaşmır...**

**Fransa 200 ilə yaxın tarixində Benin, Burkina-Faso, Qabon, Qvineya, Kamerun, Mavritaniya, Niger, Seneqal, Tunis, Çad və Mərkəzi Afrikada inanılmaz qırğın, soyqırım və istismar törədib. Hər il bu ölkələrdən xərac yığır. Bu yolla xəzinəsinə ildə 500 milyard dollardan çox xərac gəliri əlavə edir!**

**Gəlin "erməni soyqırımı"nı qəbul edən digərlərinə nəzər salaq:**

**ABŞ - 1776-cı ildə, yəni 244 il əvvəl müstəqilliyini elan edən Amerikanın bu illər ərzində həmin torpaqların əsl sahibləri olan yerli amerikalıları vəba xəstəliyinə tutulmuş yorğanlarla qətlə yetirdiyini bilirdinizmi? Düz 28 milyon yerli əhali bu şəkildə qətlə yetirildi!**

**Başqa qırğın növlərini də saymıram... Bilirdinizmi o torpaqlara Afrikadan, Cənubi Amerikadan milyonlarla qul gətirilib, yüz minlərlə insan yollarda ölüb, özü də iş şəraitinə görə?! Ötən əsrin vəhşiliyini, yaşadığımız prosesi sizin ixtiyarınıza buraxıram!**

**Almaniya - Bilirsiniz ki, gec dünyəviləşən Almaniya müstəmləkə tapmaq üçün iki dünya müharibəsi başlatdı, bu müharibələrdə 100 milyona yaxın insan öldü, 6 milyon yəhudi qaz kameralarında, sobalarda məhv edildi! Bilirsiniz zənnimcə.**

**İtaliya - Xammala, yəni müstəmləkəçiliyə ehtiyacı olan İtaliya 1935-ci ildə faşist Mussolininin başçılığı altında 400 minlik ordu ilə və kütləvi qırğın silahlarından istifadə edərək Həbəşistanı (Efiopiya) işğal etdi...**

**Kimyəvi silahlarla yüz minlərlə Həbəşini məhv etdi. Eyni İtaliya 1911-ci ildə ağlasığmaz vəhşi qırğınlardan sonra Liviyanı işğal etdi və bu müharibə zamanı Mustafa Kamal və dostları Liviyanın tərəfində vuruşdular...**

**Niderlandın bu gün ən sərt və dar coğrafiyada ilişib qalmasına baxmayın...**

**Hollandiya tarixin ən böyük müstəmləkəçilərindən, soyqırımlarından və qul tacirlərindən biridir! O qədər təsirli idi ki, Amerikadan Asiyaya, Afrikadan Cənubi Amerikaya qədər dünyanın hər yerində koloniyaları var idi!**

**Məsələn, Cənubi Afrikanın ilk müstəmləkəçi ölkəsi idi... Onların törətdikləri qırğınlar bu ölkədə hələ də mahnılarla, nağıllarla danışılır! Eləcə də hollandlar Qana, Fil Dişi Sahili, Anqolada yaşayan xalqların yaddaşında hələ də yaşayır. Heç vaxt unudulmayacaq qanlı izləri var!**

**Qondarma Erməni Soyqırımı Qanununu qəbul edən İsveçi unutmaq olmaz! Bu günün ən sivil, ən zəngin və insan haqlarına ən həssas ölkəsi olan İsveç başqa bir sivil ölkə olan Norveçlə birlikdə "XX əsrin soyqırımını törədən ölkələri" sırasında sayılırlar.**

**İsveçin 1920-ci illərdə sami əhalisinin artmasının qarşısını almaq üçün 60 min insanı zorla qısırlaşdırdığınıvə onların 90 faizindən çoxunun qadın olduğunu bilirdinizmi?!**

**Yaxşı, bilirdinizmi ki, 1900-cü illərin əvvəllərində İsveç, Norveç, Danimarka və Finlandiyada "Ari irqini qorumaq nəzəriyyəsi" naminə sami, lapon kimi azsaylı xalqlara bir zorakılıq tətbiq edildiyini, 100 minə yaxın insanın 10 minə qədər salındığından xəbəriniz varmı?**

**İstismarçının vicdanı yoxdur!**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

# Ekoetirazın 4 günü: Xankəndi - Laçın yolundan REPORTAJ - 1






**Reportaja başlamadan öncə xırdaca bir gileyimi bəzi qurum və səlahiyyət sahiblərinə çatdırmağı özümə borc bilirəm.**

12 dekabrda, səhər saatlarında Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində ermənilərin qanunsuz fəaliyyətləri ilə bağlı monitorinq keçirmək üçün gedən ekofəalların və QHT nümayəndələrinin Laçın-Xankəndi yolunda etiraz aksiyasının olduğunu həmkarım Niyaz Niftiyevin sosial şəbəkə hesabında oxudum. Media nümayəndələrinin orada olduğunu eşidəndə xeyli əsəbləşdim. Dəfələrlə müşahidə etmişdim ki, "Ədalət" qəzetindən, Adalet.az saytından çox sonra yaranmış bəzi mətbu orqanlar müxtəlif kütləvi tədbirlərə dəvət edilir, mükafatlandırılır. Məsələn, Ekologiya və Təbii Sərvətlər Nazirliyi 19 iyun tarixində "Ekologiya ili" çərçivəsində Azərbaycanın cənub-şərqində, Lənkəran və Astara rayonlarının inzibati ərazisində yerləşən "Hirkan" Milli Parkına press-tur təşkil etdi. Ölkənin 40-a yaxın aparıcı KİV nümayəndələrinin qatıldığı press-tura bizim nə saytdan, nə də qəzetdən əməkdaş dəvət etməmişdilər. 29-31 iyulda keçirilən İkinci Milli Yaylaq Festivalı da bizsiz başa çatdı. Niyəsini bu günə qədər də anlaya bilmirəm!

33 ildir əsas mövzusu Qarabağ olan "Ədalət" qəzeti bu dəfə də tədbirə dəvət edilmədi. Məlum olay həm təəssübkeşlik hissimi, həm də vətənpərvərlik hissimi körüklədi. İki gün özümə yer tapa bilmədim. Bir qarabağlı kimi, bir jurnalist kimi mən orda olmalıyam, ora mütləq getməliyəm -dedim. "Nə olur, olsun!"-deyib qərarımı verdim. Telefonlarda qaldım, əlim çatan, ərkim keçən dostlara zəng elədim. Tanıdığım QHT rəhbərlərinə müraciət etdim, xahiş, yalvarış... və nəhayət arzuma çatdım. İşdən evə yenicə dönmüşdüm ki, telefonuma zəng gəldi:" Axşam saat 7-də ETSN qarşısından avtobus Şuşaya yola düşür. İmkanınız varsa, gəlin".

### *Yolumuz ŞUŞAYA*

Saata baxdım: 5! Elə həyəcanlı idim ki, elə bildim avtobus işə düşüb, təkcə mən qalmışam. Tez-tələsik yol çantama vacib olan bir neçə ləvazimat atıb, evdən çıxdım. Novxanı yolundan ta ETSN-ə qədər həyəcanım bitmədi. Binanın qarşısında iki ədəd böyük tutumlu avtobusları görəndə sakitləşdim.

Saat 8-də artıq Bakıdan çıxırdıq. Saat 1 radələrində Salyan ərazisində çay içməyə düşdük. Xeyli tanışlar varmış ki! I Qarabağ döyüşlərinin qazi və veteranları, QHT üzvləri, tanınmış media nümayəndələri...Çoxu mənim kimi həyəcanlı idi.

Nəzarət məntəqələrində yoxlanışlardan keçdikdən sonra -təxminən saat 4 radələrində artıq Laçın-Xankəndi yolundaydıq.

Bəlkə də oxucularımızın bir çoxu Laçın-Xankəndi yolu haqqında az məlumat bilirlər. Şuşaya daxil olan Zəfər yolu ilə Laçın-Xankəndi yolu Xəlfəli dərəsinin üstündə təxminən 1 km hissəsi yan-yanadır. Xankəndidən Ermənistanın Gorus rayonuna qədər olan bu yol



Qarabağ ermənilərinin Ermənistanla yeganə marşrut xəttidir.

Biz Şuşaya gedən yolun üstündə "ŞUŞA" adının bayrağımızın rənglərində quraşdırıldığı, ərazidə avtobuslardan düşdük. Laçın-Xankəndi yolundakı etiraz mitinqi "ŞUŞA" ilə üzbəüzdə artıq 2 gün idi başlayıb. İri dəmir "boçka"larda qalanmış tonqalın ətrafında, eləcə də, ərazidə təxminən 500-ə qədər iştirakçı var.

Soyuq havada çay içir, söhbətləşir, müzakirələr aparırlar, sanki illərdi bir-birini tanıyırlar. Aksiyaya yeni qoşulan biz də tonqalın başına yığışırıq. 5 saat 40 dəqiqəlik, 423 Km-lik uzun yoldan sonra şəkər çöreklə isti çayın yeri var.

İlk diqqətimi cəlb edən əraziyə nəzarət edən, etirazçılar təhlükəsizliyini göz bəbəyi kimi qoruyan Daxili Qoşunların Xüsusi Təyinatlıları olur. XT əraziyə gələrək, bir-birlərini əvəzləyəndə ekoetirazçıların alqış sədaları, "Ən böyük əsgər bizim əsgər" şüarları dağı - daşı lərziyə salır.

Elə həmin an qarşı tərəfə boylanıram. Rusiya sülhməramlıları sanki narahat olurlar, sanki o möhtəşəm sədanın bitməsini istəyirlər. Duruşlarından, həsədli baxışlarından bunu anlamaq çətin deyil.

Elə o andaca düşünürəm ki, hər ordunun qüdrəti deyil ki, məxsus olduğu ölkənin hər bucağında, hər guşəsində, hər evində bala kimi, doğma kimi, əzizi kimi sevilsin.

Bəlkə də tarix boyu aqressiv olan ruslara məxsus bütün ordular(Çar ordusu, sovet ordusu, Rusiya Federativ Respublikasının ordusu) sevilmədiyi üçün, soydaş sevgisini hiss etmədiyi üçün zaman-zaman işğal edib, qan töküb, yurdları viran qoyub, möhtəşəm şəhərləri xarabazara çevirib.

Rusiya sülhməramlıara baxa-baxa gözlərim önündə Gürcüstan işğalı, Çeçen-İnquşetiya qətliamı, Qazaxıstan (dəfələrlə) güllə baranı, eləcə də Bakıda 1990-cı ilin 20 yanvar faciəsi başladan onbirinci Qızıl Ordu, Rusiyanın Azərbaycan tarixinə öz adını qara hərflərlə yazan, həm Xocalı, həm də Qaradağlı soyqırımlarında (17.02.1992) iştirak edən 366-cı motoatıcı alayı canlanır. Faciələrimizin zənciri yadıma düşür. O hisslərin altında gözümü Rusiya sülhməramlıara zilləyib baxıram. Nifrətim gözümə vurur sanki...

Məni bu hisslərin əlindən Azərbaycan Dövlət Himninin qəlbləri riqqətə gətirən ritmləri qoparır. Bir anda ürəyim qürur hissi ilə dolur!Yolun Laçından gələn hissəsinə də, Xankəndidən gələn hissəsinədə dəmir baryerlər qurub irəli addım atmağa qoymayan "sülhməramlıları" unudub himnimizi ucadan, sevgi ilə oxuyanlara qoşuluram.

Mitinq saat 8-də səhər yeməyindən sonar yenidən start götürür. Etirazçıların əsas tələbləri ekoloji terrorla bağlıdır. Azərbaycan, rus, ingilis dilində səslən şüarlara, etirazçıların əllərində tutduğu plakatlara diqqət edirəm: "Azərbaycan könüllüləri ekoloji terrora yox deyir", "Arutunyan rədd ol!", "Vardanyan rədd ol!", "Ekoterrora son", "Təbiəti qoruyaq!", "Mina terroruna son!"

Bəli, arzulardan doğan tələblərdir. Nəinki gəncliyimiz, eləcə də bütün soydaşlarımız gələcəyini problemsiz münaqişəsiz yaşamaq istəyir. Tələblərini qorxmadan- çəkinmədən, hayqıraraq dişinə qədər silahlanış rus əsgər və zabitinə çatdırmaq bir cəsarətdir-deyərdim. Bu cəsarəti gənclərimizə, meydanda tələbində israrlı olan hər kəsə təhlükəsizliyimizin zəmanəti qüdrətli dövlətimiz və qalib ordumuz verib. Qoşuluram etirazçılara!

Arabir çay və isti yemək pauzalarını nəzərə almasaq, demək olar ki, günorta saat 3 radələrinə qədər ancaq şüarlar səsləndirir, himnimizi oxuyur, bir də bizi qoruyan əsgərlərin mövqe dəyişikliyi olanda onları sürəkli alqış və şüarlarla salamlayırıq.

Elə bu zaman bizi gətirən avtobus sürücüsü dəstəyə yaxınlaşıb, hazırlaşmağımızı axşam saat 7-də yola düşəcəyimizi bildirdi. Mən getməyəcəyimi bildirirəm.

Sürücü üzümə tərs-tərs baxıb: Sizi mən gətirmişəm, adınız siyahıdadır! Yolda soruşsalar bəs bu gətirdiyiniz adam hanı, mən nə cavab verəcəm?

Mən israrla : Getmirəm!-deyirəm.

Sürücü deyəsən yüngülvari əsəbləşir: Baxarıq!

Tez orda mehriban olduğu qədər hər kəsə qaygı göstərməsi ilə seçilən ekofəal Mürvəti gözüm axtarır. Mürvət Xocalıdandır. Xocalı faciəsi zamanı yaşı az olmasına, uşaq olmasına baxmayaraq erməni terrorçularına əsir düşüb. Çox böyük çətinliklərdən sonra doğmalarına qovuşub.

***-Mürvət məni zorla Bakıya aparmaq istəyirlər , kömək elə getməyim.***

***- Get mitinqin təşkilatçılarının yanına, qalmağına icazə al. Rövşən müəllim vətənpərvər insandı, səni başa düşəcək.***

Nəhayət, Rövşən müəllimlə danışıram, qalmağıma elə sevinirəm!

Deyəsən, sürücümüz məni qaralayıb. "Gedirik, gəlin".

***- Getmirəm!***

*(Yenə sərt baxışlar)*

***-İnanmırsınız, gedin Rövşən müəllimdən soruşun.***

Sürücü Rövşən müəllimə yaxınlaşır, mənə baxıb danışırlar, qayıdanda"Yaxşı, qalırsan"

Məni gülmək tutdu: "Mən höcətəm, qərar verdimsə, qalacam! "

*(Yenə sərt baxış)* Sürücü aksiya meydanından uzaqlaşır. Axşamın toranında avtobus dağların arası ilə asta-asta gözdən itir.

Dərindən nəfəs alıb: "Etiraz aksiyasına davam" deyib sevinclə mitinqə qoşuluram! Axı, mən bu dəqiqədən etibarən burda həm də sevdiyim qəzetimizi təmsil edəcəyəm!Bayaqdan bir neçə Tele-kanala müsahibə vermişəm, amma bu dəqiqədən etibarən müsahibələri, açıqlamaları özüm alacağam!Başladıq!

**(ardı var...)**

**Əntiqə Rəşid**



# Ziyalıya sığınan dağa söykənər

**Azərbaycanın bir-birindən gözəl və füsunkar məkanları, yerləri və rayonları çoxdur. Və hər rayonun da özünəməxsus təbiəti, infrastrukturu, insanları var. Əlbəttə, Allah-Təala hər ölkəyə bizdəki kimi gözəl təbiət və məkan bəxş eləmir. Amma Allah-Təala bizi sevdiyindən öz mükafatını bu xalqdan, bu millətdən əsirgəməyib.**



Respublikamızın belə gözəl məkanlarından biri də, dağlar qoynunda yerləşən Lerikdir. Lerikin tək təbiəti, buz bulaqları, meşələri, ormanları gözəl deyil. Lerikin həm də havası və insanları, eyni zamanda, qurub-yaratmaq həvəsi də çox gözəldir. Çünki burdakı insanlar həmişə öz rayonlarının inkişafı üçün böyük işlər görüblər, layihələr gerçəkləşdiriblər. Onu da qeyd edək ki, Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev Lerikin sosial-iqtisadi inkişafını həmişə diqqət mərkəzində saxlayıb. Və bu məqsədlə məlum sərəncamlar da imzalanıb. Təbii ki, bu sərəncamların icrası Lerikin inkişafına və tərəqqisinə daha da böyük təkan verib.

Rayonda bir-birindən gözəl parklar, xiyabanlar, sosial obyektlər istifadəyə verilib. Təhsilin, səhiyyənin və mədəniyyətin inkişafı daim diqqət mərkəzində olub. Lerik rayonuna yeni icra başçısı təyin olunandan sonra burda sosial-iqtisadi inkişaf daha da sürətlənib. Çünki rayonun icra başçısı Əkbər Abbasov gəncdir, üstəlik də Ulu Öndər Heydər Əliyevə və Prezident İlham Əliyevə sədaqətli kadrlardan biridir. Yeni başçı rayonda fəaliyyətə başladığı ilk gündən leriklilərlə, ziyalılarla, zəhmətkeş insanlarla sıx təmaslar qurub və həmişə əhali ilə ünsiyyətdə olub. Bu mənada rayon mərkəzində və eləcə də kəndlərdə səyyar görüşlər keçirilib və həmin görüşlər zamanı yerli əhalinin istək və arzuları dinlənilib, problemləri səsləndirilib və bir çox məsələlər elə yerindəcə öz həllini tapıb. Bir faktı da qeyd edək ki, hər bir icra başçısı cənab Prezidentin etimadını doğrulda bilmir. Amma Lerik rayonunun icra başçısı Əkbər Abbasov fəaliyyətiə başladığı ilk gündən Lerik camaatına, sadə və zəhmətkeş insanlara və bir də ziyalılara arxalanıb. Təbii ki, Prezident İlham Əliyev hər bir rayonun sosial-iqtisadi inkişafını sürətləndirmək üçün həmin rayonlara prezidentin ehtiyat fondundan vəsait ayırır. Və bu vəsait də yerli icra hakimiyyəti tərəfindən təyinatı üzrə xərclənməli, abadlıq və quruculuq işləri həyata keçirilməli, eyni zamanda insanların rifah halının yüksəldilməsi üçün yeni iş yerləri və istehsalat sahələri açılmalıdır.

Cənab Prezidentin bu tapşırıqları Lerikdə demək olar ki, mütəmadi olaraq yerinə yetirilir, nəinki rayon mərkəzində, hətta kəndlərdə belə yeni məktəblər, xəstəxanalar, uşaq bağçaları inşa edilir. Təhsilin inkişafı üçün möhtəşəm layihələr həyata keçirilir. Üstəlik də hər bir lerikli rayonda gedən sosial-iqtisadi inkişafda və quruculuq işlərində yaxından iştirak edir.

Bu mənada Lerik rayonunda icra başçısının ziyalılarla əlbir fəaliyyəti və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində birgə addımlaması çox uğurlu və sevindirici nəticələrdən biridir. Bəlkə də heç bir rayonda olmayan, amma bu rayonda həyata keçirilən ziyalılarla bağlı görüş çox unikal bir hadisədir. Ziyalıya sığınan dağa söykənər. Bu mənada rayon icra başçısı Əkbər Abbasovun ziyalılarla keçirdiyi görüşlər çox yaddaqalan və unudulmaz anlardır. Amma başqa rayonlarda nəinki ziyalılarla görüş keçirilir, heç icra başçısı ziyalını belə qəbul edib dinləmək belə istəmir. Sevindirici haldır ki, Lerikdə ziyalılarla icra hakimiyyəti arasında çox səmimi və isti münasibətlər yaranıb. Bayaq dediyimiz kimi, bu münasibəti də ən çox gündəmə gətirən rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasovdur. Düşünürük ki, Lerikin ziyalılarla bağlı təcrübəsi digər rayonlarda da öyrənilməli və yayılmalıdı.



Bugünlərdə Lerikdə ziyalıların çox möhtəşəm bir görüşü keçirilib. Bu görüş zamanı "Rayonun sosial-iqtisadi, ictimai-mədəni inkişafının perspektivləri" mövzusunda ətraflı diskussiya olub. Görüşün moderatoru Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Əminağa Sadıqov idi. Görüşdə bir daha rayonun sosial-iqtisadi inkişafı məsələləri gündəmə gətirilib və orda bir fikir də xüsusilə vurğulanıb ki, yeni iş yerlərinin yaradılması, meyvə qurutma, süd emalı sexlərinin tikilməsi, meyvə qəbul məntəqəsinin açılması və digər sahələr üzrə iş yerlərinin yaradılması rayonun iqtisadiyyatına böyük təkan verə bilər. Bu işlərin həyata keçirilməsində ayrı-ayrı ziyalılar və iş adamları öz töhfələrini verməyi bacarar. Bununla yanaşı, görüşdə miqrasiyanın, kəndlərin boşalmasının qarşısının alınması məqsədilə ərazilərdə yeni infrastrukturun yaradılması, yol, su xəttinin çəkilməsi və hər bir kənddə icmanın köməkliyi ilə abadlıq işlərinin görülməsi ön plana çəkilib. Eyni zamanda, görüşdə çıxış edən ziyalılar dünyada tanınan lerikli ziyalıların rayonda təhsilin inkişafına dəstəyi, istedadlı yeniyetmə və gənclərin aşkar edilməsinə, yetişdirilməsinə, arxa durulmasının vacibliyini xatırladıblar. Ziyalılar rayonda İdman Kompleksinin, Gənclər Evinin, Yaradıcılıq Mərkəzinin, kəndlərdə idman meydançalarının tikilməsini gündəmə gətirməklə bu məsələlərin həyata keçirilməsində öz dəstəklərini veriblər. Yeni yaradılmış "Lerik futbol klubu"nun daha da gücləndirilməsini və inkişaf etdirilməsini xatırladıblar.

Təbii ki, ziyalıların bu cür orijinal və yaddaqalan çıxışları Lerikin inkişafında bu və ya digər dərəcədə önəmli rol oynayacaq. Çünki ziyalı hər hansı prosesi və inkişafı digərlərindən daha yaxşı görür, təhlil edir və hər hansı problemdən çıxış yolunu digərlərindən yaxşı bilir. Əlbəttə, ziyalılarla, özü də tanınmış ziyalılarla bu cür görüşlər, diskussiyalar Lerikin sosial-iqtisadi inkişafında çox önəmli əhəmiyyət kəsb edir. Həmin görüşdə Milli Məclisin üzvü, iqtisadiyyat üzrə fəlsəfə doktoru İqbal Məmmədov, tibb elmləri doktoru Mübariz Ağayev, filologiya elmləri doktoru, professor İslam Qəribli, filologiya elmləri doktoru, professor Elman Quliyev, kimya elmləri doktoru Əfsun Sucayev, sosiologiya elmləri üzrə fəlsəfə doktoru Üzeyir Səfiyev çıxış edib. Mədəniyyət və İncəsənət Universitetinin turizm və kitabxana informasiya kafedrasının professoru, kulturologiya elmləri doktoru İlqar Hüseynov "Lerikin turizm potensialı və onun inkişafı yolları" mövzusunla çıxış edərək rayonun turizm potensialının yüksəldilməsi üçün müxtəlif təkliflər və fikirlər səsləndirib.

**O yerdə ki, sağlam mühit var, sağlam atmosfer var, həmin ünvanda həmişə yaşamaq və işləmək ovqatı da çox rahat olur. Biz bir daha Lerik ziyalılarının öz doğma yurdları üçün necə çalışdıqlarını və o torpağa bağlı olduqlarının şahidinə çevrildik və bir daha yəqin etdik ki, öz elindən, obasından çıxıb hətta dünya şöhrəti qazanmış ziyalılar öz yurdlarına dönəndə daha böyük, daha möhtəşəm olurlar. Onlar elin, obanın inkişafı və tərəqqisi üçün bir ziyalı, bir alim, bir insan olaraq əllərindən gələni əsirgəmirlər və nə yaxşı ki, rayon icra hakimiyyətinin başçısı Əkbər Abbasov lerikli ziyalıları bir yerə toplamaqla və möhtəşəm görüşü təşkil etməklə yeni ənənələri davam etdirir və rayon öz iqtisadi inkişafını bir qədər də yüksəldir.**

**Faiq QİSMƏTOĞLU**

# «Bu, aksiyanın dinc ermənilərə qarşı yönəlmədiyinin sübutudur»

***Xəbər verdiyimiz kimi, Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.***

***Adalet.az hazırda aksiyada iştirak edən jurnalist Elgün Gəncimsoyla əlaqə yaradaraq vəziyyətlə bağlı açıqlama alıb.***



**- Elgün, bilirəm ki, hava şəraitinin soyuq olmasına baxmayaraq, fasiləsiz dinc aksiyaya qoşulanların sayı getdikcə artmaqdadır... Daha nə yenilik var orda...?**

- Ekoloqların başlatdığı dinc aksiyaya Azərbaycanın hər yerindən böyük dəstək var. Ekofəallar, vətəndaş cəmiyyəti nümayəndələri, QHT təmsilçiləri, tələbələr, ümumilikdə bütün aksiya iştirakçıları günlərdir ki, yüksək əzm, mətanət, qətiyyət nümayiş etdirərək tələblərində israrlı olduqlarını bəyan ediblər. Mədənlərin qanunsuz istismarına, ekoloji terrora qarşı və vətənpərvərlik ruhunda şüarlar səsləndirən dinc aksiya iştirakçıları tələblərinin yerinə yetirilməsə buradan çəkilməyəcəklərini bildirirlər".

**- Elgün, belə başa düşdük ki, ilk gündəki kimi, etirazçılar sonuna qədər gedəcəklər... Yaxşı bəs, orada daha nələr olur?**

- Mitinqdə fəal iştirakçı kimi iştirak edən biri kimi bilirsən ki, Şuşa-Xankəndi yolunda keçirilən etiraz aksiyasının iştirakçıları hələ ilk gündən Qarabağın dinc erməni əhalisinə məxsus mülki maşınların keçidinə şərait yaratmağa hazır olduqlarını bildiriblər. Bu gün aksiyanın iştirakçıları növbəti dəfə dinc ermənilərə müraciət etdilər. Baxmayaraq ki, ermənilər dünyaya yalan məlumat verməkdə davam edirlər, amma aksiyaçılar köməyə ehtiyacı olan dinc ermənilərin - yaşlıların, qadınların, uşaqların keçidinə şərait yarada biləcəklərini bildirirlər. Bu, bir daha dinc aksiyanın dinc ermənilərə qarşı yönəlmədiyini sübut edir.

**- Onsuzda, hər gün o yolda Rusiya sülhməramlıları maneəsiz hərəkət edir...**

- Bəli, dünən -18 dekabrda Xankəndi istiqamətindən Laçın istiqamətinə doğru 10-dan artıq təminat yükü daşıyan maşın keçdi. Bu, bir daha göstərir ki, yol açıqdır, təminat və digər humanitar məqsədli keçid üçün aksiyaçılar tərəfindən şərait yaradılır. Bu gün də keçdi...

**- Ətraflı məlumata görə, çox sağ olun, əziz həmkar! İşiniz irəli!**

**Əntiqə Rəşid**

## *DYP bayram ərəfəsində sürücülərə müraciət etdi*

**Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) bayram ərəfəsində yol hərəkəti iştirakçılarına müraciət edib.**



İdarədən Adalet.az-a bildirilib ki, qarşıdan gələn bayram günləri ilə əlaqədar artıq yerli və respublika əhəmiyyətli avtomobil yollarında yük və sənişin daşıma fəaliyyətindəki artımla bağlı nəzərəçarpacaq intensivlik müşahidə olunmaqdadır. Qeyd edilib ki, bu hal təbii olsa da, təəssüf ki dəfələrlə edilən çağırışlara baxmayaraq, hələ də sürücülər arasında yorğun, yuxusuz, hətta səhhətində ciddi problemlər olduğunu bildiyi halda sükan arxasına əyləşən sürücülərə rast gəlinir:

"Əsasən, yük və sərnişin daşıma fəaliyyəti ilə məşğul olan bəzi sürücülərin daha çox qazanc əldə etmək məqsədilə uzaq məsafəli yolu gün ərzində istirahət etmədən, yorğun, yuxusuz halda bir neçə dəfə qət etməsi isə son nəticədə ağır yol qəzalarının baş verməsinə real zəmin yaradır. Bununla yanaşı, istehsal ili köhnə olan nəqliyyat vasitələrinin yük və sənişin daşımalarında istifadə olunması, habelə daşımalar zamanı normativ tələblərin kobud şəkildə pozulması qəza ehtimalını dəfələrlə artırmaqla yanaşı, həm də belə nəqliyyat vasitələrinin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin ağırlıq dərəcəsinə də birbaşa təsir göstərir".

BDYPİ bir daha sürücülərə, xüsusilə yük və sənişin daşıma fəaliyyəti ilə məşğul olan şəxslərə müraciət edərək onlara səfərə çıxmazdan əvvəl nəqliyyat vasitələrinin texniki sazlığına xüsusi diqqət yetirməyi, hərəkət zamanı özü ilə yanaşı sərnişinlərinin də təhlükəsizlik kəmərini bağlamasını təmin etməyi, sürət rejimini yol və hava şəraitinə uyğun seçməyi, yorğun, yuxusuz halda avtomobil idarə etməkdən çəkinməyi xahiş edib.

# Güclü qar yağsa...

## *Respublikanın avtomobil yollarında nəqliyyat vasitələrinin hərəkəti necə tənzimlənəcək?!*

**Artıq bir neçə gündür ki, respublika ərazisində qeyri-sabit hava şəraiti hökm sürür. Şaxtalar düşüb və qar yağır. Təbii ki, bu cür mürəkkəb metroloji şəraitdə avtomobilləri idarə etmək və mənzil başına getmək elə də asan deyil. Ən azından ona görə ki, mürəkkəb hava şəraitində nəqliyyat vasitələrini idarə etmək dəfələrlə çətinləşir. Daha doğrusu, belə havalarda təcrübəsiz sürücülər heç vaxt sükan arxasında əyləşməməlidirlər və bir faktı da qeyd edək ki, adi günlərlə müqayisədə qarlı, şaxtalı havalarda yol-nəqliyyat hadisələrinin baş vermə ehtimalı daha da artır.**

Əlbəttə, bu cür mürəkkəb hava şəraitinə uyğun olaraq yol polisi də qabaqlayıcı tədbirlər görməlidir.

Bayaq dediyimiz kimi, bir neçə gündür ki, dağlıq rayonlara artıq qar yağıb və qar yağmaqda da davam eləyir. Havalar daha da soyuyub. Deməli, qar yağandan sonra respublikanın avtomobil yollarında hərəkət etmək bir qədər də çətinləşir. Xüsusən də, Bakı-Şamaxı-Ağsu, Bakı-İsmayıllı, Bakı-Qəbələ, Bakı-Zaqatala istiqamətində mürəkkəb hava şəraitində hərəkət etmək elə də asan deyil. Amma buna baxmyayaraq, hətta havaların kəskin keçdiyi bir dövrdə həmin rayonlara avtobuslar sərnişin daşıyır, şəxsi avtomobillərlə insanlar gəzintiyə çıxırlar.

Təbii ki, bu cür hava şəraitində bayaq dediyimiz kimi, sürücülər və hərəkət iştirakçıları diqqətli olmalıdır. Onsuz da yol polisi mütəmadi olaraq mürəkkəb hava şəraiti ilə əlaqədar olaraq qabaqlayıcı tədbirlər görür. Belə ki, hərəkətin təhlükəli olduğu respublika əhəmiyyətli yollarda əlavə naryadlar işə cəlb olunur. Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının əməkdaşları da bir qayda olaraq hərəkətin təhlükəsizliyi üçün ciddi tədbirlər həyata keçirirlər. Qar yağanda, yollar buz bağlayanda həmin istiqamətlərdə yol polisləri gücləndirilmiş iş rejimində çalışırlar. Məsələn, hava şəraitinin mürəkkəb keçdiyi günlərdə Yol Patrul Xidməti Alayının 3-cü taqımının əməkdaşları Bakı-Şamaxı-Ağsu avtomobil yollarında 24 saat ciddi rejimdə işləyirlər. Yolların qar yağan istiqamətində və sərt döngələrdə əlavə naryadlar xidmət edib, çətin vəziyyətdə olan sürücülərə köməklik göstərilib.





Üçüncü tağımın komandiri, polis mayoru Ürfət Şükürov bildirir ki, hava şəraitinin mürəkkəbliyindən asılı olaraq biz xidmətimizi yüksək səviyyədə yerinə yetirməyə çalışırıq. Qarlı, çovğunlu günlərdə bir qayda olaraq gücləndirilmiş iş rejimində işləyirik. Xidmət etdiyimiz avtomobil yolunun sərt döngələrində və yolların buz bağladığı yerlərə əlavə naryadlar göndəririk. Bu isə o deməkdir ki, həmin istiqamətdə də hərəkətin təhlükəsizliyi ilə bağlı yaranmış problemlər vaxtında aradan qaldırılır. Hərəkət edə bilməyən avtomobillərin sürücülərinə kömək göstərilir, çətin vəziyyətdə olan sərnişinlərə yardım edilir. Üstəlik də biz belə havalarda yol istismar idarələri ilə birgə fəaliyyət göstəririk. Ötən illərin də təcrübəsi göstərir ki, möhkəm qar yağanda və hava şaxtalı olanda operativ surətdə yollar təmizlənməli, yola duz qarışıq qum tökülməlidir. Üstəlik də bütün lazımi texnikalar mürəkkəb hava şəraitinə hazır olmalıdır. Bizim yol idarəsi ilə əlbir fəaliyyətimiz mövcud problemlərin daha tez aradan qaldırılmasına kömək göstərir.

Bəli, həqiqətən də belədir. Qarlı və şaxtalı havaların gözlənməsi ilə əlaqədar olaraq respublika əhəmiyyətli yolların kənarına qum yığılıb. Bu da o deməkdir ki, hətta hər hansı sürücü çətin vəziyyətdə olanda həmin qumu yola səpə bilər və çətin vəziyyətdən çıxmağı bacarar. Heç onlara ehtiyac da qalmır.



Çünki bütün qabaqlayıcı tədbirlər yol idarələrinin əməkdaşları tərəfindən vaxtında həyata keçirilir.

Dekabrın 19-dan ölkə ərazisində hava şəraiti mürəkkəbləşib, dağlıq və dağətəyi rayonlara qar yağıb. Bu məsələlərlə bağlı Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsi ilə əlaqə yaratdıq.

Şöbənin inspektoru, polis kapitanı, Toğrul Nəsirli mürəkkəb hava şəraiti ilə əlaqədar olaraq, hərəkət iştirakçılarına müraciət etdiklərini bildirdi. Həmin müraciətdə deyilir:

"Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometerologiya Xidmətindən verilən məlumata görə, dekabr ayının 19-u axşamdan başlayaraq 21 səhərədək Bakıda və Abşeron yarımadasında havanın küləkli olacağı, respublikanın dağlıq və dağətəyi rayonlarda isə qar yağacağı gözlənilir. Baş Dövlət Yol Polisi İdarəsi verilən proqnozla əlaqədar sürücülərə müraciət edərək onlardan ehtiyatlı olmalı, küləkli havaya görə avtomobillərini ağacların, iri reklam lövhələrinin aşma, yaxud qopma ehtimalı olan digər əşyaların yaxınlığında və ya altında saxlamamağı, xüsusilə qoşqulu, tentli və uzun ölçülü yük avtomobillərin iştirakı ilə baş verə biləcək qəzaların qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görməli, dağlıq və dağətəyi zonalarda qarın yağması nəticəsində yolların sürüşkən olacağını nəzərə alaraq həmin ərazilərdə şinləri, qış mövsümünə uyğun olmayan avtomobillərdən mümkün qədər istifadə etməməyi, nəqliyyat vasitələrinin texniki sazlığından əmin olmağı, sürət həddini metroloji şəraitə uyğun seçməyi xahiş edir. Əlverişsiz hava şəraitinin piyadaların hərəkətində də çətinliklər yaradacağını nəzərə alaraq, onlara təhlükəsizlik baxımından məsuliyyətli olmağı, özlərini və digər hərəkət iştirakçılarının həyat və sağlamlığına təhlükə yaradan davranışlardan çəkinməyi tövsiyyə edirik".

**Deməli, hər bir sürücü və hərəkət iştirakçısı metroloji şəraitə uyğun olaraq yol hərəkəti qaydalarına əməl etməlidir. Belə mürəkkəb hava şəraitində heç kimə sirr deyil ki, qəza ehtimalları artır, piyadavurma halları çoxalır. Ona görə də istər sutkanın gündüz, istərsə də qaranlıq saatlarında hər bir hərəkət iştirakçısı diqqətli olmalı, yolu keçərkən təyin olunmuş yerlərdən istifadə etməli və birmənalı olaraq özlərinin həyatını qorumaq üçün bütün mövcud çətinlikləri vaxtında görməli və çıxış yolları axtarmalıdırlar. Əks təqdirdə tələskənlik və səbirsizlik avtomobillərin toqquşması və piyadaların vurulması ilə nəticələnəcək.**

**Faiq QİSMƏTOĞLU**

# ŞƏKİDƏN TƏBRİKLƏR

**Əzizimiz, Zati-Aliləri, möhtərəm cənab Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Heydər oğlu Əliyev cənablarına.**

Sizi ürəkdən sevən, hər gün öz işi və əməlləri ilə vətənimizin çiçəklənməsi üçün çalışan, Sizə böyük sevgilərlə səcdə edən Şəkililər ad gününüz münasibəti ilə Sizi səmimi qəlblə təbrik edir. Sizə bəyan etməyi özümüzə borc bilirik ki, hər bir qeyrətli azərbaycanlı Sizi çox sevir. Ona görə ki, 200 ildən artıq müddətdə şimaldan, cənubdan, qərbdən və şərqdən ərazilərimizi zəbt edən mənfur qonşularımızın əlindən torpaqlarımızı alıb bizə qaytarırsınız. Siz təkcə itirilmiş torpaqlarımızı deyil, eyni zamanda itirilmiş ləyaqətimizi, qeyrətimizi, namusumuzu və şərəfimizi bizə qaytarırsınız.



**2 dekabr 2022-ci ildə Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və qızları Leyla Əliyevanın Şəki şəhər sakinləri ilə səmimi görüşündən**

Siz öz zəkanızla yetişdirdiyiniz, ərsəyə gətirdiyiniz müzəffər ordunun cəsur Ali Baş Komandanı və ən böyük vətənpərvərsiniz! Siz Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan Milli Qəhrəman, Fateh İlham Əliyevsiniz! Siz bizim ömürlük Prezidentimizsiniz.

Biz Sizdən və ailənizdən, xüsusilə də birinci vitse prezident Mehriban xanım Əliyevadan həmişə diqqət və qayğı görmüşük. Biz Sizi çox sevirik!



**Prezident İlham Əliyev və jurnalist Çingiz Ənvəroğlu**

Fikrimizi tam ifadə etmək üçün Sizə layiq sözlər tamaqda çətinlik çəkdiyimizə görə, həmyerlimiz, böyük şair Vaqif Aslanın 44 günlük müharibə zamanı ilk qələbə xəbərləri gələndə Sizə həsr etdiyi "Ali Baş Komandanım" şeiri ilə Sizi təbrik edirik.

## *Ali Baş Komandanım!*

***Bu yerin, bu yerişin, bu duruşun mübarək!***
***Bu ləngərin, səngərin, bu vuruşun mübarək!***
***Ali Baş Komandanım!***

***Şəhid cənazəsindən könlü açılanları...***
***Ağzından zəhər damıb, əzvay saçılanları..***
***Əlsizi, ayaqsızı gəmirib yeyənləri...***
***Qarnı doyandan sonra mələyəm deyənləri...***
***Öz qınına qoy indi!***
***Gözünü qan örtənin gözlərini oy indi!***

***Xankəndini, Şuşanı göynəyən yarama bas!***
***Qalx İsa bulağının nəğməsinə qulaq as!***
***Yollarını gözləyən ellərimi salamla!***
***Çəmənimə sığal çək, çöllərimi salamla!***
***Çaylarıma qoşul, ax, göllərimi salamla!***
***Ali Baş Komandanım!***

***Bu işıqlı dünyaya illər boyu kor baxan...***
***İnsanlığa xor baxan iblisləri vur indi!***
***Xəbisləri, pisləri, ən pisləri vur indi!***
***Yollarını gözləyən dağın, daşın eşqinə!***
***Bu qaçılmaz, müqəddəs haqq savaşın eşqinə!***
***Mayası turşları vur, bətni şoranları vur!***
***İnsan sümüklərindən ilik soranları vur!***
***Ali Baş Komandanım!***

***Əmrinə müntəzirdir Azərbaycan ordusu,***
***Halal olsun deyirəm sənə bu torpaq, bu su!***
***Ananın südü kimi, atanın çörəyi tək!***
***Qarabağ üzərində dalğalanan bayrağın***
***Ana Azərbaycanın, ata Azərbaycanın döyünən ürəyi tək!***
***Ali Baş Komandanım!***

***Zəfərin də mübarək! Qələbən də mübarək!***
***Ad günün də mübarək,!***
***Ali Baş Komandanım!***

**Möhtərəm, cənab Prezidentimiz, Allah Sizi qorusun, Siz də bütün dünya azərbaycanlılarını. Siz dünya azərbaycanlılarının yenilməz, böyük atası, babasısınız! Sizi bir daha ad gününüz münasibəti ilə təbrik edirik! Aileniz, Vətənimiz, xalqımız üçün bütün arzularınızın yerinə yetirilməsində Allah yardımınızda olsun! Biz Sizə daim dualar edirik. Sizin ailənizə və Sizin qoruduğunuz xalqımıza , millətimizə daim xoşbəxtlik arzulayırıq! Sizi var olasınız!**

**Böyük hörmət və ehtiramla**
**Çingiz Ənvəroğlu,**
**"Qızıl qələm" mükafatı laureatı**

*Emin Piri*

## *Şəhid məzarlarını mərmərə bükdük*



**Şəhid məzarlarını**
**mərmərə bükdük,**
**daş qoyduq başlarına**
**qalxa bilməsinlər**
**üzümüzə tüpürməyə.**
**Bu yaşıma görə**
**Şəhidlər Xiyabanında**
**18 yaşlı**
**baş daşları**
**utandırdı məni.**
**məndən kiçikdi hələ**
**məndən öncə doğulanlar**
**əmi deyib**
**üstümə qaçır başdaşları**
**bir əsgərin ölüm günü**
**başdaşının doğum**
**günüymüş.**
**can qoydular**
**nə düşdü paylarına**
**sağ qalanlar**
**daşladılar**
**torpağının başını.**
**Şəhid məzarlarını**
**mərmərə bükdük,**
**daş qoyduq başlarına**
**qalxa bilməsinlər**
**üzümüzə tüpürməyə.**

# Böyük insanlar heç vaxt əyilmirlər

**...Mən onu - Oqtay Kazımini ilk dəfə 2004-cü ildə nəvəsinin kiçik toy məclisində, daha doğrusu, oğlu Elçinin balasının toyunda görmüşdüm. Və o toyu da "Kişi sözü" filmində baş rolda çəkilmiş istedadlı aktyor Əjdər Həmidov aparırdı. Elə şirin, elə gözəl məclis aparırdı ki, adam toyun necə keçməyini, başa çatmağını hiss eləmirdi. Hiss elədiyin o idi ki, bu toy çox böyük şəxsiyyətlərin və ziyalıların toplaşdığı məclisə bənzəyirdi.**

...O məclisin gözəlliyi, qeyri-adiliyi heç vaxt yadımdan çıxmaz. Çünki dostum və qardaşım Elçinin oğlunun toy məclisində xalq artisti Əliabbas Qədirov, Cabir Novruzun oğlu, böyük ziyalı Mirzə Novruzov və eləcə də uzun illər dostluq və yoldaşlıq elədiyim, çörək kəsdiyim Müşfiq Cabiroğlu iştirak edirdilər. Bir xatırlatmanı da yada salım ki, Əliabbas Qədirov, Oqtay Kazımi və Cabir Novruz uzun müddət dostluq eləyiblər. Və Əliabbas Qədirov həm Müşfiq Cabiroğlunun, həm də Oqtay müəllimin oğlu və mənim dostum Elçinin qayınatası idi.



Elə anlar, elə məqamlar və elə dəqiqələr var ki, onlar insanın ömrünə qızıl hərflərlə yazılır. 2004-cü ildə keçirilən o toy məclisi də mənim yaddaşıma və ömrümə silinməz izlər qoydu. Çünki o toy məclisində mən Azərbaycanın böyük bəstəkarı, böyük ziyalı və gözəl insan, Xalq artisti Oqtay Kazımi ilə, Xalq artisti Əliabbas Qədirovla tanış oldum. Və ona da sevindim ki, bu cür şəxsiyyətlərlə ünsiyyətdə olmaq insanın ömrünə yeni rəng və yeni çalar qatır...

...O toydan bir həftə sonra elə oldu ki, dostum Elçin Kazımovla onlara getdik. Dedi ki, atam səninlə görüşmək istəyir. Mən də bu dəvəti çox böyük sevgi ilə, məhəbbətlə qarşıladım və böyük bəstəkar Oqtay Kazıminin görüşünə getdim. O qədər sakit, o qədər səmimi insan idi ki, az qala adama ürəyini verirdi. İki daşın arasında Cabir Novruzla, onun qələmə aldığı və bəstələdiyi mahnılardan ibarət yeni çapdan çıxmış "Sağlığında qiymət verin insanlara" kitabına avtoqraf yazaraq mənə hədiyyə etdi. Böyük bəstəkarın kitabda mənə yazdığı avtoqrafı bir daha xatırlamaq istəyirəm: "Səmimi və gözəl insan, jurnalistikada dəsti-xətti ilə seçilən, xalqımızın tərəqqisini sürətləndirən, oğlumun dostu, qardaşı Faiqə kitabın bəstəkarından ən xoş və səmimi arzularla Oqtay Kazımi. 28.04.2004-cü il".

Bax bu imza, bu avtoqraf heç vaxt mənim yadımdan çıxmır. O kitabın tərtibçisi Hacı Firuz Əhmədli, Müşfiq Cabiroğlu idi. Redaktorları Vüqar Cabiroğlu, Elçin Oqtayoğludur və bu kitab "Cabir Novruz" Fondu hesabına çap edilmişdi. Bir sözlə, kitabdan böyük kişilərin, böyük insanların ətri, qoxusu gəlirdi. Kitabdan Cabir Novruzun, Oqtay Kazıminin gül ətrini, qoxusu hiss etmək olurdu...

...Və burda hər iki böyük şəxsiyyətin 35 mahnısı toplanıb. "Bakının qızları, "Sevgi qanadlarında", "Taleyim mənim", "Qocalır anam", "Həyat sən nə qəribəsən", "Yaşayır insan", "Nəğmələr qoş", "Məhəbbətdən yaranmışıq", "Adım gəldi bu dünyaya", "Çağırır Vətən", "Ömrümə əvəzsən", "Kaş millətdə ruh yaşasın", "Səadət axtarır dünyada insan", "Ömrümün nəğməsi", "Qürbət bayatıları", "Gəlin gələndə", "Mənim duyğularım", "Qara gözlüm", "Məhəbbət yaşa baxmır", "Səni gördüm", "Dünya necə dünyasan", "Arzular qovuşanda", "Dünya bir nəğmə idi", "Məni yad etməz", "Bulaq suyu, dağ havası", "Məhəbbət", "Sağlığında qiymət verin insanlara", "Tələsin insanlar, "Cavanlığım", "Ayrılıq olmayaydı", "Nəğməmsən Azərbaycan", "Günəşli ömrüm", "Əlvida", "Bu dünyanı", "Arzum". Bu mahnıların hər biri çox möhtəşəm və yaddaqalan, tarixə düşən musiqilərdir. Həm sözlərinə görə, həm də bəstələrinə görə! Oqtay müəllimin mahnısı var ki, düz 60 ildi, 70 ildi oxunur, yenə öz təravətin, gözəlliyin, şirinliyin itirmir. Çünki Oqtay müəllimin bəstələdiyi musiqilər Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, keçmişini, bugününü əks etdirir. Onun mahnılarını kimlər ifa etməyib? Dahi türk müğənnisi Zəki Müren, Azərbaycanın böyük sənət adamları Rəşid Behbudov, Zeynəb Xanlarova, Şövkət Ələkbərova, Flora Kərimova, Eldar Axundov, Yalçın Rzazadə, İlhamə Quliyeva, Oqtay Ağayev, Məmmədbağır Bağırzadə, Zaur Rzayev və başqaları... Yəni böyük bəstəkarın hər bir mahnısı, hər bir bəstəsi musiqi aləmində sözün həqiqi mənasında hadisəyə çevrilib, millətin yaddaşında və ömründə möhtəşəm izlər qoyub. Oqtay Kazıminin dekabrın 27-də 90 yaşı tamam olacaq. O, aramızda olmasa da, Allahın dərgahına qovuşsa da, hər an, hər dəqiqə öz mahnıları ilə yaşayır. İstər-istəməz Oqtay müəllimin tərcümeyi-halı yadıma düşür: "Oqtay Məmməd oğlu Kazımi 27 dekabr 1932-ci ildə Astarada anadan olub. Orta məktəbi Astarada bitirən O.Kazımi Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinin xor-dirijorluq fakültəsinə qəbul olub. Və Hacı Xanməmmədovun sinifində təhsil alıb. Musiqi məktəbində oxuyarkən, "Bəxtəvər uşaqlar" adlı ilk mahnısını bəstələyib. O.Kazımi 1957-ci ildə Üzeyir Hacıbəyov adına Konservatoriyanın bəstəkarlıq fakültəsinə daxil olub və Cövdət Hacıyevin sinifində təhsil alıb. 1966 və 1967-ci illərdə Sumqayıt Musiqi Texnikumunda müəllim, sonra dərs hissə müdiri kimi fəaliyyət göstərib. Sumqayıtda çalışdığı illərdə O.Kazımi "Ekspiriment" estrada orkestrini yaradıb. Sonralar bəstəkar Filormoniyada musiqi redaktoru vəzifəsində çalışıb və Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbində xalq çalğı alətləri fakültəsində dərs deyib. Oqtay müəllim uzun illər "Dan ulduzu" ansamblının repertuarında xüsusi yer tutub. O.Kazıminin yaradıcılığı Dövlət tərəfindən yüksək qiymətləndirilib. Belə ki, o, Əməkdar incəsənət xadimi (1992), Azərbaycan Respublikasının xalq artisti (2006) adlarına və Prezident təqaüdünə layiq görülüb. O.Kazımi Azərbaycanda ilk rok operanın müəllifidir". Oqtay müəllim dünyasını dəyişəndən sonra da mən onun oğlu Elçin Kazımovla və rəhmətlik Müşfiq Cabiroğlu ilə dostluğumu davam etdirmişəm. Onların sevincli günlərində yanlarında olmuşam. Dostum Müşfiq isə qəfil dünyasını dəyişəndə heç özümə gələ bilmədim. Çünki Müşfiqin özündən əvvəl iki qardaşı da Allahın dərgahına qovuşmuşdu. Amma nə yaxşı ki, Cabir Novruzun ocağını yandıran, yolunu davam etdirən və eləcə də Oqtay Kazıminin ömrünü yaşadan övladları, nəvələri var. Elçin Kazımov kimi vətənpərvər, millətini və xalqını sevən bir oğul o ocağın şərəfli və namusu davamçısıdır.



Oqtay Kazımi ilə bağlı çox böyük adamların, çox böyük ziyalıların ürək sözləri və xatirələri var. Onların hamısı yadda qalan və şirin xatirələrdir. Xalq şairi Cabir Novruzun isə Oqtay müəllimlə bağlı ürək sözlərini heç vaxt unutmaq olmur. Çünki onlar 50 ildən çox dostluq ediblər, çörək kəsiblər və ömürlərinin sonuna qədər bu çörəyə sadiq qalıblar. Cabir Novruz xatirələrində yazır: "Oqtay Kazımi! Bu bəstəkar çox heyrətamiz, çox qeyri-adi istedada malik insandır. Bir sənətkarın ki, mahnılarını türk dünyasının böyük müğənniləri Rəşid Behbudov, Zeynəb Xanlarova, Zəki Müren, Şövkət Ələkbərova, Nəşə Qaraböcək, Yalçın Rzazadə oxuyur, bir şəxsin ki, mahnılarını bütün Azərbaycan müğənniləri oxuya, rus müğənniləri, Avropa müğənniləri oxuya, bu bəstəkara ölüm yoxdur. Mən 50 ilə yaxındır ki, onunla dostam. Hələ bir dəfə görməmişəm Oqtay müəllim özündən danışsın, şöhrət dalınca qaçsın, öz adı üçün, öz musiqisi üçün kiminsə qarşısında əyilsin. Çünki böyük insanlar heç vaxt əyilmirlər. Onlar sənət qarşısında əyilirlər, onlar ilahi musiqi qarşısında əyilirlər. Oqtay Kazımi bizim belə böyük sənətkarlarımızdandır".

**Böyük sənətkarlar, istedadlı adamlar heç vaxt ölmürlər və yaddan çıxmırlar. Düzdü, Oqtay müəllimin dekabrın 27-də 90 yaşı tamam olacaq. Çünki Oqtay müəllim kimi böyük sənətkarlar həmişə yaşayır və yaşayacaq. İndən sonra neçə yüz illər keçsə də, Oqtay müəllimin "Qızıl fondda" olan mahnıları səslənəcək və onu gələcək nəsilə sevdirəcəkdir. Oqtay Kazıminin mahnıları əbədiyaşar və ölməz mahnılardı. O mahnılar yaşayana qədər Oqtay müəllim də yaşayacaq və bu xalq, bu millət tərəfindən seviləcək...**

**Faiq QİSMƏTOĞLU**

# Almaniyanın kansleri lider olmaq istəyir

**Almaniyanın kansleri Olaf Şolts, Praqanın Karlov universitetində çıxışı zamanı bəyan edib ki, Avropa İttifaqı sıralarına yeni üzvlər qəbul etməlidir. Şoltsun fikirincə, Avropa İttifaqının genişlənməsi üçün Qərbi Balkan dövlətləri - Serbiya, Çernoqoriya, Bosniya və Hersoqovina, Şimali Makedoniya, həmçinin Ukrayna və Moldovanı üzvülüyə namizəd kimi qəbul etmək olar. Bundan başqa perspektivdə Gürcüstan və Kosovanın tanınmış bir hissəsinin də üzvülüyə namizədlik məsələsinə baxıla bilər.**

15 dekabrda Bosniya və Hersoqovina rəsmi olaraq Avropa İttifaqna üzvülüyə namizəd statusu qazandı. Daha əvvəl isə keçmiş postsovet respublikaları- Ukrayna və Moldava da belə bir status qazanmışdı.



Avropa İttifaqına üzv olmaq istəyən ölkələr bir sıra reformalar aparmalıdırlar - məhkəmə qanunvericiliyində dəyişikliklər aparmalı, korrupsiyaya və çirkli pulların yuyulmasının qarşısının alınması üçün ciddi tədbirlər görməlidirlər. Buna baxmayaraq, üzvülüyə qəbul hələ yaxın vaxtlarda üzv olmağa əsas vermir.

Olaf Şolts çıxışı zamanı qeyd edib ki, üzv olma prossesi uzun mərhələdən keçməyi tələb edir. Namizəd ölkələr sübur etməlifirlər ki, Kopenhagen kriteriyalarına uyğun olaraq ölkələrində demokratiya və insan haqları prinsiplərinə, qanunun aliliyinə, həmçinin rəqabətli bazar mühiti yarafılmasına əməl olunur. Avropa İttifaqına üzvülüyə qəbul bu ölkələrin siyasi məsələləri necə həll etməklərindən asılı olacaq. Rusiyanın Avropa və beynəlxalq araşdırmalar mərkəzinin direktoru Dmitri Suslov hesab edir ki, Ukrayna və digər avropa dövlətlərinin Avropa İttifaqına üzvülüyə qəbul olunacağı inandırıcı deyil. Mərkəzin direktorunun fikirincə Olaf Şoltsun təşəbbüsü qeosiyasi xarakter daşıyır. Əslində Şoltsın canfəşanlığında məqsədi öz nüfuzunu qaldırmaq, mövqeyni ortaya qoymaqla avropa lideri rolunu ələ keçirməkdir. Hecə ki, Almaniyanın keçmiş kansleri Angela Merkel istər-istəməz Avropanın lideri sayılırdı. İndi Şoltsda bu təşəbbüsləri ilə özünün lider bacarıqlarını nümayiş etdirmək niyyətindədir.

Yaddan çıxarmamaq lazımdır ki, Frasanın prezidenti Emanuel Makron da başını hər məsələyə soxmaqla lider olduğunu göstərməkdədir. O, istənilən məsələlərin müzakirəsində yuyulmamış çömçə kimi özünü ortaya atır və "vacib persona" olduğunu gözə soxmağa çalışır.

İndi həqiqətən də Avropanın getdicə artan iqtisadi böhran bataqlığından çıxara biləcək liderə ehtiyacı var. Lakin bunun ABŞ -ın quyruğunda sürünən nə Makron, nə də Şolts olmadığı hamıya məlumdur. Ümumiyyətlə ABŞ -ın təsir dairəsindən çıxmaq üçün yaradılan Avropa İttifaqı ideyası özünü doğrultmur. İngilislər bunu daha tez anladıkar və vaxtında bu qurumdan uzaqlaşdılar.

**Rüstəm Hacıyev**

*Eminquey*



# «Diderot effekti»nə tutulan cəmiyyət

*Əgər insan "insan olmağı" unudursa, formaların, məkanların əsirinə çevrilir. Bədənini də, ruhunu da nəsnələrə təslim edir.*

*Tutaq ki, geyindiyi paltarın, oturmaq istədiyi məkanın, sürdüyü maşının, istifadə etdiyi telefonun dəyəri ilə özünə dəyər biçir.*

*Bu adamlar dinə-filan gələndə də eyni şeyi edirlər. İmanları, təqvaları hicabda, bağlı geyinməkdə, saqqalda, namazın sayında olur.*

*Bu adamları elm, nəciblik, əxlaq və başqa mənəvi məsələlər maraqlandırmır.*

*Bu adamlar özləri olmaqdan çox, başqası olmağa can atırlar. İsraf edirlər, amma "özünə dəyər ver" adı ilə özlərinə təsəlli verirlər.*

*Narsistdirlər, əslində xoşbəxt deyillər və günü-gündən belə insanların sayı artır.*

*Bir gün fransız filosof Diderot borc bataqlığına düşür. Rus imperatoriçası Böyük Katerina Diderotun vəziyyətindən xəbər tutur. Ona nəcib bir təklif edir və bütün kitabxanasını alır. Amma sonra ona geri qaytarır. Bununla kifayətlənmir, Diderota 25 illik maaşını birbaşa ödəyir və onu öz kitabxanaçısı kimi işə götürür.*

*Beləcə Diderotun əlinə böyük miqdarda pul keçir. Bütün borclarını ödəyir. Və xeyli vaxtdır ürəyindən keçən qırmızı rəngli bahalı bir xalat alır. Bu xalat o qədər şux və görkəmlidir ki, evdəki əşyalarının heç birinin bu xalatla uyğun gəlmədiyini görüb yeni əşyalar almağa başlayır. Dəyişə-dəyişə bir də baxır ki, evdə köhnə əşya qalmayıb və özü də yenidən borcu borc üzərinə yığıb.*

*Düşdüyü bu vəziyyətə baxıb deyir: "Köhnə xalatımın sultanı idim, amma yenisinin köləsi oldum".*

*O zamandan sonra bu halətə Diderot effekti deyirlər. Ehtiyacı olmayan şeyləri almaq hissi. Daha dəqiqi, göstərişə can atmaq arzusu.*

*Çevrilib cəmiyyətə baxanda əksəriyyətimizin Diderot effekti yaşadığımızın fərqinə varırıq. Ehtiyacımız yoxdur, amma bahalı toy süfrələrimizdə lazım oldu-olmadı n qədər yemək var. Ehtiyacımız yoxdur, amma mütləq bahalı maşında gəlin gətirməliyik. Ehtiyacımız yoxdur, amma bahalı geyimlər, telefonlar işlətməliyik. Ehtiyacımız yoxdur, amma bahalı qəbir daşımız olmalıdır. Deməsinlər ki, filankəs kasıbdır.*

*İndiki dövr ehtiyac olanı istehsal etmək dövrü deyil, əvvəlcə istehsal edib sonra ehtiyac yaratmaq dövrüdür.*

*"Axın" adı ilə bir-birilərinin videolarını, zarafatlarını, davranışlarını, geyim və həyat tərzlərini kopyalayan gənclər törəyir.*

*"Fenomen" olmuş adamların vasitəsilə bizə ehtiyacımız olmayan şeyləri soxuşdurmaqla yanaşı öz həyat tərzləri ilə kopyalamaq xəstələyinə tutulmuş gənclərə "əla" nümunə olurlar. "Nə edirsən et, fenomen ol, varlanacaqsan, lüks həyat yaşayacaqsan" ideyasını düşünə bilməyən beyinlərə dürtürlər.*

*Böyük ideyaları, faydalı ixtiraları, xəstəliklərə çarə tapmaq kimi idealları dəbdəbəli məhsulları istehlak etmək əvəzləyir.*

*Nə oldu ki bu duruma düşdük?*

*Bu vəziyyətdən necə çıxacağıq?*

*Düşünmək lazımdır.*

*Barı bu kimi vəziyyətdən çıxa bilən, cəmiyyəti elmə, tərəqqiyə, inkişafa doğru can atan millətləri, dövlətləri kopyalamaq lazımdır.*

*Bəlkə heç olmasa kopyalamaq bir işimizə yaradı.*



*Əntiqə Rəşid*

# A qıvlasızlar, yolunuzu biz kəsmişik yoxsa, Rusiya SM-ı?

*Bayaq erməni KİV-ni oxuyurdum. Baxdım ki, Armenpress.am saytında Ermənistan Baş naziri N.Paşinyanın açıqlamasını veriblər. Nəşr yazır: "Artıq səkkizinci gündür ki,Azərbaycan Azərbaycan Artsaxı Ermənistan və xarici dünya ilə birləşdirən yeganə yolu olan Laçin dəhlizi bağlı saxlayır. Bunu ER baş naziri Nikol Paşinayn twitter mikrobloqunda xatırlatdı.*



*"Dağlıq Qarabağ xalqı yollarda soyuqda, ailələr blokadanın müxtəlif tərəflərində qalıb. Səhhətində ciddi problemlər olan vətəndaşlar dərman və səhiyyə xidmətlərindən məhrumdurlar".*

*Yadıma bir məsəl düşdü, deməsəm olmaz.*

*Deməli, oğlu İvana deyir ki, ata, səncə, dünyada sözü gec qavrayan, məsləhət eşitməyən, qanunlara məhəl qoymayan daha çox hansı millətin nümayəndələridir?*

*Atası oğluna cavab verir: Azərbaycanlılar!*

*Oğlu:Niyə məhz onlar?*



*Ata deyir: Oğul, düz 6 ildir, qonşumuzda -kirayədə bir azərbaycanlı yaşayır, bazarda çiçək satandı. Düz 6 ildir, ona başa sala bilmirəm ki, Olqa mənim arvadımdı, sənin deyil Başa düşmürlər də*

*İndi, bu ermənilərin yolunu Rusiya sülhməramlıları kəsib, amma elə hey gileylənirlər ki, azərbaycanlılar yolumuzu kəsib.*

*A, qıvlasızlar, heç olmasa, xəbərə yerləşdirdiyiniz fotolara baxın də. Görün orda yolu kim kəsib, Rusiya sülhməramlıları, yoxsa azərbaycanlılar?*

*Başa düşmürlər də!*

# Xankəndi-Laçın yolu: Haqlı tələblərimiz yerinə yetirələnə qədər davam edəcəyik

## Gənc yazarlar Şuşada

**Bildiyimiz kimi Şuşa- Xankəndi yolunda hələ də aksiya davam edir.Bir sıra Qeyri Hökümət Təşkilatının nümayəndələri, jurnalistlər, gənc yazarlar da bu aksiyaya qoşularaq, "ekoloji terrora son" deyərək xalqın səsinə səs verdilər. Aksiyada iştirak edən gənc yazarlar Qabil Ədalət və İntiqam Yaşar da aksiya ilə bağlı öz fikirlərini Adalet.az-a bölüşüblər:**

Azərbaycan Yazıçılar Birliyinin üzvü gənc yazar Qabil Ədalətin fikrincə, bu aksiya insanların öz yurdlarına və təbii sərvətlərinə sahib çıxmaları ilə yanaşı, həm də mətin və dözümlü olduğunun göstəricisidir: "Şuşa işğaldan azad olandan sonra, hər bir azərbyacanlı kimi Şuşaya getmək mənim də arzum idi. Lakin hər dəfə müxtəlif səbəblərə görə Şuşaya gedə bilmirdim. Həmişə deyirdim ki, Şuşaya tarixi bir gündə gedəcəm. Və belə də alındı. Dekabrın 12-də Qeyri Hökümət Təşkilatlarının və medianın başlatdığı aksiyada mən də iştirak etdim. Mən bu cür böyük hadisəyə biganə yanaşa bilməzdim. Gənc Türk Yazarlar Birliyinin başqanı İntiqam Yaşara müraciət etdim. Şuşaya getmək istəyimi qeyd etdim. Bunun təhlükəli olduğundan da xəbərdar idim. Yol boyunca Şuşaya getməyimin sevincin yaşayırdım.

Biz rus sülhməramlıları ilə üzbəüz dayanıb "ekoloji terror son" şüarını səsləndirəndə belə onların gözlərində oxunurdu ki, hər an hər şey baş verə bilər. Ancaq bu, orda heç kəsi qorxutmurdu. Sevindirici hal o idi ki, ora toplanan insanlar hər gün daha çox səslərini ucaldırdılar. Qətiyyən geri çəkilmək fikrimiz yoxdur, deyirdilər. Orda olduğum müddətdə insanların birbirinə doğmalığın gördüm. Millətin belə əl- ələ, səs-səsə verməyi çox sevindirici haldır. Biz tankın , texnikanın qarşısında SÖZlə dayanmışıq. Sözümüzü silaha çevirmişik. Öz təbii sərvətlərimizə sahib çıxıb, onu qorumaq istəyirik. Biz təbii sərvətlərimizin terrora məruz qalmasına etiraz edirik."





Gənc Türk Yazarlar Birliyinin başqanı İntiqam Yaşar da keçrilən aksiyada haqq səsini ucaldanlar sırasındadır.

"Aksiya artıq günlərdir davam edir. Vətəndaş cəmiyyəti institularının təmsilçiləri aksiyada iştirak edirlər. Aksiya ilk olaraq əsasən ekoloji yönümlü təşkilatların nümayəndələri tərəfindən həyata keçirilirdi. Daha sonra kütlə böyüdü, digər Qeyri Hökumət Təşkilatlarının nümayəndələri, televiziya, yazılı mətbuat, ədəbi mühit aksiyaya qoşuldu. Aksiyaya qoşulanların sayı hər günü daha çox artır. Burada məqsəd Azərbyacanın sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərində təbii sərvətlərinin qanunsuz istismarının qarşısının alınmasıdır. Bizim insanlar haqlı olaraq öz torpaqlarında təbii sərvətlərə sahib olmaq istəyirlər. Bu da Azərbycanın süveren haqqıdır. Bir sıra təşkilat nümayəndələri, ekoloqlar monitorinq keçirmək istədilər, lakin sülhməramlıların təsiri ilə müxtəlif qruplar buna mane oldular. Bu da bizim cəmiyyətdə haqlı olaraq narazılığa səbəb oldu.Mən orda millətimizin necə qətiyyətli və dözümlü olduğunu gördüm. Bildiyimiz kimi dekabr ayı çox soyuq və şaxtalı keçir. Şuşada isə bu, daha sərt özünü biruzə verir. Ancaq hava şəraitinin necə olmasından aslı olmayaraq, bir addım belə geri çəkilmirik. Haqlı tələblərimiz yerinə yetirələnə qədər davam edəcəyik. Bu barədə artıq hər kəs məlumatlıdır."

**Əntiqə Kərimzadə**

# ABŞ pul kisəsinin ağzını açmaqda davam edir

ABŞ konqtessi 2023-cü maliyə ilində hökumətin fəaliyyətinə 1.7 trilyon dollar ayrılması barədə qərar qəbul edib. Sənəddə bu vəsaitin 44,9 milyard dolları Ukrayna və NATO tərəfdaşlarına kömək məqsədi üçün məzərdə tutulub.

Qanun layihəsində müdafiə məqsədilə ayrılan vəsaitin həcmi 858 milyard dollar, qalan məsələlər üzrə isə 722,5 mitard dollar nəzərdə tutulub.

Amerikanın Politico qəzetinin müxbiri Conotan Lemirin fikirincə, Ağ Ev Ukraynaya maliyyə yardımının azaldılması ilə bağlı, respublikaçıların mövqeyndən ehtiyat edir. O, həççinin bildirir ki, Ağ Ev özü də etiraf efir ki, Kiyevə göstərilən maliyə yardımlarının azaldılması qaçılmazdır.

**Rüstəm Hacıyev**

*Səxavət Məmməd*



# Elçibəy sağ olsaydı, əli üzündə qalardı

**44 günlük Vətən müharibəsində Azərbaycan ordusu döyüş tapşırıqlarını yerinə yetirdi və hərbi qələbəni əldə etdi. Fəqət müharibədə əldə edilən dominantlığı diplomatik sahədə qazana bilməmişik.**

**Hərbi sahədə dominantlığa gələk. Qələbədən sonra Azərbaycan ordusu bir çox mövqeləri hətta şillə-təpiklə əldə etdi. Ardınca Fərrux, Sarıbaba, Qırxqız yüksəklikləri nəzarətə götürüldü. Bunlar nə zaman baş verirdi? O zaman ki diplomatiyada tıxac yaranırdı, sərt güc nəfəslik rolunu oynayırdı. Dərhal qarşı tərəf öz cəmiyyətinin belə tənqid etdiyi bəyanatlar verməyə məcbur olurdu.**

**Azərbaycan diplomatik sahədə istənilən nəticəni əldə edə bilmir. Prosesləri diqqətlə izləyənlər açıq şəkildə müşahidə edə bilər ki, qarşı tərəf hansısa addım atır, Azərbaycan buna yalnız cavab verməklə məşğul olur. Lap elə hazırda davam edən Şuşa-Xankəndi yolundakı aksiyanı götürək. Azərbaycanın nümayəndə heyəti lazım olan əraziyə getdi, onları sözdə narazı işçilər və ermənilər qarşıladılar. Azərbaycanlı fəallar da buna cavab olaraq aksiyaya start verdi.**

**Problem burasındadır ki, Azərbaycan ictimaiyyəti də, bu sahə ilə məşğul olan qurumlar da ancaq həmin aksiyaya fokuslanıblar. Bu, sistemsizlikdən, heç kimin öz işi ilə məşğul olmamasından xəbər verir. Yəni dövlət hansı mesajı verirsə, hər kəs o istiqamətə yönəlir.**

**Azərbaycanla İran arasında gərginlik artan xətt ilə gedirdi. İş o yerə çatdı ki, rəsmi Bakı cənubdakı soydaşlarımızın hüquqlarından, onların azadlıqlarından danışdı və onları müdafiə edəcəyini bəyan etdi.**

**Mətbuat, alimlər, vətəndaş cəmiyyəti nümayədələri, QHT-lər İrana fokuslandı. Alimlər, siyasətçilər, jurnalistlər danışdı, yazdı, ideyalar ortaya atdı. TV-lərin canfəşanlığından danışmağa belə gərək yoxdur. Mərhum prezident Elçibəy sağ olsaydı, əli üzündə qalardı. Çox gözəl! Sual olunacaq ki, Şuşa-Xankəndi yolundan İrana necə keçdin? Niyəsi çox sadədir. Şuşa-Xankəndi yolundakı aksiya ilə cənubdakı problemdən nə danışan var, nə yazan, nə də göstərən. Bunun adı sistemsizlik deyil, bəs nədir?**

**Dövlət hansı istiqamətə mesaj verirsə, ancaq həmin sahəyə yönəlmə var. İxtisaslaşma şərtdir! Müharibə vaxtı da bunun çox şahidi olmuşuq. Hərblə yaxından-uzaqdan əlaqəsi olmayan quruma zəng edib söz soruşurduq, deyirdi, başımız müharibəyə qarışıb. Bir neçə mətbuat xidmətinə hətta telefonda da demişdim ki, müharibədən sizə nə? Cəbhədəsən? Yox! Ordu ilə bağlı hansısa iş görürsünüz? Yox! Qardaş, bəs sənin başın müharibənin harasına qarışıb? Cavab yoxdur**

**Təkcə dövlət qurumları belə deyil axı. Elə vətəndaş cəmiyyəti nümayədələri, QHT-lər, jurnalistlər də bu gündədir.**

**Müharibə olur, hamı hərbə yönəlir, dünya çempionatı olur, hamı futbola, İranla bağlı mesaj verilir, cənuba, Şuşa-Xankəndi yolunda aksiya olur, Şuşaya, Zəngəzur dəhlizi ilə bağlı dövlət mövqe ortaya qoyur, hər kəs Zəngəzura yönəlib dəhlizçi olur, xəyali yollar açır.**

**"Azərbaycan yumşaq gücü davam etdirməlidir", - deyirik. Necə? Təkcə Şuşa-Xankəndi yolundakı aksiyanı davam etdirməklə? Düşünmürəm! Azərbaycan tərəfi təşəbbüsü ələ almaq üçün gedişləri artıq özü etməlidir. Misal üçün qanunsuz erməni silahlı dəstələrinin ərazidən çıxarılması ilə bağlı vaxt verilə bilər. Ardınca cinayətlərdə əli olanların beynəlxalq axtarışını təmin etmək olar. İşıqla, qazla, su ilə bağlı müxtəlif addımlar atmaq olar. Təkcə bu da deyil. Qarabağdakı mədənlərdə işləyən xarici şirkətlərlə bağlı da müxtəlif işlər görmək mümkündür. Ermənistan tərəfinin vurduğu ziyana görə təzminat ödənilməsi ilə bağlı beynəlxalq qurumlara, məhkəmələrə mürciətlər etmək mümkündür. Qısacası, o qədər fərqli istiqamətlərdən hücumlar etmək olar ki, qarşı tərəfin başını qaşımağa belə vaxtı qalmaz. Bunun hərəsini bir qurum öz üzərinə götürsə, nəinki Şuşa-Xankəndi yolundakı aksiyanı davam etdirmək olar, cənubdakı soydaşlarımızın hüquqları ilə bağlı da müzakirələri davam etdirə bilərik.**

**Son günlər Naxçıvanda ciddi dəyişikliklər baş verir. İndi də hər kəs naxçıvanşünas olub.**

**Bir neçə kəlmə də Naxçıvanda baş verənlər barədə. Zəngəzur dəhlizinin açılması ilə bağlı işlərin getdiyi deyilir, hətta layihənin 2024-cü ildə bitəcəyi açıqlandı. Layihənin Azərbaycandan keçməsi Azərbaycanın olması anlamına gəlmir. Çindən gələn mallar Londona qədər gedəcək, milyardlar məlum yolla axacaq və Naxçıvanda xan idarəetmə üsulu davam edəcəkdi? Bu qədər saf ola bilməzsiniz.**

**Heç kəsə sirr deyil ki, tez-tez yön dəyişdirənlər, hər tezis uğrunda can qoyanlar ələbaxanlardır. Bunları başa düşürük.**

**Bəs ixtisaslaşmış qurumlar, təşkilatlar, şəxslər niyə bu qədər ağızabaxımlılıq edir? Bu cür davranışlar cibə xeyir edə bilər və edir də! Bunun ictimaiyyətə və dövlətə vurduğu zərəri kim düşünəcək?**



Fuad Hüseynzadə,
Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi
İctimai Birliyinin sədri

# Azərbaycan - Serbiya dostluq və strateji tərəfdaşlıq münasibətləri

**Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra dünya dövlətləri ilə əlaqələrin qurulmasına önəm verir. Müxtəlif regional və qlobal səviyyəli beynəlxalq təşkilatlarda fəal təmsil olunur. Respublikamızın milli və dövlət maraqlarının daha dolğun ifadəsinə və təmininə xidmət edən beynəlxalq əməkdaşlıq ölkəmizin xarici siyasət kursunun əsas istiqamətlərindən birini təşkil edir. Son illərdə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Serbiya Respublikası ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir. İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib və strateji tərəfdaşlıq zəminində qurulmuş münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlib. Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin ölkəmizə işgüzar səfəri bu əlaqələrin davamlılığına əsaslanır.**

Bu əlaqələr ildən-ilə uğurla inkişaf edir, münasibətlər strateji tərəfdaşlıq, dostluq, qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Azərbaycan Serbiyanın, Serbiya Azərbaycanın ərazi bütövlüyünü suverenliyini və sərhədlərin toxunulmazlığını dəstəkləyir. Dövlətlərarası münasibətlər iqtisadiyyat, enerji və digər sahələrdə yeni perspektivlərə yol açıb. Bu günlərdə Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin Azərbaycana səfəri münasibətlərin yüksək xətlə inkişafda olduğunu göstərir. Səfər çərçivəsində bir sıra məsələlər müzakirə olunub və Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç mətbuata bəyanatlarla çıxış ediblər.

"Serbiya və Azərbaycan strateji tərəfdaşdırlar, strateji tərəfdaşlığa dair bir neçə sənəd imzalanmışdır", - mətbuata bəyanatla çıxış edərkən dövlət başçımız bildirib: "Biz hər zaman bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləmişik, dəstəkləyirik və bu siyasət dəyişməz olaraq qalacaq. Biz beynəlxalq hüququn tərəfdarıyıq və əminik ki, ölkələr arasında münasibətlər ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında tənzimlənə bilər. Bu sahədə dünyada müşahidə olunan ikili standartların təzahürləri, əlbəttə ki, bizi çox narahat edir. Beynəlxalq hüququn norma və prinsipləri bütün ölkələr üçün əsas olmalıdır". Mövcud siyasi dialoqun yüksək səviyyədə olması iki ölkə liderlərinin siyasi iradəsi və müdrik uzaqgörənliyindən, əməkdaşlığa verdikləri böyük önəmdən irəli gəlir. Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edir, əhəmiyyətli məsələlərin həllində bir-birinə dəstək verir. Xatırladaq ki, Serbiya Prezidenti Vuçiçin dəvəti ilə bir ay əvvəl Azərbaycan Prezidenti İlham Əliyev Serbiyada rəsmi səfərdə olmuşdur. Bu, dövlətlərarası dinamikanın müsbət olduğunun təzahürüdür. "Biz keçən ay Belqradda qəbul etdiyimiz qərarların tezliklə yerinə yetirilməsini arzulayırıq", - deyə bildirən dövlət başçısı vurğulayıb ki, nəinki arzulayırıq və eyni zamanda, hökumət üzvlərinə bu qərarların icra edilməsi ilə əlaqədar müvafiq göstərişlər verildi: "Bilirəm ki, bu ay ərzində bizim müvafiq strukturların rəhbərləri bir-biri ilə təmasda olmuşlar və bu gün bu təmaslar davam edir. Bir sözlə, biz istəyirik ki, bundan sonra da ikitərəfli əlaqələr sürətlə inkişaf etsin və qəbul edilmiş qərarlar vaxt itirmədən icra olunsun". Əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsi artacaqdır. Nəqliyyat-logistika sahəsində böyük potensial olduğunu bildirən cənab İlham Əliyev Azərbaycan və Serbiya ərazilərindən beynəlxalq nəqliyyat dəhlizlərinin keçdiyini diqqətə çatdırıb.

Ölkələrimiz arasında həyata keçirilmiş yüksək səviyyəli səfərlər zamanı əldə edilmiş razılaşmaların, imzalanmış sənədlərin iki ölkə arasında əməkdaşlığın hərtərəfli inkişafı üçün hüquqi bazanı formalaşdırdı. Bildiyimiz kimi, 2013-cü ildə Azərbaycan və Serbiya arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə, 2018-ci ildə imzalanmış strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı əhəmiyyət kəsb edir. Azərbaycan və Serbiya arasında strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələr ildən-ilə genişlənir. İkitərəfli əlaqələrin daha da geniş miqyas alması üçün potensial böyükdür.

Bir daha bildirim ki, bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya rəsmi səfəri çərçivəsində dövlət başçıları vacib məsələləri müzakirə edib və bir sıra sənədlər imzalayıblar. Bu və digər rəsmi səfərlər ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfələr verir. Qeyd edək ki, səfər çərçivəsində enerji sahəsində əməkdaşlığın aparılması, elektrik enerjisi sahəsində, beynəlxalq arenada əməkdaşlığın gələcək inkişafı üçün məsələlər və s müzakirə olunub.

Dövlət başçısının mətbuata bəyanatla çıxışında energetika sektorunun əməkdaşlığımızın bir hissəsi olduğunu bildirib. Son vaxtlar bu sahənin daha böyük əhəmiyyət kəsb etdiyini bildirən dövlət başçısı qeyd edib ki, Azərbaycanın təbii resursları artıq müxtəlif istiqamətlər üzrə ixrac edilir, həmçinin Avropa qitəsinə, o cümlədən Serbiyaya qonşu olan ölkələrə: "Həm təbii qaz, həm elektrik enerjisi ilə əlaqədar əməkdaşlıq üçün imkanlar var, müvafiq danışıqlar aparılmışdır. Gələn ildən başlayaraq Azərbaycanın elektrik enerjisinin Serbiyaya ixrac edilməsi üçün əminəm ki, əməli addımlar atılacaqdır. Onu da bildirməliyəm ki, dörd gün bundan əvvəl Azərbaycanın elektrik enerjisinin Avropaya çatdırılması üçün müvafiq saziş imzalanmışdır. Qara dənizin dibi ilə çəkiləcək kabel Azərbaycanı və əlbəttə ki, bizi Avropa üçün önəmli təchizatçı kimi təsdiqləyəcək. Bütün bunlar yeni imkanlar, yeni üfüqlər açır və biz bu sahədə, əlbəttə ki, ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq edəcəyik".

Göründüyü kimi, Serbiya və Azərbaycan arasında ikitərəfli əlaqələr bütün sahələrdə dostluq və qarşılıqlı anlaşma üzərində qurulub:

"Əminəm ki, biz gələn ili də bu ab-hava şəraitində keçirəcəyik. Çünki bu il ikitərəfli əlaqələrimiz üçün çox uğurlu olub. Həm qarşılıqlı iki səfər, eyni zamanda, bizim nümayəndə heyətlərinin üzvlərinin təmasları və bütövlükdə Serbiya-Azərbaycan əlaqələrinin gələcəyi ilə bağlı ancaq nikbin fikirdə olmaq olar" - deyə Azərbaycan Prezidenti bildirib.

**Müstəqil siyasət aparan Serbiya və Azərbaycan resurslarına arxalanan ölkələrdir və dövlətlərarası ticarət sahəsində, nəqliyyat-logistika, energetika sektoru və digər sahələrdə aparılan əməkdaşlığı qarşılıqlı etimad və dostluğa söykənir. Əminliklə demək olar ki, ikitərəfli əlaqələr dövlətləri daha da sıx birləşdirəcəkdir.**

# "Laçın qapısı" və ya dəhlizin ucundakı işıq



Qəzənfər Həmidoğlu

**Rejissor Akira Kurasavanın yazıçı Akutaqavanın "Takexironu kim öldürdü" ("Bambuk meşəliyində") və "Rasomon qapısı" əsərləri əsasında çəkdiyi məşhur "Rasomon" filmi var. Film bir hadisəyə müxtəlif personajların fərqli baxışlarından bəhs edir. Bir qətl hadisəsini dörd şahid fərqli motivlərlə bir-birinə zidd şəkildə təsvir və təqdim edirlər.**

Hadisələrin subyektiv qavrayışı və interpretasiyası prinsipi, şahidlərin, iştirakçıların və ya cəlb olunanların situasiyanı məqsədli, qərəzli və əsassız təsvir etməsi və yaxud yozması həmin filmdən sonra Rasomon effekti adlanır. Rasomon və ya raşomon yaponca "şəhər qapısı" deməkdir. Qapı arxasında nə qədər subyektiv iddialar, sirr gizlətsə də, açıldıqda yalnız nə varsa onunla, yəni, obyektiv gerçəklə rastlaşırsan. Həqiqətin bir üzü olur, "Rasomon"da da bir gerçək var - samurayın bambuk meşəsində qətli...

Bizim "Laçın qapısı"nın arxasında da bir gerçək var - Azərbaycanın ərazi bütövlüyü və müstəqil dövlətin bütün ərazilərində suverenliyini bərpa etmək cəhdi. Digər iştirakçılar, şahidlər və cəlb olunanlar öz interpretasiyaları ilə, geosiyasi fırıldaq, dələduzluq və təxribatlarla suveren haqlarımıza qəsdə cəhd edirlər.

Son 30 ildə, dövlət müstəqilliyini bərpa edəndən Azərbaycanın bir başlıca hədəfi var -bütün ərazilərində suverenliyini bərqərar etmək. İkinci Qarabağ savaşı ilə Azərbaycan böyük miqyasda buna nail oldu. Amma köhnə paradiqma kökündən qazılıb bir kənara atılmadı. 2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatından sonra həmin paradiqma - ərazi bütövlüyümüzə fərqli yanaşma və interpretasiyalar yeni situasiyaya uyğun davam etdirilir.

Üçtərəfəfli anlaşmadan sonrakı postsavaş dövrünə həmin bəyanatı imzalayanlar və tərəf tutanlar öz "Rasomon qapısı"ndan baxırlar. Azərbaycan prosesə gec-tez ərazi bütövlüyünün tam bərpasına aparacaq bir dönəm kimi baxır, amma iki ildir umduğu sülh sazişinə nail ola bilmir.

Rusiya Ukrayna savaşına kimi 10 noyabr bəyanatını Cənubi Qafqazda iştirakını gücləndirəcək, gələcəkdə daha ambisayalı planlar qura biləcək sənəd kimi görürdü. Ukraynadan aldığı zərbələrdən sonra Kremlin planı baş-ayaq oldu - Ukraynada işğalçı, Qarabağda "sülhməramlı" olan Rusiyaya sonrakı taleyi qaranlıq olduğu üçün hələlik inersiya ilə situativ hərəkət edir.

Paşinyan vaxtaşırı sülh sazişi və "ərazi bütövlüyünün tanınması" ilə bağlı pozitiv siqnallar versə də, müharibədən sonra "yeni situasiyada Qarabağ siyasətini davam etdirmək niyyəti"ni gizlətməmişdi. Hazırda İrəvan Qarabağ ermənilərinin taleyinin həlli məsələsində Bakı və Moskva səviyyəsində subyekt kimi görünməsə də, hər halda separatçı rejim Ermənistan büdcəsindən maliyyələşir.

Dünya gücləri, eləcə də Rusiya beynəlxalq hüquqa uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını bildirirlər. Amma gündəmə Ermənistanın istəyinə uyğun olaraq "Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təminatı" məsələsini gətirirlər ki, bu da dolayısı ilə Azərbaycana qarşı ərazi iddiası deməkdir. Yəni, etnik ermənilərlə bağlı "tezis"lərində həm Qərb, həm də Rusiya kökündən səmimi deyillər, nə qədər suverenliyimizə hörmət etdiklərini dillərinə gətirsələr belə. Necə deyərlər, kor kor, gör gör, Moskvanın oyuna Vardanyan fiqurunu soxması, Qərbin buna loyal yanaşması ondan xəbər verir ki, fərqli konfrontasiya yaratmaq, Qarabağ ermənilərini Azərbaycana qarşı "tərəf" etmək istəyirlər.

Problem etnik ermənilərin tərəf olub-olmamaq istəməsində deyil, maraqlı qüvvələrin və erməni lobbistlərinin onları "tərəf oynu"na qoşmaq istəməsində və niyyətlərindədir. Qarabağın erməni sakinlərinin təhlükəsizliyi tezisini "arqumentləşdirmək" üçün istənilən təxribata, ekssesə əl atıla bilər. Bundan sonra diplomatik hay-küy başlayacaq, hər yerdən üstümüzə cumacaqlar ki, guya etnik ermənilər "soyqırım"a məruz qalır, bu, artıq Azərbaycanın həll edəcəyi məsələ deyil, "qlobal problemdir" və s. və i.a.

Azərbaycanlı ekoaktivistlərin və ictimai fəalların Xankəndi-Laçın yolundakı aksiyasının dünya mətbuatında Qarabağ ermənilərini "blokadaya almaq", "humanitar fəlakət" yaratmaq kimi qiymətləndirilməsini, Xankəndidəki "çörək növbəsi"ndən reportajları, xarici ölkələrin Azərbaycanı "yolu açmağa" çağırmasını, Papa Fransiskin məyus olmasını, İran mediasında "Qarabağ - İranın təhlükəsizlik məsələsidir" kimi sarsaq fikirlərin səslənməsini bədniyyət ssenarinin repitisiyası kimi də dəyərləndirmək olar.

Təbii ki, ermənilərin özlərini məzlum kimi təqdim etməsi, Rusiyanın Azərbaycanın "qəddar" imici üçün dəridən-qabıqdan çıxması fonunda beynəlxalq miqyasda Azərbaycanı qınanılması xoşa gələn deyil. Amma ağzımızla quş da tutsaq, maraqlarına mütənasib olmasa, Azərbayana münasibətdəki stereotipi sındıra bilməyəcəyik. Hər halda ABŞ Konqresi "Azadlığa Dəstək" aktına 907-ci düzəlişi Elçibəyin dönəmində qəbul etmiş və səbəbini də "Dağlıq Qarabağa qarşı zor gücdən istifadə" ilə izah etmişdi...

Digər tərəfdən, bilirlər və çağdaş süni peyklər dünyasında bilməmələri mümkün deyil ki, bizim fəallar yolu bağlamayıblar, bu işlə Rusiya "sülhməramlı" kontingenti (RSK) məşğul olur. RSK hər vəchlə etnik ermənilərlə təmaslara imkan vermək istəmir. Həmçinin bəlli oldu ki, Azərbaycanın Xankəndiyə gedən "Qazprom" qazını kəsməsi mümkün deyil, ventil RSK-nın əlinin altındadır.

Dünyanın xoşuna gəldi-gəlmədi, Azərbaycan uzanan danışıqlar prosesində təşəbbüsü ələ almağa, konkret olaraq Laçın dəhlizində bu gedişi , ekoloji və ya başqa formada, etməyə məcbur idi, qızıl yatağı olmazdı, Sərsəng su anbarı və ya başqa bir səbəb tapılardı:

o Birincisi, fəalların Xankəndi-Laçın yolundakı aksiyası mümkün neqativ ssenarilərə, təxribatlara qarşı preventiv gedişdir. Bu aksiya fonunda Azərbaycan Şuşa civarında Laçın yolunu hərtərəfli vizual-elektron kontrola götürüb. Digər tərəfdən situasiya Azərbaycan Xarici Kəşfiyyat Xidmətinin elit "Yarasa" Xüsusi Təyinatlı Dəstəsinin nəzarəti altındadır: həm aksiyaçıların keşiyi çəkilir, həm RSK müşahidə altındadır, həm də mümkün təxribatlara qarşı "biz burdayıq" mesajı verilir. Azərbaycan bir tərəfdən özünə qarşı mümkün təxribatlarla, digər tərəfdən etnik ermənilərin qurban edilə biləcəyi ekssesl ərlə bağlı önləyici addım atır.

o İkincisi və ən başlıcası, Zəfərin üçüncü ilində elə bir həqiqət anı yetişib ki, ərazi bütövlüyümüzün bərpası istiqamətində Laçın dəhlizinə o NBM-i (nəzarət-buraxılış məntəqəsini) mütləq pərçim etməliyik. İndi beynəlxalq hüququ böyrü üstə qoyanlar Azərbaycanın ekoloqların aksiyası ilə guya beynəlxalq sənədi, yəni Üçtərəfli bəyanatı pozduğunu və ya təftiş etdiyini iddia edirlər.

NBM isə yol kəsmək və ya bağlamaq deyil. Hamı bir ölkədən digərinə gömrük və sərhəd keçidləri ilə adlayır. Həmçinin burda üçtərəfli razılaşmanın Laçın dəhlizi ilə bağlı 6-cı bəndinə bir korrektə yoxdur: "... Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır...

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir". Burda RSK-nın dəhlizə və ya marşruta nəzarət və mühafizəsindən söhbət gedir. Deyilmir ki, NBM olar və ya olmaz.

Digər tərəfdən, RSK-nın yola adam kimi nəzarət etməməsi, 10 noyabr razılaşmasının digər bəndlərinin şərtlərinin yerinə yetirilməməsi Azərbaycanın həmin sənədi bütünlükdə təftiş və korrektəsinə zəmin yaradır...

Vaxt gedir, Ukrayna-Rusiya savaşının sonu aydın deyil. Bunu təxmin etmək olar ki, Ukrayna qalib gələcək, Rusiya işğal etdiyi ərazilərdən çıxacaq. Amma Qərb Rusiyanı sonadək sındırmaq istəyəcəkmi? Biz sanırıq ki, müharibəni Putin Rusiyası başladıb, amma Rusiya cəmiyyəti və elitası başdan-ayağa Homo-Putineslərdən ibarətdir. Rusiyanı "tərbiyə" etməsələr, yeni Nürnberqdən keçirməslər, SSRİ dağıldıqdan sonra olanlar yenidən təkrarlanacaq, Moskva qonşuları üçün bəla olmaqda davam edəcək. Güman ki, Ukraynadan çıxdıqdan sonra zəifləmiş Rusiya Cənubi Qafqazdan da çəkiləcək. Amma Qərbin zəifləmiş, əzilmiş Rusiyadan hansı keyfiyyətdə faydalanacağını bilmirik. Qərb güclərinin Cənubi Qafqazda sahəyə enişi asan deyil, hazırda fransızlar RSK bazasında Qarabağda beynəlxalq sülhməramlı kontingentin yaradılması perspektivini dilə gətirirlər. Fransa-Rusiya sülhməramlı miksinə amerikanların reaksiyası bəlli deyil, amma bu, ermənilərin köhnə arzusudur...

**Hərə öz ssenarisini yazıb Qarabağda "səhnələşdirmək" istəyir, bütün bu oyunların qarşısını almaq üçün Azərbaycan o Laçın qapısında o postu qoymağa məhkumdur ki, postsavaş tunelinin ucundakı işığı görə bilsin...**

# Mənim və dostumun xoşbəxtlik haqqı



Ceyhun Ağabəy
Azərbaycan Yazıçılar Birliyinin üzvü

**"Adamı başdan tanı, ağacı yaşdan". "Hər insan bir ulduzu, bəşəriyyət kəhkəşanı xatırladır". "İnsan yaşadıqca xatirəsi anlarla dolur". Bu deyimlər ubsab yaşadığı sürəcə həmişə keçərli və heç bir yeniliyə məğlub olmayan sözlərdir.**

"Xoşbəxtlik həyatda öz yerini bilmək və bu yerin haqqını verə bilməkdir" deyiblər .

Yaşadığımız cəmiyyətdə bəzən qiymətləndirilməli və təbliğ olunmalı məqamlara diqqət yetirmirik. Ətrafımızda baş verən yenilikləri və insan cəmiyyəti üçün müsbət məqamlara xidmət edən prosesləri təbliğ etmək əslində ali bir vəzifəmiz, borcumuz sayılmalıdır.

Rusiyadan gələn Babayev Romik Cumart oğlu adlı bir həmvətənimiz var. O uzun illərdir ki, qonşu ölkədə yaşayır və orda Rusiya Federasiyasının Daxili işlər Nazirliyində məsul rəhbər vəzifələrdə çalışıb, hal hazırda da qonşu Rusiya Federasiyasında diaspora sədri kimi xoşməramlı i işlərini davam etdirməkdədir. O rayonumza gələndə yaxın dostlar onun ətrafına yığışır və fikir mübadiləsi aparırıq. Böyük insanı duyuma, dünyagörüşə, savada malik olan dostumuzun üzündəki sevinc hər kəs tərəfindən sezilir. Bu onun sözündə gözündə danışığında açıq bir şəkildə hiss olunur. Təbiət vurğunu olmaqla yanaşı rayonumuzda gedən inkişaf və quruculuq işləri dostumuzun sevinc hisslərinin ən pik nöqtəsi və ən qaynar yeri kimi sezilir. Söhbətimizin məramından aslı olmayaraq həmvətənimiz "Siz xoşbəxtsiniz" deyərək füsünkar təbiəti ilə hamını məftun edən rayonumuzda gedən inkişafı bizə sanki başqa bir formada çatdırmağa çalışır. "Başçı Şair Alxasov var olsun ki, rayonumuzda belə işləri layiqincə görür. O, məsuliyyətli və xoşbəxt insandır . Ona görə xoşbəxtdir ki, belə işləri görür və layiqincə idarəçiliyi bacarır. Siz də buna görə xoşbəxtsiniz. Əslində bu gözəlliklərin yaradılması tarixi hadisələrdir. Bunu hər yerdə təbliğ etmək lazımdır. Mənə başqa məlumatlar çatırdı rayonumuz və başçı haqqında. Amma gəldim və gözlərimlə gördüm ki, tam əksidir. Hər şey müsbət tərəfə inkişaf etməkdədir. Çox xoşbəxt oldum. Demək olar ki, rayonumuzun hər yerini qarış-qarış gəzdim" deyir dostumuz. Təmənnasız, heç kəsdən nəsə ummayan və istəməyən, bir sözlə ehtiyacı olmayan həmvətənimizin bu və bu kimi fikirləri, ifadə tərzi məni də düşünməyə və bu məqaləni yazmağa sövq etdi. Onunla söhbət zamanı həmişə xatırladığım bir şeir var:

*"Bir fürsətdir ömür gün*
*Getdisə daha gəlməz*
*Heç bir şeyin qiyməti*
*İnsandan baha gəlməz*

*Min min sual bitirsən,*
*Min min cavab yetirsən,*
*Nəyi izah edirsən,*
*İnsan izaha gəlməz"*

Ona görə deyirlər ki, bəzən bir adamın adı çəkiləndə bir elin, bir obanın, bir əyalətin adı çəkilmiş olur. Qusar rayonunun İcra Hakimiyyəti Başçısı Şair Alxasov da belə insanlardandır. O, Qusar rayonuna 18.12.2007 ci ildən İcra Başçısı vəzifəsinə təyin olunmuşdur. Bir müəllim, şair-publisist olaraq mən də rayon başçısının yerlərdə keçirdiyi görüşlərin bəzilərində iştirak etmişəm. Yadımda qalan qürur və sevincverici məqamlar çoxdur. Onlardan biri Şair Alxasovun gənclərə böyük diqqət və qayğı ilə yanaşmasıdır. Yeni başçı təyin olunduqdan sonra mütəmadi görüşlər keçirən başçı deyir: "Kimsə deməsin ki, mənim "dayım" yoxdur. Baxın mən sizin "dayınızam" və arxanızda dururam. Bütün müsbət yönlü və inkişafa xidmət edən fikirləri dəstəlkləyirəm. Və sizdən təkliflər gözləyirəm". Bu və bu kimi sözləri mən dəfəllərlə görüş və tədbirlərdə eşitmişəm. Sözün həqiqi mənasında bu sözlər dövlətimizin uğurlu siyasətinin yerlərdə təbliğ olunması və reallaşdırılmasına xidmət etməklə yamaşı gənc nəslə yüksək motivasiya verilərək irəli çəkilməsi idi. Respublikamızın hər yerində abadlaşma işləri gedir və getməkdədir. Füsünkar təbiəti ilıə hamını məftun edən Qusar rayonuna Şair Alxasovun başçı təyin ediləndən sonra inzibati binlar, digər sahərlədə qurulmuş infrastrukturlar barədə bəzi statistik məqamları qeyd etmək istərdim.

Dəniz səviyyəsindən 684 metr hündür ərazidə "Dövlət Bayrağı" kompleksi inşa edilmişdir.

Yeni Azərbaycan Partiyası üçün müasir üslübda iki mərtəbəli İnzibati bina, şəhərin mərkəzində "Qanlı dərə döyüşlərdə qələbə çalmış Qusar və Quba qəhrəmanlarının şərəfinə" abidə ucaldılmışdır

Cibir-Həzrə-Mucuq-Sudur, 23 km-lik Samur-Həzrə, 22 km-lik Həzrə-Zuxul Avaran-Xürel, 4,5 km-lik Qusar-Qayakənd 39 km-lik Qusar-Əniq-Ləzə avtomobil yolları əsaslı təmir edilmişdir.

Rayon Polis şöbəsi üçün yeni inzibati bina tikilərək istifadəyə verilmişdir

Azərbaycan Respublikası Hökuməti və Yaponiya Əməkdaşlıq Agentliyi tərəfindən birgə maliyyələşən "Kiçik şəhərlərində su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində Qusar şəhərinin içməli su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulmuşdur

4 mərtəbəli Mərkəzi Rayon Xəstəxana Kompleksinin tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir

Nizami adına kinoteatr binası tamilə yenidən qurularaq "Şahmat mərkəzi" kimi fəaliyyətə başlamışdır.

Qusar şəhərində Heydər Əliyev adına Xatirə Kompleksinin tikintisi 2012-ci ilin I-ci rübündə başa çatdırılaraq istifadəyə verilmişdir. Kompleksdə ümummilli liderin əzamətli abidəsi ucaldılmış, Heydər Əliyev muzeyi tikilmiş, ətrafı abadlaşdırılmışdır. Kompleks möhtərəm Prezidentin iştrakı ilə fevral ayının 16-sında istifadəyə verilmişdir

Rayon Statistika İdarəsinin və DSMF-nun rayon şöbəsi üçün inşa olunan yeni inzibati binaların tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir.

"Şahdağ" Qış-Yay Turizm kompleksinin I-ci mərhələsi 20 dekabr 2012-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən açılışı etmişdir.

Əvvəllər "Müəllimlər evi" -nin yerləşdiyi binada və ətraf ərazidə təmir-yenidənqurma işləri aparılımaqla Rəsm qalereyası təşkil edilmişdir.

46 yeni məktəb binası tikilib, 11 məktəb əsaslı təmir olunub.

- "Gənclər park"-nda atraksionlar quraşdırılaraq uşaq əyləncə mərkəzi yaradılmışdır.

-Rayon Prokurorluğu üçün inşa olunan 2 mərtəbəli yeni inzibati bina istifadəyə verilmişdir.

Rayon Kənd Təsərrüfatı İdarəsinin inzibati bina istifadəyə verilmişdir.

Qusar-İmamqulukənd-Quxuroba yolunun yenidən qurulması

Əvvəlki mərkəzi rayon xəstəxanasının yerində Azərbaycan Respublikası Səhiyyə İşçilərinin Həmkarlar İttifaqının sifarişi ilə inşa olunan "Səhiyyə işçiləri üçün istrahət mərkəzi"istifadəyə verilmişdir.

Azərbayca-Rusiya Dövlət sərhəddidə Samur çayı üzərində yen 325,3 p/m-lik körpünün tikintisinə başlanılmışdır.

2007-ci ildə 2022ci ilə kimi rayonun 32 yaşayış məntəqəsi qazlaşdırılmışdır.

Bütün kəndlərdə EATS quraşdırılaraq qlobal internet şəbəkəsinə çıxışla təmin edilmişdir.

Şəhər ərazisində 50 km dən çox şəhər daxili küçələr asfaltlaşdırılmış, bütün çoxmənzilli yaşayış binaları əsaslı təmir edilmişdir.

Rayonumuzun spesefik xüsusiyyətlərindən biri də şəhərdaxili təmizliyə ciddi riayət olunmasıdır. Rayonumuza təşrif buyuran qonaqların marağını çəkən məqamlardan biri də budur. RİHB -sının bu işə yanaşması məhz bu prosesin hər kəs üçün önəmli olmasına gətirib çıxardı. "Əzizim əziz, təmizliyi ondan əziz" deyiblər. Mən həm də turizim sahəsində çalışıram. Xarici və yerli qonaqların demək olar ki, hər dəfə rayonumuza gələndə rayonumuzun təmizliyi barədə söz açması qürurunu və sevincini yaşayıram.

Dostumuz Romik Babayevin dediyi məhz bunlardır.

Dəyərli yazıçılarımızdan Vüsaləddin Rüstəmov yazır ki, "Biz necə əmin və güvənli ətrafa şahid ola bilərik? Bunun üçün ilk öncə özü ətraf üçün əmin və güvənli birisi olmalıdır. Sonra ətrafdan gözləyə bilər. Demək ki, dəyişməmizin ilk göstəricilərindən biri ətrafımızın nə qədər dəyişməsidir.

Bu "mən" anlayışından "biz" anlayışına köç etməkdir. Əslində hər tərəf Allahın nizamı olaraq əminiyyət və barış içərisindədir..." İçində Allah sevgisi, vətən sevgisi, yurd sevgisi olan adamlar bu xüsusiyyətlərə görə xoşbəxt adamlardır.

Ətrafında yaşayanlar da buna görə xoşbəxt olurlar. Məhz Şair Alxasov bu insanlardandır. Beləliklə, bizim xoşbəxtliyimizin davamlı olması üçün, yaşadığımız sevincimizi və qürurumuzu, yaxşı nümunəvi işlərimizi təbliğ etmək, demək, yazmaq durur. İçində Allah, vətən, yurd, insan sevgisi yaşadan dəyərli dostum Romik Cumartoğlunun da, mənim də, insanımızın da xoşbəxt olmaq haqqıdır bu. Bu haqqı bizə yaşadan Şair müəllim Alxasova buna görə dəyərli və əziz dostumuz Romik adından, öz adımdan bu məsuliyyətli işlərin xoşbəxt nətisəini duyan və dəyərləndirən digər dostlarımız adından təşşəkür edir və minnətdarlığımızı bildiririk. Belə insanlarımıza, məmurlarımıza can sağlığı uzun ömür və müqəddəs amallara xidmət edən işlərində uğurlar arzulayırıq. Dostumuz Romik Babayev demişkən:

**"Yaxşı işləri təbliğ etməliyik ki, bu örnək olaraq hər yerdə yayılsın. Belə İnsanlarımız hər yerdə tanınsın. Cəmiyyətimiz neqativləri yox, uğurlu işləri görərək, oxuyaraq sevinsin və dəstək olsun. İnanın ki, bu nəticədə davamlı inkişafa aparacaq və xoşbəxt edəcək bizləri".**

**Qusar şəhəri**

# Fırıldaqçılıqda günahlandırılan kriptovalyutaçı 100 ildən çox həbs cəzası ala bilər

**Müflis olmuş kriptovalyuta birjası FTX-nin qurucusu və keçmiş baş direktoru Sem Benkman-Frid ABŞ-a ekstradisiya olunduqdan sonra hakim qarşısına çıxarılıb.**



O, məhkəmə iclasından sonra 250 milyon dollar girov müqabilində sərbəst buraxılıb. Qərara görə, Benkman-Frid Kaliforniyanın Palo-Alto şəhərindəki valideynlərinin evində yaşamalıdır və daim nəzarətdə saxlanılacaq.

Növbəti məhkəmə iclası 2023-cü il yanvarın 3-də Nyu-Yorkda keçiriləcək.

Benkman-Frid fırıldaqçılıq, kriptovalyutaların qiymət manipulyasiyası və çirkli pulların yuyulmasında ittiham olunur. Bu cinayətlərə görə maksimum cəza 115 il həbsdir.

Qeyd edək ki, Benkman-Frid Baham adalarında saxlanılaraq ABŞ-a ekstradisiya olunub.

# Azərbaycanın əmək bazarında ən aktual peşələr məlum olub

**Azərbaycanın əmək bazarında ən aktual peşələr açıqlanıb.**

Bu barədə Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli 2022-ci ilin yekunlarına dair mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, əmək bazarının təhlili həyata keçirilir:

**"Yeni peşələr Azərbaycanın əmək bazarına daxil olan mühəndisliklə, informasiya texnologiyaları ilə bağlı olan peşələrdir. Hazırda 175 aktual peşənin içərisində ən böyüyünü İKT, kənd təsərrüfatı, turizm peşələri təşkil edir".**

# Dərman idxalının ləngiməməsi üçün şirkətlərə müraciət edilib

**Dərman vasitələri haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ölkəmizə dərman vasitələrinin idxalını əsasən istehsal və topdansatış əczaçılıq fəaliyyəti ilə məşğul olan müəssisələr həyata keçirirlər.**

Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzindən verilən məlumata görə,dərman vasitələrinin idxalı zamanı həyata keçirilən ekspertizanın xüsusiyyətləri Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 502 nömrəli qərarı ilə təsdiq edilmiş dərman vasitələrinin ekspertizasının aparılması qaydası ilə tənzimlənir.



Qeyd edilib ki, son zamanlar ölkənin dərman təminatı ilə bağlı məsələlər müzakirə edilərkən idxal prosesi zamanı yaranan problemlərdən danışılır. Hətta Analitik Ekspertiza Mərkəzi idxal prosesinin ləngidilməsində ittiham edilir.

"İdxal zamanı ekspertizanın aparılması üçün idxalçı quruma sənədlər daxil edilməlidir. Bu sənədlər - idxalçıya verilmiş istehsal və ya topdansatış lisenziyasının surəti, vergi ödəyicisinin umota alınmasını təsdiq edən şəhadətnamənin surəti, alqı-satqı müqaviləsi, əgər müqavilə Azərbaycan, rus, ingilis dilində olmadıqda Azərbaycan dilinə tərcüməsi, hesab fakturanın surəti, hesab fakturada dərman vasitələrinin seriyası göstərilmədikdə qablaşdırma vərəqəsinin surəti, istehsalçının dərman vasitələrinin hər birin seriyasına dair verdiyi keyfiyyət sertifikatının surəti, mənşə sertifikatının surətidir. Təqdim olunan sənədlərdə uyğunsuzluq aşkar olunmadıqda dərman vasitələrindən 1 iş gün müddətində nümunələr ötürülərək quruma təqdim olunur. Təqdim olunan nümunələrin dövlət qeydiyyatı, qablaşdırılması, istifadə üzrə təlimatı yoxlanılır. Əgər nümunələrdə problem aşkar olunmasa, bu nümunələr analiz olunmaq üçün laboratoriyaya göndərilir. Uyğunluq sertifikatı verildikdən sonra dərman vasitələrinin idxalına dair məktub hazırlanır.

Dərman vasitələrinin ekspertizasının aparılması 20 təqvim günündən çox olmayan müddətdə həyata keçirilir", - deyə bildirilib.

# Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

№ 49 (2323) 24 dekabr 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# Türk dünyası geniş coğrafiyanı əhatə edən böyük bir ailədir

**Dünyada gələcəyə yönəlmiş böyük işlər aparılır. Bu gün Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin bu istiqamətdə apardığı işlər qənaətbəxş hesab oluna bilər. Hazırda türk dövlətləri ilə bağlı dünyada yayılan yalanların, böhtanların qarşısının alınması, ölkəmiz haqqında formalaşan fikirlərin dəyişməsi cox mühüm məsələlərdən biridir. Buna görə də türk dünyası diaspor təşkilatlarının tez-tez görüşməsi və müştərək addımlar atması vacib məsələlərdən biridir. Bu mənada 20 -21 dekabr tarixində Bakı və Şuşada keçirilmiş " Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı/Şuşa Forumu" ölkə ictimayəti tərəfindən rəğbətlə qarşılanıb.**

Respublikamızın paytaxtında başlayan Beynəlxalq Forum ölkəmizin mədəniyyət paytaxtı Şuşada davam edib. Öncə "Gəncə" qapılarını və "Güllələnmiş heykəllər"i ziyarət edən qonaqlara şəhərda aparılan yenidənqurma və bərpa işləri barədə geniş məlumat verilib.

Şuşadakı forum üzv dövlətlərin öz ərazilərində yaşayan və fəaliyyət göstərən iştirakçı dövlətlərin diasporlarının fəaliyyətinin qarşılıqlı tənzimlənməsi və koordinasiya məsələlərinin müzakirəsindən başlayıb.

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyevin moderatorluğu ilə keçirilən forumun ikinci günündə Azərbaycan Prezidentinin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimov tədbir iştirakçılarına Şuşada aparılan abadlıq və bərpa-quruculuq işləri, eləcə də gələcək planlar barədə məlumat verib.

Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov 200 milyonluq türk dünyasının bir araya gəlməsində diasporun mühüm rolunun olduğunu bildirib, komitənin fəaliyyəti və həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verib.




Forum iştirakçısı olan Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan və Şimali Kipr Türk Cümhuriyyətinin nümayəndələri diasporlar arasında ardıcıl və sistemli əməkdaşlığın qurulmasının vacibliyini vurğulayıblar.

Daha sonra 2023-cü ildə Türk Dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilməsi təklif olunan tədbirlər ətrafında fikir mübadiləsi aparılıb, "Türk diasporu həftəsi"nin keçirilməsi təklif olunub.

Tədbir "Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı/Şuşa Forumu"nun iştirakçı qurumlarının birgə bəyanatının qəbul olunması ilə yekunlaşıb.

"Biz - 20-21 dekabr, 2022-ci il tarixində Bakı və Şuşa şəhərlərində keçirilmiş "Diaspor Məsələlərinə məsul Dövlət Qurumları Rəhbərlərinin Beynəlxalq Bakı/Şuşa Forumu"nun iştirakçıları "Şuşa ili"ndə dünya ictimaiyyətini Azərbaycanın mədəniyyət paytaxtında salamlamaqdan qürur duyuruq!

Forumda iştirak edən dövlətlər öz diasporlarının sıx birləşməsinə hər zaman töhfə veriblər. Türk Dövlətləri Təşkilatı çərçivəsində qəbul edilmiş Türk Diasporunun Birgə Fəaliyyət Strategiyasına uyğun olaraq keçirilən ikitərəfli, o cümlədən çoxtərəfli görüşlər, müxtəlif proqram və forumlar əlaqələrimizin daha da genişlənməsinə xidmət edib. Bu illər ərzində ümumi maraqların qorunması məqsədilə diaspor sahəsində imkanlar birləşdirilib, ümumi maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə birlik və həmrəylik nümayiş etdirilib.

Xüsusilə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin diasporlarının yaxınlaşması və əməkdaşlığı istiqamətində bir sıra mühüm addımlar atılıb: bütün türk diasporları üçün birgə fəaliyyət strategiyasının müəyyənləşdirilməsi ilə yanaşı, əksər üzv dövlətlərin diaspor işlərinə cavabdeh qurumları arasında memorandumlar imzalanıb, qurum rəhbərlərinin qarşılıqlı səfərləri və görüşləri keçirilib, Bakıda və Bursada üzv dövlətlərin diaspor qurumları arasında təcrübə mübadiləsi proqramları, Berlin və Nyu-Yorkda türk diasporları üçün potensialın gücləndirilməsi proqramları həyata keçirilib.

Dünyanın müxtəlif ölkələrindən diaspor təşkilatları, iş adamları, elm adamları və digərlərinin də iştirakı ilə Bakıda və Bursada Türk Diaspor Forumları keçirilib və illik birgə fəaliyyət planları ilə türk diasporlarına istiqamət vermək təcrübəsinin əsası qoyulub. Bu zəmində 44 günlük müharibə zamanı türk dünyası tərəfindən göstərilən informasiya dəstəyi Azərbaycan həqiqətlərinin dünyada təbliği, Azərbaycana qarşı yönəlmiş təxribatların qarşısının alınmasında böyük rol oynayıb. Azərbaycanın 44 günlük müharibə Zəfərindən sonra 2021-ci ilin iyun ayında Azərbaycanla Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi türk diasporlarının Birgə Fəaliyyət Strategiyası üçün yeni üfüqlər açıb. Diasporlarımızın gələcək fəaliyyəti ilə bağlı mühüm əhəmiyyət kəsb edən proqram xarakterli sənəddə Türk Dövlətləri Təşkilatına üzv olan digər dövlətlərin də vahid diaspor hərəkatına qoşulması, əməkdaşlığın, həmrəyliyin inkişaf etdirilməsi ciddi vəzifələrdən biri kimi ortaya qoyulub. Türk dövlətlərinin ortaq diaspor siyasətinin inkişafı ilə bağlı həssaslığı



Türk Dövlətləri Təşkilatının müvafiq olaraq 2021 və 2022-ci illərdə İstanbul və Səmərqənd Zirvə Görüşlərində qəbul edilmiş "Türk Dünyasına Baxış-2040" və "Strategiya 2022-2026" sənədlərində də öz əksini tapmışdır.

Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşünün Səmərqənd Bəyannaməsi və burada qəbul edilmiş digər sənədlər qarşıya qoyulan mühüm məqsədlərə nail olmaq, xüsusilə dünyada yaşayan türklərin milli hüquqlarının müdafiəsi istiqamətində vahid diaspor hərəkatı çərçivəsində fəaliyyətimizi daha da sıx birləşdirmək üçün əlverişli şərait yaradır.

Türk dövlətləri rəhbərlərinin də vurğuladığı kimi, Zirvə Görüşü bütün türk dünyasını narahat edən problemlərin həlli yollarının müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, yaşadıqları ölkədən asılı olmayaraq, Türk Dünyası ölkələrində yaşayan gənclərin məktəblərdə ana dilində təhsil almalarının zəruriliyi ilə ifadə olunan problemi Türk Dövlətləri Təşkilatının daim gündəmində olmalıdır. Təəssüf ki, bir çox türkdilli dövlətlərin hüdudlarından kənarda yaşayan türkdilli xalqlar bu imkanlardan məhrum ediliblər.

**Bəyan edirik ki, 200 milyonluq Türk Dünyası geniş bir coğrafiyanı əhatə edən böyük bir ailədir. Biz bu ailənin üzvləri olaraq türk dünyasının birliyi məqsədinə sadiq qalacaq, milli maraqlarımız naminə bir-birimizə dəstək olmağa, həmrəyliyimizi gücləndirməyə və əməkdaşlığımızı genişləndirməyə davam edəcəyik!"**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

---

**Fazil SƏNAN - 70**

# CIDIR DÜZÜNÜN ÇİÇƏKLƏRİ VƏ ŞUŞA TORPAĞININ MÜQƏDDƏSLİYİNİ ƏKS ETDİRƏN ROMAN HAQQINDA MÜLAHİZƏLƏRİM



***İmam Cəmilli***

**Bir çox hekayə, povest və publisist yazıların müəl-lifi olan Fazil Sənan bu səfər oxucularının görüşünə "Bağışlanmış günah" (Bakı, Ecoprint, 2022) adlı irihəcmli romanı ilə gəlmişdir.**

Romanın ilk səhifələrində dənizdən çıxarılan iki nəfərin meyitinin şəxsiyyətinin müəyyən olunması, ölümün səbəbinin maraq oyatması və hadisəni öyrənmək istəyi oxucunu öz arxasınca aparmağa məcbur edir.

Son əlli ilə yaxın dövrdə baş verən ictimai-siyasi hadisələrin iştirakçısı olan Xəyal ilə Pərvinin obrazında yazıçı hadisələri məharətlə ümumiləsdirə bilmisdir.

Tələbə olan Xəyalla Pərvin müstəqillik uğrunda gedən mübarizədə təsadüfən tanış olurlar.

Hər iki gənc tələbə olmalarına baxmayaraq doğma vətənlərinin müstə-qil olması üçün əllərindən gələni etməyə çalışırlar. Mitinqdə Pərvinin alovlu çıxışından sonra arada yaranan tanışlıq əqidə dostları olan Xəyalla Pərvin arasında tədricən ülvi bir məhəbbətə çevrilir. Bu gənclər üçün isə vətən sevgisi daha önəmlidir. Hadisələrin dinamik inkişafı zamanı yazıçı oxucunu inandırmağı bacarır ki, bugünkü müstəqil Azərbaycan və otuz ilə yaxın işğal altında olan torpaqlar Xəyal və Pərvin kimi içində vətən sevgisi olan övladların, xüsusən gənclərin qanı və canı bahasına qazanılıbdır.

Pərvinin yerlisi, həm də otaq yoldaşı olan Xədicə ilk baxışdan Xəyala vurulur. Yazıçı Xədicəni əsərə gətirməklə onun vasitəsi ilə Xəyal və Pərvinin üç üzünü və həyata baxışını oxucu gözündə vərəqləməyə başlayır. Pərvinlə Xədicə arasında gedən dialoq zamanı Xədicənin "Xəyalla harada tanış olmusunuz?" sualını Pərvinin cavablandırması otaq yoldaşına inandırıcı görünmür və Xədicənin:

- "Daha mən də mitinqlərdə iştirak edəcəm", fik-rinə qarşı Pərvinin söylədiyi cavab, onun vətən sevgisinin təsdiqi kimi səslənir:

- "Daha yaxşı. Bu vətən bizimdir. Onun müstəqil olması üçün lazım gəlsə canımızdan da keçməliyik. Bəs-dir əsarətdə yaşadığımız. Bir şeyi bil ki, azadlıq xosluqla verilmir, zorla, lazım gəlsə qan tökməklə alınır. Mənim sevgi nəğməsi oxumağa vaxtım yoxdur. Mən müstəqillik nəğməsi oxuyuram. Müstəqillik nəğməsi oxuyan hər bir adam mənim dostumdur. O cümlədən Xəyal da".

Xədicə növbəti mitinq zamanı Xəyalla Pərvinə qoşulub mitinqə gedir. İnsan kütləsini görən Xədicə ilk baxışda şaşırır və təəssüblə "Bu adamların hamısı mitinqə gəliblər?" sualına Pərvin kinayə ilə "Yox, sevgi nəğməsi oxumağa gəliblər" deməsi ilə dostunun onlara qoşulmaq məqsədinə toxunur.

Getdikcə hadisələr inkişaf edir. Xədicə hislərini cilovlaya bilmir. Lakin Xəyalın biganəliyi onu daha da alovlandırır. Axırda naəlac qalıb öz hisləri barədə Pərvinə danışmalı olur. İçərisində qısqanclıq hissi baş qaldırsa da Xəyala inanır və otaq yoldaşına bu haqda heç nə demir. Pərvin başa düşür ki, Xədicə ondan qabağa düşüb Xəyala olan sevgisini etiraf etdi və onun ümidini qırmağa özünü haqlı bilmir.

Bir-iki dəfə Pərvinə qoşulub mitinqə gedən Xədi-cənin məqsədi Xəyalın diqqətini özünə yönəltmək olsa da, buna nail ola bilmədiyini görən Xədicə "Yox, siyasət mənlik deyil" deyərək kənara çəkilir.

Xəyal Pərvini 20 Yanvar gecəsi özü ilə aparmaq istəməsə də qız təkidlə onunla gedir. Pərvin yaralanır və xəstəxanaya düşür. Xədicə Xəyalla Pərvinin yanına gəlib qayıdanda tək qalmaqdan qorxan Xədicə onunla qalmasını Xəyaldan xahiş edir.

Vəziyyətin çıxılmaz olduğunu başa düşən Xəyal razılaşmalı olur. Gördüyü hadisələrdən psixoloji gərginlik keçirən Xədicə gecəni Xəyalla bir çarpayıda keçirməli olur. Səhər ayılıb özünə gələn Xədicə "Halaldır sənə. Sən nə qədər gözəl insansan. Kim inanar ki, cavan bir qız cavan bir oğlanın qolları arasında səhərə kimi yatsın, am-ma oğlan qıza kəm baxmasın.

Demək dünyada belə gözəl insanlar da var imiş. Səni daha çox sevdim, Xəyal. Səni heç kimə verməərəm. Mənimkisən və mənim də olmalısan. Onu bilmirəm ürəyində mənə qarşı az da olsa sevgi varmı?" düşüncələrini qəlbindən keçirərkən Xəyalın mənəvi aləminin təmiz olduğunu oxucu gözündə ucaldır. Xəyalı yuxudan oyadan Xədicə ürəyindən keçən hisləri "Mən səni sevirəm" sözləri ilə ifadə edir.

Xədicənin Xəyala qarşı olan hislərini cilovlaya bilməməsi bəzən Pərvində rəfiqəsinə qarşı qısqanclıq hissi oyatsa da, Pərvin özünü o yerə qoymur və Xəyala inanır. Bu inam Pərvinin ağıllı hərəkət etməsinə səbəb olur.

Hər üç gənc təhsili başa vurur. Xəyalın təyinatı şəhərdə zavodların birinə, Pərvininki isə öz rayonlarına verilir. Xədicə isə ali məktəbdə saxlanılır. Xədicə təhsi-lini davam etdirmək arzusunda olmasa da Xəyalla Pərvin onun elm arxasınca getməsini məsləhət görürlər. Xəyala olan məhəbbəti Xədicəni elmi axtarışlara daha da həvəsləndirir.

Hadisələr tədricən şaxələnməyə başlayır Belə ki, kimsəsiz, tənha yaşayan Nadya arvadın əlavə surət kimi çıxış etməsi və Xəyala olan münasibəti yadda qalan ana obrazı təsiri bağışlayır.



Nadya arvad ömrünün ixtiyar çağında Xəyalın ona oğul kimi qayğı göstərməsi hər iki surəti oxucu gözündə ucaldır.

Pərvin Xədicənin duyğularına hörmətlə yanaşır və rəfiqəsinin ümidini qırmır. Əksinə, hər şeyi bildiyi halda Xədicəyə heç nə demir. Ehtiyat edir ki, onunla Xəyal arasında olan münasibəti Xədicə bilsə, bəlkə də intihar edər. Pərvin nə qədər ağıllı, təmkinli, hislərini cilovlamağı bacardığı halda Xədicə isə tamam onun əksidir. Hislərinə hakim ola bilməyən Xədicə çılğındır, ürəyi təmizdir. Hər şeyi çəkinmədən Pərvinə söyləyir.

Avtovağzaldan Pərvini yola salan Xədicə ilə Xəyal görüşüb ayrılanda Pərvinin "İcazə verirsən Xəyalla da görüşüm?" deyərək üzünü Xədicəyə tutub ondan icazə istəməsi rəfiqəsinə qarşı nəzakətli davranışının təsdiqidir.

Bir çox rayon və kəndlərin işğal olunması vəziy-yəti daha da gərginləşdirir. Şuşa təhlükə qarşısındadır. Xəyalın təkidinə baxmayaraq atası doğma yurd-yuva-sından çıxmaq istəmir.

Xəyalı qorxudan anasının və bacısının əsir götürülməsi məsələsidi. Məcburiyyət qarşısında qalan Xəyal maşın tutub Şuşaya gedir və ailəsini köçürdüb şəhərə gətirir. Bacısı ali məktəbə qəbul olur, atasını isə işlədiyi zavodda gözətçi vəzifəsinə düzəldir. Artıq rahat nəfəs alan Xəyal könüllü olaraq cəbhəyə getməyə yazılır. Məsələni bilən ata-anası və bacısı etiraz etsə də Xəyal razılaşmır.

Pərvinə zəng edən Xəyal cəbhəyə gedəcəyi xə-bərini söyləyir. Müharibənin faciələrini başa düşən Pərvin Xəyalın fikrini dəstəkləyir. Xəyal cəbhəyə yollanandan sonra özlüyündə çox götür-qoy edən Pərvin də aradan bir xeyli keçmiş o da həkim kimi cəbhəyə getmək üçün hərbi komissarlığa müraciət edir. Məsələni bilən atası Hafiz daş atıb başını tutur.

Gələn elçilərə "Yox mən ərə getmirəm" deyib, qı-zının cəbhəyə getməsi, ata kimi Hafizi narahat edir. Lakin Pərvin cəbhədə düşmənin törətdikləri ağlasığmaz faciələri, xüsusən Xocalı soyqırımı məsələsini səbrlə xatırladan Pərvinin cavabında atasının "Başa düşürəm, cəbhəyə həkim daha çox lazımdı. Hökumət özü çağırsaydı bu başqa məsələ, könüllü getmək, özü də qız uşağı, bu bir az yaxşı çıxmır. Gör sənin kimi bu ölkədə nə qədər oğlan, qız var. Eşidən, bilən nə deyəcək? Bax, mən onu bilmirəm. Sənin haqqında mənim fikrim basqa idi. İndi nə deyim? Uşaq deyilsən ha, özün bilərsən" sözlərini söyləməsi razılıq demək idi. Atasının razılığını eşidən Pərvin söz verir atasına ki, müharibə qurtarsın mənim haqqımda düşündüklərini ürəyin necə istəyir elə də həyata keçirəcəyəm. Pərvinin atasına verdiyi söz sonda onun ailə dramatizminə səbəb olur.

Pərvin Füzuli hospitalında həkim kimi, Xəyal isə Ağdamda döyüşçü kimi cəbhədə iştirak etsələr də bir-birindən xəbər tuta bilmirlər. Pərvin imkan olanda Xədicə ilə telefon əlaqəsi saxlasa da Xəyal haqqında bir məlumat əldə edə bilmir və getdikcə narahatçılığı daha da artmağa başlayır. Təsadüfən televizorda yaxşı döyüşçü kimi Xəyalın göstərilməsi Pərvinin öləzimək üzrə olan ümidlərinə sevinc bəxş edir.

Müəllif Xəyalın cəbhədəki fəaliyyətini təsvir edə-rək Baqqal adı ilə "Azərbaycan" döyüşçüsü kimi təqdim olunan Edik Osepyanın düşmən kimi Azərbaycan ordusundakı pozuculuq fəaliyyətini oxucu diqqətinə çəkməsi təqdirəlayiqdir. Şəhər və kəndlərin bir-birinin ardınca işğal olunması düşmən qüvvələrinin bu cür fəaliyyətinin nəticəsidi. Baqqal (Edik) uzun müddətdi Azərbaycanda yaşayır və Azərbaycan dilini çox gözəl bi-lir. Məharətlə ordu sıralarına soxulan bu Baqqal Azər-baycan torpağı uğrunda "döyüşür". Lakin Xəyalın ağıllı hərəkəti və cəsurluğu nəticəsində iki qardaş olan Ediklə Vladik ifşa olunaraq əsir götürülür.

Xəyala məzuniyyət verilir. Novruz bayramında Xəyalın gəlişindən sevinən ailənin sevinci yerə-göyə sığmır.

Xədicənin görüşünə gedir Xəyal. Xədicə Xəyalı fəxrlə onu sevən aspirant yoldaşı Kərəmə göstərərək deyir: "Bax, sevdiyim oğlan budu. Cəbhədən gəlib".

Xədicənin elmi uğurları ilə tanış olan Xəyal onun gələcəkdə böyük alim olacağına inamını daha da artırır. Söhbət əsnasında Xədicənin müharibənin qurtarmasını səbirsizliklə gözlədiyini, Xəyala qovuşacağı ümidli sözlərinə Xəyal yenə qeyri-müəyyən cavab verir. Görü-şüb ayrılanda "Pərvinlə görüş. O da səndən ötəri çox narahatdır" deməsi Xədicənin mənəviyyatca saf bir insan olduğundan xəbər verir.

Xədicə oxucu qınağından uzaqdı. Onun da sev-mək haqqı var. Özü də sevgisinə sadiq və sevgisi yolunda hər cür fədakarlığa hazır olan bir qızdır. Xədicənin Pərvinlə Xəyal arasında olan münasibətdən xəbəri yoxdu.

Xəyal Pərvinin görüşünə getmək üçün bir qızıl sep və bir medalyon alır. Medalyona Pərvinlə özünün şəklini qoydurur. Gül və başqa şeylər alaraq Füzuliyə yola düşür.

Hospitala yaralı vəziyyətdə gələn kapitan Kamil Mərdanovun həkim Pərvinə olan sevgisi romanın maraqlı səhnələrindəndir. Oxucu intizarda qalır.

Görəsən Pərvin Kamilin sevgisinə necə cavab verəcək. Özlüyündə düşünüb-daşınan Pərvin hər dəqiqə ölümlə üzbəüz olan bir döyüşçüyə nə desin? Necə desin ki, mən başqasını sevirəm.

Bu Xəyalın sevgisinə xəyanət etmək deyilmi? Qulağına Xəyalın səsi gəlir. "O mənim kimi ölümün qucağına gedir. Onun ümidlərini öldürmə. Ümidsiz əsgər tez həlak olur" Xəyalın səsi Pərvini vəziyyətdən çıxardır və kapitana deyir: "Siz qələbə ilə qayıdın. Ona kimi mən də fikirləşim. Bu elə də asan məsələ deyil", - deyən Pərvinin cavabından ruhlanan Kamil yenidən cəbhəyə böyük arzu və ümidlərlə dönür. Vətənin taleyini öz şəxsi arzu və istəklərindən, hətta sevgisindən üstün tutan Pərvin ancaq bu cür hərəkət etməlidi.

Gecəni Pərvinin yanında qonaq qalan Xəyal aldığı qızıl sep və medalyonu sevgilisinin boynuna taxaraq "Səni nişanladım. Qaldı toy məsələsi. Onu da Allah qoysa müharibə qurtarandan sonra edərik" deyir.

**- Kaş o gün tez gələydi, bizim də həsrətimizə son qoyulaydı. - deyən Pərvin həmin günün həsrətində olduğunu dilinə gətirir.**

**(ardı var)**

---

## *İranda gənc türkmən şair edam edilə bilər*



**İranın Gülüstan (Türkmən səhra) əyalətinin Günbəd-Kavus şəhərində yaşayan 22 yaşlı gənc şair Daniyal Qızılcaini edam təhlükəsi gözləyir.**

Mədəni fəala qarşı edam cəzası ilə nəticələnə biləcək "müharibə" ittihamı irəli sürülüb.

**Qeyd edək ki, türkmən şair etiraz məzmunlu şeir yazdığına və onu yaydığına görə noyabrın 16-da təhlükəsizlik məmurları tərəfindən saxlanılıb.**

## *Koronavirus qripə qarşı immuniteti öldürüb*

**"Qrip virusuna qarşı əhalinin immuniteti formalaşmayıb, ona görə də indi o, koronavirusdan daha təhlükəlidir".**

Bunu rusiyalı virusoloq, tibb elmləri namizədi Pavel Volçkov deyib.

Onun sözlərinə görə, insanlar kütləvi şəkildə koronavirusa yoluxduğundan əhalidə kütləvi immunitet formalaşıb.

"Qrip viruslarına qarşı immunitet isə zəifləyib və müəyyən olunmuş həddən aşağı düşüb", - deyən mütəxəssis bunun epidemiya ilə nəticələnə biləcəyini vurğulayıb.

Virusoloqun fikrincə, insanlar hazırlıqlı olsalar, ən azı peyvənd hesabına əhalinin immuniteti formalaşsa, o zaman qrip epidemiyası daha asan keçər, ya da ümumiyyətlə baş verməyə bilər.



*Əhməd Orucoğlu*

# Uzunqulağın Adəm övladına iradları...

**Biz eşşəklər üçün bir çox məsələlər qaranlıq qalıb. Niyə adəm övladı meymun görəndə gülümsəyir, eşşək görəndə qaş-qabağın sallayır? Niyə adəm övladı pis adam görəndə biz eşşəklərə oxşadır? Biri sərxoş olanda ona deyirlər ki, eşşək kimi içmisən. Halbuki, biz eşşəklərin dilinə heç vaxt spirtli içki dəyməyib.**

Bir yekəpər adəm övladı görəndə eşşək boydadır deyirsiz. Eşşəkdən də böyük heyvanlar var. Niyə demirsiz dəvə boydadır? Qorxursuz ki, dəvə üzünüzə tüpürər?

Biri çox yeyəndə, ona deyirlər ki, eşşək kimi yemisən. Biz eşşəklər heç vaxt normamızdan artıq yemirik. Əgər biz də sizin kimi normamızdan artıq yesəydik, artıq çəkidən əzab çəkərdik, diyetaya oturardıq, o da kömək etməyəndə plastik əməliyyat etdirərdik.

Biri oturmağını, durmağını, danışmağını bilməyəndə ona deyirsiz ki, eşşəklik eləmə. Biz eşşəklər heç zaman vaxtsız anqırmarıq, harda gəldi şıllaq atmarıq.

Futbolçu boş qapıya topu vura bilməyəndə, hakim penalti verməyəndə bütün stadion nədənsə bizim adımızı çəkir. Axı bizim günahımız nədir ki, adəm övladı öz işinin öhdəsindən gələ bilmir?

Biz eşşəklərin də hərdən-bir səhvləri olur. Səhvsiz canlı yoxdur. Atlar bizlərdən bəzilərini yoldan çıxartdı, nəticədə dünyaya qatır gəldi. Biz eşşəklər bunun üçün hələ də xəcalət çəkirik.

Biz eşşəklərin siz adəm övladlarından fərqimiz odur ki, eşşəklər erkək erkəklə, dişi dişilə yaxınlıq etməz, uyuşdurucu otlar yeməz.

Biz eşşəklər də dünyaya bala gətiririk. Balalarımızı südlə böyüdürük. Südümüz min bir dərdin dərmanıdır. Adəm övladından fərqli olaraq onlara süni yeməklər vermirik, fiquramızın yox, balamızın qayğısına qalırıq.

Biz eşşəklər adəm övladı kimi moda dalınca qaçmırıq. Bir gün yaxanızı açırsız, sabahı göbəyinizi bayırda qoyursuz. Bu sözlərdən sonra modelyerlər deyəcəklər ki, eşşək nə bilir moda nədir?!

Adəm övladı tez-tez bir-birlərinə deyirlər: eşşək kimi bir şeysən, səni ya dalına mindir, ya dalına min. Biz eşşəklər bu günə kimi heç kimi minməmişik. Amma əksinə bizə minirlər.

Heyvanlar arasında gözəllik müsabiqəsi keçirilsəydi, biz ceyrandan, maraldan sonra birinci olardıq. Göz desən bizdə, bel desən bizdə, dodaqlarımıza söz ola bilməz. Dodağımızın selikonu özümüzdəndir.

Adəm övladı tez-tez belə ifadə işlədir: Ou bala, oxu, atan kimi eşşək olma. Niyə adəm övladı biz eşşəkləri savadsizliq rəmzi kimi görür. Məgər başqa heyvanlar yazıb-oxuya bilirlər?!

Biz eşşəklər adəm övladından fərqli olaraq yerimizi bilirik. Biz heç vaxt gedib dəvədən, atdan qabaqda dayanmarıq. Biz bilirik ki, dəvənin dəvə yeri var, atın at yeri var, eşşəyin eşşək yeri.

Biz sizlərdən tez-tez eşidirik: Eşşək anqırar, tayın tapar. Bəli, anqırırıq tayımızı tapırıq. Xöşbəxt də yaşayırıq. Adəm övladı kimi bu gün evlənib , üç gündən sonra boşanmırıq.

Tez-tez deyirsiz: Eşşək kimi ağnama. Çimizdirən yox, qaşoğlayan yox, bəs biz eşşəklər ağnamayaq neynəyək?!

Biz eşşəklər adəm övladının bütün işlərinə yarıyırıq. Amma bizə qayğı göstərmirlər. Atın ayağına nal vururlar, hər gün qoşovlayırlar, dəvəni ayda bir dəfə yağlayırlar, it üçün nələr etmirlər, çimizdirirlər, saçını kəsdirirlər, yuva tikirlər, hətta paltar da tikdirirlər. Bizə çatanda döyəcləyirlər.

Siz deyirsiz adəmi adəm eləyən parədir, biz eşşəklər deyirik ki, eşşəyi eşşək edən zəhmətdir.

**Adəm övladları tez-tez bir-birinə deyirlər: dünyaya eşşək gəlib, eşşək kimi də gedəcəksən. Dünyaya eşşək gəlib eşşək kimi getmək biz eşşəklər üçün fəxrdir. Dünyaya insan kimi gəlib, nadan kimi getmək bax bu qəbahətdir.**

# Yuxuda savaş

## 13 yaşlı Ayxandan yeni hekayə

Hər kəsə salam. Bu gün mövzu tapa bilmədiyim üçün qərara gəldim ki, mətn yazım. Mətnimizin mövzusu isə qəza nəticəsində komaya düşən bir uşağın yuxular aləminə daxil olması və başına gələnlərdir. Elə isə gəlin başlayaq.

Günlərin bir günü Rasim yuxudan ayılanda saatın səkkiz tamam olduğunu görüb tez yerindən dik atıldı. Tələsik əynini geyinib qaça-qaça məktəbə yollandı. Dərsə gecikmişdi. Rasim ildırım sürətilə məktəbin qapısından içəri daxil oldu. Pilləkənləri iki-iki qalxaraq sinfə tərəf yüyürdü. Bəxtindən müəllimə hələ gəlməmişdi. Rasimin ürəyi az da olsa, rahatlamışdı. Bir saniyə dərindən nəfəs aldıqdan sonra kitab-dəftərini stolun üzərinə qoydu. Bu zaman sinfin qapısı açıldı. Müəllimə sinif otağına daxil oldu.

Bu gün Rasimgilin dörd dərsləri var idi. Dərs başladı. Şagirdlər sakitcə müəllimi dinləyir, verilən sualları əl qaldıraraq cavablayırdılar.

Saniyələr dəqiqələri dəqiqələr isə saatları təqib edirdi.

Dərslər bitdi. Şagirdlər sevincək halda məktəbdən çıxdılar. Rasim başına gələcəklərdən xəbərsiz şəkildə evə gedirdi. Bu zaman uzaqdan sürətlə gələn bir maşın Rasimə vurub dərhal oradan uzaqlaşdı. Rasim müvazinətini saxlaya bilməyib yerə sərildi. Bu zaman ətrafda olan insanlar dərhal Rasimin yanına qaçdılar. Rasim hərəkətsiz halda asfaltın üzərində uzanmışdı. Onu bu halda görənlər dərhal təcili yardım çağırdılar. Rasim tezliklə xəstəxanaya çatdırıldı. Lazımi müayinələr olundu, gərəkli müdaxilələr edildi.

Bu zaman Rasim gözlərini açdı, amma xəstəxanada yox, özünü meşəlik bir yerdə olduğunu gördü. Ətrafında bir-birindən gözəl ağaclar var idi. Daha da qəribəsi yanında üç uşağın olması idi. İki qız, bir oğlan. Hamı ayıldıqdan sonra çaşqın vəziyyətə ətraflarına və bir-birilərinə baxırdılar. Bu zaman göydə uçan dörd varlıq uşaqları görüb, sanki, nəsə axtarırmış kimi sevinclə onlara tərəf yaxınlaşdı. Uşaqlar isə əksinə, uçan varlıqları görüb hərəsi bir tərəfə qaçmağa başladılar. Varlıqların hərəsi bir uşağın dalınca düşüb çox keçmədən onları tutdular. Rasimi tutan varlığın adı Tomris idi. Onlar bura boş yerə gəlmədiklərini, bütün insanların gələcəyinin onların əlində olduğunu başa salmağa çalışdı.

Tomris Rasimi götürüb onu heyranedici bir saraya apardı. Tomris bütün uşaqlara onların buranın mühafizəçisi olduqlarını başa saldı. Sonra isə özlərini təqdim etdilər. Mühafizəçilərin dördü də qız idi - Atina, Sabira, Maluna və Tomris. Atina çəhrayı gözlü, sarısaçlı, ortaboylu idi. Sabira yaşıl gözlü, ağsaçlı idi. Malunanın isə qırmızı gözləri və qara saçları var idi. Tomris mavi gözlərə və mavi saçlara sahib idi. Hamısı bir-birindən gözəl idi. Tomris onların başçıları idi. Uşaqlar bir-biri ilə tanış olmuşdular, təkcə Rasim qalmışdı. Birinci Rasimə uzanan əl oğlandan oldu:

- Mən Murad, tanışlığımıza şadam, - dedi.

Qızlardan "mən Fatimə, mən Səma. Mən də Rasim. Şad oldum". Tomris sevincli halda:

- Onda gəlin gedək Morkuzun otağın. Bunu dediyi anda bütün uşaqlar bir ağızdan:

- Morkuz kimdi ki?

- Morkuz, sizdə daxil olmaqla, bütün insanlara yuxu gördürən varlıqdır, - Tomris dedi.

Mühafizəçilər uşaqlarla birlikdə pilləkənlərdən düşərək çox nəhəng bir zala daxil oldular. Zal o qədər böyük idi ki, qabaq-qabağa olan adamlar bir-birilərini görmürdülər. Hündürlüyü isə Everest dağından da yüksək idi və ortada nəhəng bir varlıq dayanırdı. O, Morkuz idi. Ona aşağıdan baxanda üzü görünmürdü. Morkuz uşaqları görüb öz boyunu balacalaşdırdı, uşaqlarla eyni boya endi. O, havada süzülürdü, uşaqlar heyrətə içində idilər. Atina uşaqların halını görüb tez hərəkətə keçdi və dedi:

- Hə, uşaqlar. Morkuz bizim liderimizdir və biz də onun köməkçiləriyik.

Morkuz Atinanın sözünü kəsib:

- Salam uşaqlar, necəsiz? Sizə böyük ehtimalla niyə burada olduğunuz danışılmayıb. Mən Morkuz, bu gördüyünüz ağaclar, heyvanlar və torpaqların sahibi mən ilə qardaşım, ilk insanla birlikdə yaradıldıq. Mən və qardaşım Tora insanlara yaxşılıq və pis yuxular gördürmək üçün dünyaya gəldik. İkimiz də insanlara yuxu gördürüb güc toplayırıq və bəzi güclərə yiyələnə bilirik. Amma tək fərqlə, insanların çoxu psixoloji cəhətdən qaranlıq olduğu üçün qardaşım daha çox güc toplayıb ən yaxşı bacarığını alacaq.

Murad sual verdi:

- Bəs o bacarıq nədir Morkuz?

Morkuz:

- Tora özünə bir ordu hazırlayır. Bu gördüyünüz divarı yıxıb hər yeri işğal edib bütün insanlara pis yuxu gördürərək daha da çox güc toplayıb dünyaya portal açacaq və dünyanın hakimiyyətini əlinə alacaq. Oradan da ucsuz-bucaqsız bir gücə sahib olub bütün qalaktikalara portal aça biləcək. Yəni onu dayandırmaq lazımdır. İndi sizi bir kapsulun içinə salacağıq, orada sizin özəl güclərinizi ortaya çıxardacağıq və yadınızdan çıxartmayın, bura yuxu aləmidir. Burada hər şey eləmək mümkündür. Sizin hər birinizin bir köməkçisi olacaq. Tomris sən Rasimin, Atina sən Səmanın, Sabira sən Muradın, Maluna sən də Fatimənin köməkçisi olacaqsan!

Uşaqlar ikinci mərtəbəyə qalxdılar, burada səkkiz ədəd kapsula var idi. Fatimə soruşdu:

- Niyə burada dörd yox, səkkiz ədəd kapsul var? Siz də bizimlə gələcəksiniz?

Maluna:

- Bəli, əzizim, biz sizə kömək edəcəyik. İki gün ərzində sizin gücləriniz ortaya çıxacaq. Daha sonra Tora və ordusuna qarşı savaşacağıq.

Uşaqlar və mühafizəçilər kapsullara girib heç kimin xəyal belə edə bilməyəcəyi ağappaq bir otaqda gözlərini açdılar. Tomris:

- Gəl Rasim, sənin gücünün nə olduğunu öyrənməyin vaxtıdır, - deyib əlini Rasimin başına qoydu. Gözlərini yumub onun da yummasını istədi. Sənin gücün sudur, sudan istədiyin hər şeyi suyu istədiyin kimi işlədə bilərsən. Lakin bunu əvvəlcə öyrənməlisən. Gəl başlayaq dedi.

Tomris bir stol və bir stəkan su yaratdı və Rasimə üzünü tutub:

- Gözlərini yum və bu suyu hərəkət etdirdiyini xəyal elə. Onun hərəkət etdiyini fikirləş, sonra o stəkanın içindən suyu al və istədiyin bir silah düzəlt. Rasim Tomrisin bütün dediklərini edib suya hakim olmağı bacardı. İki gün ərzində də bu bacarığı daha sürətli və gözəl edə bilirdi, amma bir problem var idi. Morkuz növbətçiləri yanına çağırdı. Bütün növbətçilər olduğu kapsuldan çıxıb Morkuza kömək etmək üçün aşağı düşdülər və bu vaxtı güclü bir zəlzələ baş verdi. Uçan bir adanı yaxşılıq və pislik olaraq ikiyə bölən divar yıxıldı. Toranın ordusu hücuma keçmişdi. Maluna bunu görüb Morkuza xəbər verdi.

- Tezcə savaşa hazır vəziyyətə gəlin. Savaş başladı. Burada sadəcə bir tərəf qazanacaq, tez olun. Morkuz əmrini verdi.

Tomris və bütün növbətçilər çaş-baş qalmışdılar. Amma özlərini tezcə toplayıb çölə çıxmışdılar. Toranın ordusu divardan otuz metrdən artıq irəliləmişdi. Növbətçilər və Morkuz bütün gücləri ilə ordunu məğlub etməyə çalışdılar, amma Toranın ordusu azalmaq bilmirdi. Çünki Tora tez-tez təzələrini yaradırdı. Morkuz əsəbiləşib havaya qalxdı və qardaşının yanına getdi. Başına bir böyük daş atdı. Daşın ölçüsü Günəş boyda idi, amma Toranın başı bir millimetr tərpənmədi.

Morkuz Tora ilə döyüşərkən gücü az olduğu üçün çox keçmədən yerə sərildi. Tora bir saniyədə qılınc yaratdı və Morkuzun boynuna dayadı.

- Növbətçilər, təslim olun, yoxsa, Morkuz öləcək. Deyə qışqırdı.

Növbətçilər başqa əlacları qalmadığı üçün təslim oldular amma anidən torpaq çökməsi baş verdi və bütün ordu həmin boşluğa düşdü.

Toranın alovdan olan silahına su topu kimi böyük bir qüvvə gəldi və Toranın silahı daşa döndü. Morkuz qardaşının əlindən çıxanda Tora öz ətrafının alovlara büründüyünü gördü. Sonradan şiddətli əsən bir külək Toranı yerə yıxdı.

Morkuz qardaşının yerdə olduğunu görüb gücünü çəkmək üçün tez başına əlini qoydu, Tora getdikcə zəifləyirdi. Morkuz güc qazanırdı. Sonra burada nə olduğunu anlamaq üçün üzünü növbətçilərə tutanda uşaqları gördü. Onların yanına yaxınlaşdı:

- Uşaqlar, afərin sizə. Sizin sayənizdə dünya böyük bir dərddən xilas oldu.

Rasim:

- Morkuz! Arxana bax! Tora yoxdur! Morkuz sakin bir tonda dedi:

- Qorxmayın, biz ikimiz də toqa adlı qülləyə atılmasaq, məhv ola bilmərik. Mən onun bütün gücünü aldım. O, on-on beş nəfərə ancaq pis yuxu gördürə bilər. Amma artıq sizin getmək vaxtınız gəldi. Siz ayılmasanız, əsl bədəninizdə problemlər ola bilər. Sizə etdiyiniz hər şeyə görə təşəkkür edirəm. Sağ olun, uşaqlar.

Növbətçilər, Morkuz və uşaqlar bir-biriləri ilə sağollaşdılar. Sıra ilə Səma, Murad, Rasim, Fatimə gözlərini yumdular. Rasim ayılanda valideynləri üçün toy-bayram idi. Hamı çox sevinirdi. Muradın başı üzərində duran anası onu ayıltmağa çalışırdı. Fatimənin ailəsi isə süfrə arxasında onu gözləyirdi. Səmaya gəlincə, yatağının yanında kağız var idi. Kağızda isə dükana gəl yazılmışdı. Hər bir uşaq məmnun, yuxular aləmində isə hər şey yolundadır.

Hə dostlar, hekayəmizin də sonuna çatdıq.

Hekayəni oxuyan hər bir kəsə təşəkkür edirəm. Özünüzə yaxşı baxın, sağ olun, var olun.

## Xaqani Əliyevin "Çələbi xan" tarixi dramının Şəki Dövlət Dram Teatrında ictimai baxışı olub



**Şəki Dövlət Dram Teatrında gənc rejissor Orxan Həmidlinin quruluşunda Xaqani Əliyevin " Çələbi xan" tarixi dramı əsəri əsasında eyni adlı tamaşanın ictimai baxışı olub.**

İctimai baxışda Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi teatr sektorunun müdiri Könül Cəfərova iştirak edib.

Tarixi dram Şəki xanlığını yaradan, tariximizdə hikmətli vəcəsur xan kimi ad qazanmış Hacı Çələbi xanın həyatından, parçalanmış Azərbaycan xanlıqlarını birləşdirmək uğrundaapardığı mübarizədən, Şəki torpaqlarını yadellidüşmənlərdən qorumaq əzmindən bəhs edir. Çələbi xanınNadir şahla mənəvi mübarizəsi, zülm və ədalətin daimimübarizəsi fövqündə təsvir edilir və əsərin əsas süjet xəttinitəşkil edir.

Tarixi dramda Çələbi xanın Azərbaycan xanları ilə, xüsusənNadir şahın ölümünə fərman verdiyi Qarabağlı Pənahəlixanla münasibətlərinə, tariximizin qara ləkəsi olan " Qızılqaya xəyanəti"indən bəhs edilməklə bu hadisə zamanıÇələbi xanın tutduğu əsl Azərbaycan kişisinə xas olanmövqeyinə geniş yer verilmişdir.

Tamaşanın quruluşçu rəssamı Sahib Əhmədov, bəstəkarı Xalq artisti Sərdar Fərəcov, geyim üzrə rəssamı Günel Məmmədlidir. Rəqslərin quruluşu Çingiz Novruzəliyevə məxsusdur.

Bir-birindən maraqlı, rəngarəng tarixi obrazların yer aldığı tarixi tamaşada Əməkdar artistlər Rəhim Qocayev, Akif Yusifov, aktyorlar Aydın Əlibabayev, Lalə Məmməd, İlkin Rüstəmov, Rəşid Mirzəzadə, Rəşad Rüstəmov, Qurban Rəsulov, Çingiz Novruzəliyev, Fərahim Fətəliyev, Pərviz İsmayılov, Orxan Həmidli, Elvin Mabudov və Rəsul Məmmədrəhimov rol almışlar.

Tamaşa tamaşaçılar tərəfindən dəfələrlə alqışlarla qarşılanmışdır.

## Dilarə Əliyeva: "Bu obrazı oynamaqdan iki dəfə imtina etdim"

**Əməkdar artist Dilarə Əliyeva "Dönənlər" filmindəki obrazı barədə danışıb.**

Adalet.az xəbər verir ki, sənətçi Xəzər TV-də yayımlanan "Səhər mərkəzi" proqramında fərqli xarakterdə tamaşaçı qarşısına çıxacağını deyib:

"Görün orada nə qədər güclü dramaturgiya, aktyor oyunu, dinamika olmalıdır ki, saat yarım, bir masanın ətrafında, heç bir əlavə məkan olmadan tamaşaçını qorusun saxlasın.



Aktrisa kimi yaradıcılığımda bu qədər "oynayım, yoxsa oynamayım" dilemması qarşısında qaldığım heç bir obraz olmayıb. Bu xarakteri oynamaqdan iki dəfə imtina etdim. Tərəddüd etdim ki, insanlar Dilarə Əliyevanı belə bir obrazda görməyə hazırdırlarmı? Buradan tamaşaçılara demək istəyirəm ki, bəlkə onlar mənə başqa cür yanaşırlar. Mənə də öz işinə peşəkar yanaşan bir aktrisa kimi fərqli xarakterlər oynamaq, cildən-cildə girmək, bunu yaşamaq maraqlıdır. Bu, artıq mənim ruhumdadır. Başqalaşmaq, başqa obrazlarla tanış olmaq istəyirəm. Tamaşaçılarımın bir qismi məndən üz döndərə bilər, amma bilin ki, aktrisa səhnəyə çıxıb öz obrazını oynaya bilər, oradan düşəndən sonra üstünün tozunu çırpıb gedib öz həyatını yaşayar. Hər hansı bir aktyorun mənfi obrazı oynaması onun nə xarakterinə, nə şəxsiyyətinə yansımır. Bunları ayırmağı bacaraq, aktyorları bu məharətinə görə alqışlayaq, gözümüzdən salmayaq. Bir də görürsən belə aktyorlara tamaşaçı deyir ki, gözümdən düşdü. Nəyə görə? Neylədi ki?".

**Qeyd edək ki, 28 dekabrda təqdim olunacaq filmdə baş rollarıda aktyorlar Elcan Rəsulov, Ziya Ağa, Oktay Mehtiyev, Fərhad Səmimi, aktrisalar Günay Əhməd, Oksana Rəsulova da çəkilib.**

**Əntiqə Kərimzadə**

## Nadirin səhhətində problem yaranıb



Müğənni Nadir Qafarzadə əməliyyat olunub.

Adalet.az xəbər verir ki, sənətçi ayağında yaranan damar genişlənməsi səbəbilə əməliyyat masasına uzanıb.

Özəl klinikaların birində əməliyyat olunan Nadir özünü yaxşı hiss etdiyini bildirib.

## Azərbyacanlı müğənni Ukraynadakı vəzifəsindən getdi



**Ukraynadakı "Qolos" yarışması ilə məşhurlaşan Vaqif Nağıyev Ukraynanın Azərbaycanlı Gəncləri Təşkilatındakı sədr vəzifəsindən gedib.**

Adalet.az xəbər verir ki, ifaçı bu barədə sosial media hesabında yazıb:

"Əziz dostlar! Nəzərinizə çatdırmaq istəyirəm ki, təşkilatımız yarandıqdan 3 il sonra mən söz verdiyim kimi bütün səlahiyyətləri təşkilatın yeni sədrinə həvalə edirəm. Mənə güvənən və bu çətin yolu mənimlə birlikdə keçdiklər üçün yaxınlarıma təşəkkür etmək istəyirəm. Gənclərə yol vermək vaxtı gəlib, biz bu seçimi etdik, inşallah çoxlarına örnək olar...".

Qeyd edək ki, təşkilatın yeni sədri Qəşəm Əhmədov olub.

## Rəfiqələr münasibətlərinə son qoydular

**Uzun illərdir rəfiqə olan aktrisalar Sevinc Əliyeva və Nərgiz Əliyeva arasında soyuq küləklər əsib.**

Adalet.az xəbər verir ki, onların münasibətlərini tamamilə bitiriblər.

Tez-tez görüşən, tədbirlərə bir qatılan Sevinc və Nərgiz instagramda bir-birini izləmədən çıxarıb. Hər iki məşhurun bu addımı yayılan xəbəri təsdiq etmiş olub.

**Əntiqə Kərimzadə**

# Dünyanın bu 15 ölkəsində Yeni il necə qarşılanır?

**AVSTRALİYA** - Bu uzaq ölkənin insanları yeni ilə çox səs-küylü daxil olurlar. Gecənin ortasında hamı fit, maşın siqnalı, kilsə zəngi, zurna kimi səslər çıxaran alətləri çalır və qulaqları kar edən səs çıxarır. Onlar inanırlar ki, bu səslər pis ruhları qovacaq.

**BRAZİLİYA** - Yeni ilin ilk günü bütün evlərdə ya mərci şorbası içilir, ya da düyü ilə mərci yeyilir. Həmçinin, Yeni il ərəfəsində İpenama çimərliyindən çiçəklər və şamlarla dolu kiçik qayıqlar okeana buraxılır. Həmin gecə dənizin üstü işıq selinə çevrilir.

**UZAQ ŞƏRQ** - Müxtəlif ölkələrdə Yeni il ərəfəsində bütün Budda heykəlləri yuyulur və təmizlənir. Həmin gecə hamı su ataraq bir-birini isladır. Deyirlər ki, gələn il çox yağıntılı olsun, məhsul bol olsun deyə belə edirlər. Həmçinin, həmin gecə ev heyvanları buraxılır. Uğurla qayıdacaqlarına inanılır.

**İSPANİYA** - Ölkədə yeni il zəngləri çalmağa başlayanda hamı 12 üzüm yeyir və arzu edir. Bu ənənə 1850-ci ildə üzüm istehsalçısı tərəfindən başlamışdır. İstehsalçı həmin il əldə etdiyi artıq məhsulu Yeni il gecəsi meydanlarda əylənənlərə paylayıb. Həmin gecə üzüm yemək bundan sonra ənənəyə çevrilib.

**YUNANISTAN** - Yeni il gecəsi qonşunun qapısından soğan başı asılır. Yenidən doğuşun simvolu hesab olunur. Valideynlər səhər qapıdakı soğanı övladlarının başına döyəcləyərək oyadırlar. Bundan əlavə, yeni ilin ilk günündə qapının ağzında nar sındırıb bərəkətli bir il arzulayırlar.

**YAPONİYA** - Buddist məbədləri Yeni il gecəsi 108 dəfə zəng çalaraq yeni ilin tanrısı Toşiqamiyə "xoş gəldin" deyirlər. Yapon qadınları həmin gecə evlərini təmizləyirlər.



**ESTONİYA** - Yeni il gecəsi evlərdə yeddi, doqquz və ya on iki növ xörək hazırlanır. Hər yeməyin gələn il qazanc, sağlamlıq və uğurlar gətirəcəyinə inanırlar. Yeməklərin bir hissəsi o gecə evə gələcəyinə inandıqları əcdadlarının ruhları üçün süfrəyə buraxılır.

**FİNLANDİYA** - Yeni il ərəfəsində qalay kiçik tavada əridilir. Sonra tava buzlu suya batırılır. Donan və müxtəlif formalar alan qalay parçalarına baxaraq gələcəyi oxumağa çalışılır.

**İRLANDİYA** - Subay qadınlar Yeni il gecəsi yorğanlarının altına ökseotu qoyurlar. Onlar inanırlar ki, bu ot onlara gələn ildə yaxşı ər tapmağa kömək edəcək. Bundan əlavə, yeni ilin ilk günü evə gələn ilk qonaq gələcək üçün də mühüm ipucları verir. Evə hündürboy, yaraşıqlı kişi ilk gələrsə, yeni ilin şanslı olacağına inanırlar. İlk gələn qonaq qırmızı saçlı bir qadındırsa, uğursuz Yeni il gələcək və onlar buna görə matəmə bürünürlər.

**ALMANİYA** - Gecəni müxtəlif peçenye yeyərək keçirən almanlar həmin gecə bütün televiziya kanallarında ağ-qara yayımlanan 1920-ci ildə Britaniyada çəkilmiş "Dinner For One" adlı musiqili tamaşaya baxırlar.

**ARGENTİNA** - Gecə 12-dən əvvəl lobya yeməyin yeni ildə uğurlar gətirəcəyinə inanılır. Ona görə də həmin gün bütün evlərdə bu xörək bişirilir. Digərləri isə gecə yarısı çamadanları ilə evlərinin qarşısında gəzirlər. Deyirlər ki, bu, onları yeni ildə çox səyahət etməyə vadar edəcək.

**EKVATOR** - Yeni il ərəfəsində hamı evinin qarşısında şər ruhları təmsil edən kağız və taxta kuklaları yandırır. Bu yolla yeni ilə pis reputasiyadan arınaraq təmiz girəcəklərinə inanırlar.

**TAYLAND** - Yeni il ərəfəsində ölkənin bir çox məhəllələri müharibə yerinə çevrilir. Çünki gecənin bir yarısı evlərinin pəncərəsindən qaranlığa silahla atəş açılır. Bu yolla bədxah cinlərin evə yaxınlaşmasının qarşısını aldıqlarına inanırlar.

**KOREYA** - Yeni il gecəsi qapının qarşısına süpürgə, dırmıq, ələk qoyub evə şeytan və şər ruhların girməsinə mane olmağa çalışırlar. Ertəsi gün təzə paltar geyinərək ailənin böyükləri ziyarət edilir. Yeni ilin ilk günü həmişə bir kasa düyü şorbası içirlər. Onlar bunun sağlam və uzun ömür təmin edəcəyinə inanırlar.

**VYETNAM** - Yeni il ərəfəsində bütün ev təmizlənir, mis və gümüş əşyalar cilalanır. Yeni ilin ilk günü həyətyanı sahələrə bambuk ağacları əkilir.

Hindistan və Pakistanın bir çox bölgələrində Yeni il ərəfəsində mütləq düyü yeyilir. Amerikanın cənub ştatlarında süfrəyə üyüdülmüş noxud və əmzik donuzdan hazırlanmış yemək qoyulur. Bu xüsusi yemək "Good Luck Hoppin John" adlanır. Şotlandiyanın şimalındakı kəndlərdə Yeni il gecəsi zibillə dolu çəlləklər yandırılır və küçələrə yuvarlanır. Köhnə ilin pisliklərindən qurtulmağı və təmiz yeni ilə girməyi simvollaşdırır. Avstriyada yeni il ərəfəsində südlük donuz yeyilir. Qonşuya badam və şokoladdan hazırlanmış donuz heykəlini hədiyyə edirlər.

**Eminquey**

## Aygün Kazımova fərqli tərzdə



**Xalq artisti Aygün Kazımova kamera qarşısına keçib.**

Adalet.az xəbər verir ki, müğənninin şəkillərinin müəllifi rusiyalı fotoqraf Vera Parohinadır.

Səhnənin əsas ulduzu Kazımovanın fərqli tərzi üzərində Ülkər Zahidli çalışıb. Qeyd edək ki, Rusiyada lentə alınan fotosessiyada sənətçi saç və makiyajını da əcnəbi komandaya həvalə edib.

## Nazpəri və Mətanətdən diqqətçəkən addım



**Xalq artisti Nazpəri Dostəliyeva və Əməkdar artist Mətanət İsgəndərli sosial şəbəkədə paylaşımı ilə diqqət çəkib.**

Adalet.az xəbər verir ki, məclislərin birində iştirak edən müğənnilər Xalq artisti Ağadadaş Ağayevin də yer aldığı şəkilləri instaqramda izləyicilərlə bölüşüb.

Diqqət çəkən məqam isə, Dostəliyeva və İsgəndərlinin paylaşımlarında hər birinin yalnız özünü fotoşopla gəncləşdirməsi olub. Bəhs etdiyimiz şəkilləri təqdim edirik

**Əntiqə Kərimzadə**

"Tikmat" təchizat şirkəti tərəfindən inşa olunmuş Bakı şəhəri Xətai rayonu M.Hadi və X.Məmmədov küçələrinin kəsişməsi 2944 A məhəllədə yerləşən 7 saylı yaşayış binasının "B" blokunun 1-ci mərtəbəsindəki qeyri yaşayış sahəsinə (S=35 kv.metr) aid Ağayev İlyas Yasər oğlunun adına olan müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

Aqil Abbas Bəyimxanım Cavanşirovaya və yaxınlarına Xalq artisti

**Fikrət Verdiyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Məzahir Əhmədoğlu və Etibar Cəbrayıloğlu **Aqil Abbasa və mərhumun ailə üzvlərinə** əzizləri

**Məhəmmədəli müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az



Tiraj: 1500
Sifariş: 110
Çapa imzalanmışdır: 23.12.2022